RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 130 (10150) 24 iyul 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Yeni dünya nizamında Azərbaycan reallığı

## Bu gün regionda bərqərar olan sabitlik, təhlükəsizlik və qarşılıqlı əməkdaşlığa əsaslanan unikal inkişaf bunun göstəricisidir

Azərbaycanın həyata keçirdiyi uzaqgörən və balanslaşdırılmış siyasət iqtisadi müstəvidə də yeni reallıqlara birbaşa zəmin yaradıb və ölkəmizi Şərqlə Qərbin qovşağında əvəzsiz strateji mərkəzə çevirib. Buna görədir ki, ABŞ və Çin kimi dünya nəhəngləri belə ölkəmizlə ikitərəfli əlaqələrə xüsusi önəm verirlər.

Qlobal geosiyasi gərginliklər və alternativ marşrutların riskli hala gəlməsi fonunda Azərbaycanın üzərindən keçən Orta dəhliz Avrasiyanın ən təhlükəsiz və operativ ticarət arteriyasına çevrilib. Bakı limanı və Bakı-Tbilisi-Qars xətti qlobal təchizat zəncirinin qırılmaz hissəsidir.

Təbii ki, Orta dəhlizin ən mühüm və strateji halqalarından olacaq Zəngəzur dəhlizinin (TRIPP) perspektivi də çox böyükdür. Bu xəttin istifadəyə verilməsi potensialı ölkəmizin nəinki Naxçıvan Muxtar Respublikası ilə birbaşa quru əlaqəsini təmin edəcək, həm də türk dünyasını və bütövlükdə region ölkələrini yeni ticarət damarı ilə bir-birinə bağlayacaq.

Bu gün Azərbaycan qazı Avropa İttifaqına (Aİ) üzv 10 ölkəyə çatdırılır. Ənənəvi neft-qaz resurslarının nəqli ilə yanaşı, Azərbaycan artıq "yaşıl enerji" (külək və günəş) ixracatçısına çevrilərək Aİ ölkələrinin enerji keçidi strategiyasında açar rol oynayır.

Yeri gəlmişkən bildirək ki, iyulun 21-də Prezident İlham Əliyevin Almaniya Federal Kansleri Fridrix Mertslə Berlində imzaladığı "Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında İkitərəfli Tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə" xarici siyasətin növbəti zirvəsi oldu. İtaliyadan sonra Aİ-nin əsas siyasi-iqtisadi mühərriki olan Almaniya ilə də belə bir çərçivənin qurulması Azərbaycan-Aİ əlaqələrinin gələcək xəritəsini müəyyən edir.

Azərbaycanın ortaya qoyduğu inkişaf və sülh modeli göstərir ki, milli maraqlara söykənən qətiyyətli siyasət yalnız bir ölkənin deyil, bütöv bir regionun taleyini yaxşılığa doğru dəyişə bilər. Bu gün Bakının liderliyi ilə bərqərar olan sabitlik, təhlükəsizlik və qarşılıqlı əməkdaşlığa əsaslanan yeni reallıqlar bütün dünyanın rəğbətlə izlədiyi unikal inkişaf nümunəsidir.

7

# Azərbaycan-Misir dövlətlərarası münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur



## Misir Ərəb Respublikasının Prezidenti zati-aliləri cənab Əbdülfəttah əs-Sisiyə

Hörmətli cənab Prezident!

23 İyul - İnqilab Günü münasibətilə Sizi və Sizin simanızda bütün Misir xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Dostluq və qarşılıqlı hörmət ruhunda inkişaf edən Azərbaycan-Misir dövlətlərarası münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur.

Əminəm ki, xalqlarımızın iradəsinə uyğun olaraq ölkələrimiz arasında dostluq əlaqələri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə inkişaf edəcək və daha da genişlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, fəaliyyətinizdə müvəffəqiyyətlər, dost Misir xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 iyul 2026-cı il*

# Azərbaycan Avropanın ən etibarlı tərəfdaşlarından biridir

## Müstəqil xarici siyasət, iqtisadi imkanlar və səmimi əməkdaşlıq dövlətimizin Avropa ölkələri ilə münasibətlərini strateji müttəfiqlik səviyyəsinə yüksəldib



Avropa indi Azərbaycanı regional təhlükəsizlik, nəqliyyat-kommunikasiya və iqtisadi inteqrasiya baxımından əsas tərəfdaş hesab edir. Təsadüfi deyil ki, Ursula fon der Lyayen Azərbaycanı Avropa İttifaqının strateji tərəfdaşı adlandırmış, dünyada az sayda ölkənin Azərbaycan qədər regional əməkdaşlığın və sabitliyin inkişafına töhfə vermək imkanına malik olduğunu vurğulamışdı. Bu qiymətləndirmə Azərbaycanın regionun lider dövləti kimi qəbul olunduğunun nümayişidir.

7

# Azərbaycan ilə Almaniya arasında strateji körpü qurulur



Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri dünyada təhlükəsizlik sisteminin və iqtisadi münasibətlərin ciddi transformasiyaya uğradığı bir dövrə təsadüf edir. Əvvəlcə pandemiya, daha sonra Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdəki gərginlik, enerji bazarlarındakı dəyişikliklər və qlobal təchizat zəncirlərinin pozulması Avropa İttifaqını öz enerji, logistika və iqtisadi təhlükəsizlik siyasətinə yenidən baxmağa məcbur edib. Uzun illər formalaşmış birtərəfli asılılıq modeli artıq dayanıqlı hesab olunmur. Avropa İttifaqı enerji mənbələrinin, nəqliyyat marşrutlarının, kritik xammal və texnologiya təchizatının şaxələndirilməsini strateji prioritetə çevirib. Belə bir şəraitdə Cənubi Qafqaz əvvəlki kimi geosiyasi periferiya, yəni bir çevrədə yox, Avropa ilə Asiyanı birləşdirən enerji, ticarət və nəqliyyat qovşağı kimi çıxış edir.

6

# Sülhün hüquqi zəmanəti

## Yekun sazişin imzalanması üçün Ermənistan öz Konstitusiyasını dəyişdirməli, revanş iddiasından birdəfəlik imtina etməlidir



Rəsmi Bakının yekun sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü ən təməl şərt Ermənistan Konstitusiyasından və digər hüquqi-normativ aktlardan Azərbaycana qarşı ərazi iddialarını əks etdirən müddəaların tamamilə çıxarılmasıdır. Lakin Ermənistanda keçirilən son seçkilərdən sonra bu istiqamətdə verilən açıqlamalardan və planlaşdırılan işlərdən prosesin qeyri-müəyyən dövrə qədər uzanacağı görünür.

4

# Hər şəhərin öz rəmzi...



Paytaxtımızın rəmzləri Qız qalası və Alov Qüllələridir. Xalqımızın qədim keçmişindən - tarixindən, memarlığından, milli-mənəvi dəyərlərindən min dastan danışan Qız qalası. Yaxınlığında yüz göydələn ucalsa da, onun əzəməti azalmır və bu gün dünyanın ən mötəbər, ən qlobal tədbirlərinə evsahibiliyi edən şəhərimizin minlərlə qonağını, eləcə də milyonlarla sadə turisti heyrətləndirməkdə davam edir.

"Alov Qüllələri" isə Bakının Azərbaycan müstəqillik qazandıqdan sonra yaranan simvollarındandır. Bu, nadir mühəndislik işi və arxitektura nümunəsidir. Adı ölkəmizin qədim Odlar Yurdu olmasından qaynaqlanıb. "Alov Qüllələri" 2013-cü ildə "Ən yaxşı hotel və turizm mərkəzi" mükafatına layiq görülüb.

9

# "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci,23-cü və 27-ci bəndlərini rəhbər tutaraq,"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3(I kitab), maddə 125 (Cild I); 2024, № 3, maddə 248; 2025, № 1, maddə 13, № 4 (I kitab), maddə 318; 2026, № 4, maddə 292) 2-ci maddəsinin üçüncü hissəsində "və" sözü vergül işarəsi ilə əvəz edilsin və həmin hissəyə"vasitələrinin" sözündən sonra "və mopedlərin" sözləri əlavə edilsin.

**Maddə 2.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775,№ 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; 2025, № 1, maddə 1, № 2, maddə 101, № 4 (I kitab), maddələr 318, 322, № 5, maddə 433, № 6, maddələr 521, 524, № 7, maddə 626, № 12 (I kitab), maddələr 1118, 1129; 2026, № 1, maddələr 8, 13, 20; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu)18.65-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 18.65.1.2-ci, 18.65.2.2-ci, 18.65.3.2-ci və 18.65.6.3-cü maddələrə ismin müvafiq hallarında "yarımqoşqular" sözündən sonra ", habelə mopedlər" sözləri əlavə edilsin;

2.2. 18.65.4.1-ci və 18.65.4.1-1-ci maddələrə "vasitələrinin," sözündən sonra"o cümlədən mopedlərin, habelə" sözləri əlavə edilsin;

2.3. 18.65.5.1-ci və 18.65.7.1-ci maddələrə "vasitələri" sözündən sonra ", o cümlədən mopedlər" sözləri əlavə edilsin.

**Maddə 3.** "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 788 (Cild I); 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 315; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) 50-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 50.1-ci maddəyə "vasitələrinin" sözündən sonra "və mopedlərin" sözləri əlavə edilsin;

3.2. 50.2-ci maddəyəikinci halda "vasitələrinin" sözündən sonra ", habelə mopedlərin" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2026-cı il*

# Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 11-ci, 13-cü və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mənzil Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 612 (Cild I); 2024, № 5(I kitab),maddə 489; 2025, № 3, maddə 219, № 8, maddələr 738, 744; 2026, № 1, maddə 8) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 91-ci maddə üzrə:

1.1.1. 91.1.7-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 91.1.8-ci maddə əlavə edilsin:

"91.1.8. işğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşdırma fondunun yaşayış sahələri.";

1.1.2. 91.3-cü maddəyə "sahələri" sözündən sonra "(bu Qanunun 91.1.8-ci maddəsində nəzərdə tutulmuş yaşayış sahələri istisna olmaqla)" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 96-1-ci maddə əlavə edilsin:

**"Maddə 96-1. İşğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşdırma fondunun yaşayış sahələrinin təyinatı**

İşğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşdırma fondunun yaşayış sahələri məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə daimi yaşayış sahələrinə köçürülməsi və həmin yaşayış sahələrinin onların mülkiyyətinə verilməsi üçün nəzərdə tutulur.";

1.3. 98.1-ci maddəyə birinci halda "sahələri" sözündən sonra "və işğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşdırma fondunun yaşayış sahələri" sözləri əlavə edilsin;

1.4. aşağıdakı məzmunda 108-1-ci maddə əlavə edilsin:

**"Maddə 108-1. İşğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşdırma fondunun yaşayış sahələrinə məcburi köçkünlərin köçürülməsi və həmin yaşayış sahələrinin onların mülkiyyətinə verilməsi**

İşğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşdırma fondunun yaşayış sahələrinə məcburi köçkünlərin köçürülməsi və həmin yaşayış sahələrinin onların mülkiyyətinə verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

**Maddə 2.** "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 392 (Cild I); 2024, № 4, maddə 365, № 5 (I kitab), maddə 501; 2025, № 1, maddələr 15, 16) 14-cü maddəsinin üçüncü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. ikinci abzasa "və ya" sözlərindən sonra "əvvəlki yaşayış yerinin əvəzinə" sözləri əlavə edilsin;

2.2. üçüncü abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"bu Qanunun 14-cü maddəsinin üçüncü hissəsinin ikinci və üçüncü abzaslarında nəzərdə tutulan yaşayış yerlərindən imtina etdikdə.".

**Maddə 3.** "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 393 (Cild I); 2024, № 4, maddə 365, № 8, maddə 934) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3-cü maddənin ikinci hissəsində "əvvəlki yaşayış yerlərinə qayıtması üçün şəraitin yaradıldığı vaxtdan" sözləri "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin üçüncü hissəsinə əsasən məcburi köçkün statusunu itirdikləri gündən" sözləri ilə əvəz edilsin;

3.2. 5-ci maddənin ikinci hissəsinin ikinci cümləsində "köçkünlərin həmin yaşayış məntəqəsi daxilində başqa yaşayış sahəsinə köçürülməsini təmin" sözləri "köçkünlərə başqa yaşayış sahəsi təklif" sözləri ilə əvəz edilsin.

**Maddə 4. Keçid müddəalar**

4.1. Bu Qanun qüvvəyə mindiyi tarixədək əvvəlki yaşayış yerinin əvəzinə işğaldan azad edilmiş ərazilərdə başqa yaşayış yeri ilə əvəzsiz qaydada təmin edilmiş məcburi köçkünlər məcburi köçkün statusunu bu Qanun qüvvəyə mindiyi tarixdən itirirlər.

4.2. Bu Qanun qüvvəyə mindiyi tarixədək əvvəlki yaşayış yerinin əvəzinə işğaldan azad edilmiş ərazilərdə başqa yaşayış yeri ilə əvəzsiz qaydada təmin edilmiş məcburi köçkünlərin "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində nəzərdə tutulmuş sosial müdafiə tədbirlərinin qüvvədə olma müddəti onların belə yaşayış sahələri ilə təmin edildiyi vaxtdan hesablanır.

4.3. Bu Qanun qüvvəyə mindiyi tarixədək dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan və təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilən məcburi köçkünlərin təhsil haqqı onlar təhsilini başa vurduğu müddətədək dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2026-cı il*

# "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində,"Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 432-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 153 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 432-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 108-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 108-1-ci maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 108-1-ci maddəsinə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşdırma fondunun yaşayış sahələrinə məcburi köçkünlərin köçürülməsi və həmin yaşayış sahələrinin onların mülkiyyətinə verilməsi qaydasını dörd ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla təsdiq etsin;

2.2. "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 432-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi 2013-cü il 23 may tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məcburi köçkünlərə (ölkə daxilində köçürülmüş şəxslərə) "məcburi köçkün" statusu və onu təsdiq edən vəsiqənin verilməsinə dair Qaydalar"ın təkmilləşdirilməsinə dair üç ay müddətində zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 153 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 629 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə "103.2.1-ci," sözlərindən sonra "108-1-ci," sözləri əlavə edilsin;

4.2. 2.2-1-ci bənd 2.2-2-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. həmin Məcəllənin 108-1-ci maddəsində nəzərdə tutulmuş "orqanın (qurumun)" səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2026-cı il*

# "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Psixiatriya yardımı haqqında"Azərbaycan-Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 569 (Cild I); 2024, № 5 (I kitab), maddə 503, № 12 (II kitab), maddə 1350) aşağıdakı dəyişikliklər edilsin:

1. 7-ci maddə üzrə:

1.1. 7.2-ci maddənin birinci cümləsinə "edilir" sözündən sonra "və elektron sağlamlıq kartı sistemində saxlanılır" sözləri əlavə edilsin;

1.2. 7.5-ci maddə üzrə:

1.2.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Psixiatriya yardımı alan və ya əvvəllər psixiatriya yardımı almış şəxsə göstərilən yardım tədbirləri barədə məlumatlar şəxsin özü tərəfindən elektron sağlamlıq kartı sistemindən əldə edilir.";

1.2.2. ikinci cümlə üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Həmin şəxsin qanuni nümayəndəsinə qeyd olunan məlumatlar onun yazılı müraciətindən sonra 2 iş günü ərzində müəssisənin müdiriyyəti tərəfindən təqdim olunur.".

2. 10.2-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Müalicədən imtina edilməsi ilə bağlı məlumatlar elektron sağlamlıq kartı sisteminə daxil edilir.".

3. Aşağıdakı məzmunda 12.4-cü maddə əlavə edilsin:

"12.4. Tibbi xarakterli məcburi tədbirlərə cəlb edilən şəxslərin stasionar müalicəsi digər pasiyentlərdən təcrid olunmaqla aparılır.".

4. 17-ci maddə üzrə:

4.1. 17.2.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 17.2.5-ci maddə əlavə edilsin:

"17.2.5. bu Qanunun 19.2-1-ci maddəsində nəzərdə tutulmuş halda prokurorun və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) səlahiyyətli vəzifəli şəxsinin qərarı ilə.";

4.2. aşağıdakı məzmunda 17.4-cü maddə əlavə edilsin:

"17.4. Psixiatriya müayinəsinin yekununa (diaqnoza) dair dərhal müayinə üçün müraciət etmiş şəxsə, prokurora və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verilir.".

5. 19-cu maddə üzrə:

5.1. 19.1-ci maddəyə "ərizə" sözündən sonra "(qərar)" sözü əlavə edilsin;

5.2. aşağıdakı məzmunda 19.2-1-ci maddə əlavə edilsin:

"19.2-1. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə psixiatriya yardımının gecikdirilməsi onun özünün, yaxud başqa şəxslərin həyat və sağlamlığına təhlükə yaradarsa, şəxsin özünün və ya qanuni nümayəndəsinin razılığı olmadan psixiatriya müayinəsinin aparılması ilə bağlı qərar inzibati xətaya dair iş üzrə icraatı aparan prokuror və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) səlahiyyətli vəzifəli şəxsi tərəfindən qəbul edilir.";

5.3. 19.3-cü maddənin ikinci cümləsinə "Ərizədə" sözündən sonra "(qərarda)" sözü əlavə edilsin;

5.4. 19.4-cü maddənin birinci cümləsinə "ərizədə" sözündən sonra "(qərarda)" sözü əlavə edilsin;

5.5. 19.5-ci maddəyə "ərizəni" sözündən sonra "(qərarı)" sözü əlavə edilsin.

6. Aşağıdakı məzmunda 24.2-1-ci maddə əlavə edilsin:

"24.2-1. Məcburi hospitallaşdırma (tibbi xarakterli məcburi tədbirlər) zamanı pasiyentin özü və ya digər şəxslər üçün bilavasitə təhlükə doğuran hərəkətlərinin qarşısının alınması məqsədilə psixiatriya müəssisəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən hədlərdə rejim qaydaları və təhlükəsizlik tədbirləri təmin edilir.".

7.25.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Psixi pozuntu vəziyyətində olan şəxsin məhkəmənin qərarına qədər qeyri-könüllü psixiatriya stasionarına yerləşdirilməsi haqqında həkim-psixiatrın qərarı barədə müvafiq psixiatriya müəssisəsinin rəhbəri dərhal həmin şəxsin yaxın qohumlarına və ya qanuni nümayəndələrinə, prokurora və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) səlahiyyətli vəzifəli şəxsinə məlumat verməlidir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyul 2026-cı il*

# "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 iyul tarixli 444-VIIQD nömrəli Qanununun tətbiqi və "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 574 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 iyul tarixli 444-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 17.2.5-ci, 17.4-cü, 19.2-1-ci, 24.2-1-ci maddələrində və 25.1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 24.2-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 17.2.5-ci, 17.4-cü, 19.2-1-ci maddələrində və 25.1-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 24.2-1-ci maddəsinə uyğun olaraq, psixiatriya müəssisəsində məcburi hospitallaşdırma (tibbi xarakterli məcburi tədbirlər) zamanı rejim qaydalarını və təhlükəsizlik tədbirlərinin hədlərini üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 iyul tarixli 444-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 574 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 589 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci abzasa "(ikinci halda)" sözlərindən sonra ", 17.2.5-ci, 17.4-cü, 19.2-1-ci, 24.2-1-ci maddələrində və 25.1-ci maddəsinin ikinci cümləsində" sözləri əlavə edilsin;

3.2. dördüncü - yeddinci abzaslar müvafiq olaraq beşinci - səkkizinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"həmin Qanunun 24.2-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

3.3. səkkizinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

"həmin Qanunun 17.2.5-ci, 17.4-cü, 19.2-1-ci maddələrində və 25.1-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2026-cı il*

## "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 540 (Cild I) 2-ci hissəsində "köçkünlər öz doğma yurdlarına qayıdana, həmçinin müvəqqəti yaşamaq məqsədilə yeni qəsəbələrə və evlərə köçürülənədək" sözləri "köçkünlərə başqa yaşayış sahəsi təklif edilənədək" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2026-cı il*

## "Dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 227** **Bakı şəhəri, 21 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 aprel tarixli 383-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 29 aprel tarixli 655 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Ümumi təhsil haqqında", "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 9 yanvar tarixli 575 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 228** **Bakı şəhəri, 21 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Ümumi təhsil haqqında", "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 9 yanvar tarixli 575 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 18 mart tarixli 84 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 457 (Cild I); 2024, № 7, maddə 925; 2026, № 2, maddə 195) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi Qaydası"nın 3.10-cu bəndində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin və həmin bənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 273 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1003 (Cild I); 2024, № 2, maddə 230, № 10, maddə 1161; 2025, № 7, maddə 730, № 10, maddə 968, № 12 (II kitab), maddə 1258) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3-cü bənddən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın;

2.2. 2.1-ci bənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 274 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1004 (Cild I); 2024, № 2, maddə 230, № 10, maddə 1161; 2025, № 7, maddə 730, № 10, maddələr 968, 976, № 12 (II kitab), maddə 1258) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin 1.3-cü bəndindən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892, № 10, maddə 1160, № 11, maddə 1247; 2025, № 2, maddə 200, № 6, maddə 605, № 10, maddələr 967, 976, 982, № 11, maddə 1101, № 12 (II kitab), maddə 1248; 2026, № 1, maddə 91, № 3, maddə 263) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın 2.2.2-ci yarımbəndinin 3-cü abzasından (hər iki halda) "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 iyun tarixli 299 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 719; 2025, № 7, maddə 730, № 10, maddə 981) ilə təsdiq edilmiş "Dövlət tərəfindən yaradılan açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.6-cı bəndin birinci cümləsindən və 6.23-cü bəndin ikinci cümləsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

5.2. 4.1.24-cü yarımbənddən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 235 nömrəli Qərarı ilə təsdiq edilmiş "Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 225** **Bakı şəhəri, 20 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 961 (Cild I); 2024, №7, maddə 899; 2025, №12 (II kitab), maddə 1204) ilə təsdiq edilmiş "Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. İkinci sətrə "qaraciyər" sözündən əvvəl "ürək," sözü əlavə edilsin.

2. Yeddinci sətirdən "Müalicəvi" sözü çıxarılsın və həmin sətrə "sümük iliyi" sözlərindən sonra ", kök hüceyrələri" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Süni intellektin inkişafı üçün milli prioritet sektorların və müvafiq sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) siyahısı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 226** **Bakı şəhəri, 21 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 530 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın 8.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Süni intellektin inkişafı üçün milli prioritet sektorların və sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) siyahısı" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi və Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 iyun tarixli 403 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 229** **Bakı şəhəri, 21 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi və Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 iyun tarixli 403 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 12 aprel tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 272 (Cild I) ilə təsdiq edilmiş "Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə məhdud və açıq informasiya kateqoriyasına aid müşahidələrin aparılması, məlumatların hazırlanması və istifadəsi qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissə üzrə:

1.1.1. altıncı abzasa "Nazirliyi," sözündən sonra "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi," sözləri əlavə edilsin;

1.1.2. on ikinci abzasda "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə, "Dövlət Torpaq Komitəsi" sözləri "dövlət torpaq kadastrının aparılması hissəsində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 mart tarixli 42 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 231 (Cild I); 2024, № 6 (II kitab), maddə 724; 2025, № 4 (I kitab), maddə 397) ilə təsdiq edilmiş "Sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqların istifadəsi Qaydaları"nın 5-ci hissəsinə "Xidməti" sözündən sonra ", Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 1 iyul tarixli 90 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 581 (Cild I) ilə təsdiq edilmiş "Ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqinin aparılması qaydaları haqqında Əsasnamə"nin 3-cü hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Su obyektlərinin dövlət monitorinqi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən, balıqçılıq su obyektlərinin balıqçılıq təsərrüfatının monitorinqi aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən aparılır.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 230** **Bakı şəhəri, 22 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992 (Cild I); 2024, № 1, maddə 92, № 4, maddə 459, № 7, maddə 901, № 10, maddə 1172; 2025, № 2, maddə 183, № 4 (II kitab), maddə 413, № 7, maddə 724, № 10, maddə 984; 2026, № 1, maddə 89; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 6 may tarixli 130 nömrəli Qərarı) 2-ci hissəsində "iyulun" sözü "oktyabrın" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən sahibkarlıq subyektlərinin güzəştli kreditlərlə maliyyələşdirilməsi Qaydası"nın və "Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən investisiya qoyuluşunun həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 231** **Bakı şəhəri, 22 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Biznesinin İnkişafı Fondunun fəaliyyətinin təmin edilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 258 nömrəli Fərmanının 4.1-ci və 4.2-ci bəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən sahibkarlıq subyektlərinin güzəştli kreditlərlə maliyyələşdirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən investisiya qoyuluşunun həyata keçirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# YAP Sədrinin müavini Tahir Budaqov Çin Kommunist Partiyasının nümayəndə heyəti ilə görüşüb

İyulun 23-də Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini, Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ölkəmizə səfərin yekunları ilə bağlı Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamenti direktorunun müavini Kanq Şuayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Qonaqları salamlayan Tahir Budaqov tarixi ənənələrə, qarşılıqlı etimada və möhkəm dostluğa əsaslanan Azərbaycan-Çin münasibətlərinin müasir beynəlxalq münasibətlər sisteminin mühüm reallığı kimi nümunəvi xarakter daşıdığını və geniş perspektivlərə malik olduğunu bildirib. O, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin dövlətlərarası münasibətlərin inkişafını daim diqqət mərkəzində saxladıqlarını vurğulayıb.

YAP Sədrinin müavini qeyd edib ki, Prezident İlham Əliyevin 2025-ci ilin aprel ayında Çinə rəsmi dövlət səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"dan irəli gələrək iqtisadi-ticari, nəqliyyat-logistika, turizm, "yaşıl enerji", rəqəmsal texnologiyalar və digər sahələrdə çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi qarşılıqlı maraqların təmini və münasibətlərin gələcək inkişafı baxımından böyük əhəmiyyətə malikdir.

Azərbaycanın Cənubi Qafqazda həyata keçirdiyi sülh quruculuğundan bəhs edən Tahir Budaqov hər iki ölkənin mühüm qlobal təşəbbüslərlə çıxış etdiyini vurğulayaraq "Bir kəmər, bir yol" layihəsinin və Zəngəzur dəhlizinin geostrateji əhəmiyyətini diqqətə çatdırıb. O, beynəlxalq hüququn təməlində dayanan ərazi bütövlüyü və suverenlik prinsiplərini əsas götürən Azərbaycanın Vahid Çin siyasətinə qətiyyətli dəstəyini nəzərə çatdırıb.

YAP Sədrinin müavini nümayəndə heyətlərinin mütəmadi səfərlərinin ölkələr və siyasi partiyalar arasında münasibətlərin inkişafı baxımından xüsusi önəm daşıdığını qeyd edib. O, 2024-cü ilin noyabr ayında Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında imzalanmış Əməkdaşlıq Memorandumundan irəli gələn vəzifələrin indiyədək müvəffəqiyyətlə yerinə yetirildiyini vurğulayıb. Tahir Budaqov gənclərin ictimai-siyasi həyatda, eləcə də dövlət idarəçiliyində və partiya fəaliyyətində aktiv iştirakının önəminə toxunaraq bu sahədə səmərəli əməkdaşlığın davam etdirilməsinin vacibliyini bildirib. O, partiya diplomatiyasının bundan sonra da ortaq hədəflərin gerçəkləşdirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq Əlaqələr Şöbəsinin İnformatika və Tədqiqatlar Departamenti direktorunun müavini Kanq Şuay rəhbərlik etdiyi nümayəndə heyəti adından səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edərək səfərin onlarda dərin təəssürat yaratdığını söyləyib. O, iki ölkənin liderləri tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan-Çin münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğunu qeyd edib.

Kanq Şuay Çin Xalq Respublikasının dost və tərəfdaş Azərbaycanın ədalətli mövqeyini, o cümlədən ərazi bütövlüyünü və suverenliyini birmənalı şəkildə dəstəklədiyini vurğulayıb. Hakim partiyalar arasında işbirliyinin əhəmiyyətindən bəhs edən Kanq Şuay ÇKP nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində keçirilən məhsuldar görüşlərin ölkələr və partiyalar arasında əməkdaşlığın dərinləşdirilməsinə və tərəfdaşlıq münasibətlərinin inkişafına təkan verəcəyini bildirib.

Daha sonra nümayəndə heyətinin üzvləri Azərbaycan-Çin hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin mühüm tərkib hissəsi olan YAP-ÇKP əməkdaşlığının hazırkı durumu və gələcək hədəflərlə bağlı fikirlərini bildiriblər. Görüşdə yüksəksəviyyəli siyasi dialoq şəraitində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin davam etdirilməsinin və ümumi maraq doğuran məsələlər üzrə təmasların daha da gücləndirilməsinin vacibliyi vurğulanıb.

Qeyd edək ki, nümayəndə heyətinin İçərişəhərə, Dənizkənarı Milli Parka, "Sea Breeze" istirahət mərkəzinə, Mərkəzi Nəbatat Bağına, Bakı Gənclər Mərkəzinə, "Atəşgah Məbədi" Dövlət Tarix-Memarlıq Qoruğuna, Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinə, Azərbaycan Milli Xalça Muzeyinə, Dövlət Bayrağı Muzeyinə və Heydər Əliyev Mərkəzinə ziyarətləri də təşkil olunub. ÇKP nümayəndələri həmçinin Azərbaycan Dövlət Akademik Musiqili Teatrının "Operetta inciləri" konsert proqramını izləyiblər və Yeni Azərbaycan Partiyasının nümayəndələri ilə birlikdə ağacəkmə aksiyasında iştirak ediblər.

*"Azərbaycan"*

# Azərbaycanın orta gücə çevrilməsi uğurlu diplomatiyanın nəticəsidir



Azərbaycan Cənubi Qafqazın aparıcı dövləti olmaqla yanaşı, həm də beynəlxalq gündəliyə təsir imkanlarına malik orta güc kimi nüfuzunu möhkəmləndirib. Orta güc dövlətlərin hərbi və iqtisadi potensialla paralel müstəqil xarici siyasət, diplomatik çeviklik, etibarlı tərəfdaş imici və milli maraqları qətiyyətlə müdafiə etmək bacarığı ilə ölçülür.

**Milli Məclisin deputatı Könül NURULLAYEVA** qəzetimizə açıqlamasında deyib ki, Azərbaycanın son illərdə enerji təhlükəsizliyi, beynəlxalq nəqliyyat dəhlizləri, çoxtərəfli diplomatiya və regional əməkdaşlıq platformalarında fəal iştirakı ölkəmizin nüfuzunu əhəmiyyətli dərəcədə artırıb: "Xəzər hövzəsini Avropa ilə birləşdirən enerji marşrutları, Orta dəhlizin inkişafı, Türk Dövlətləri Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq platformalarda fəallıq Azərbaycanın geosiyasi çəkisini daha da gücləndirib. Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda ölkəmizin yeni bir mərhələyə qədəm qoyduğunu vurğulayaraq bəyan etdi ki, "Azərbaycan artıq orta gücə çevrilir və düşünürük ki, ölkəni orta güc kimi xarakterizə edən meyarların müəyyənləşdirilməsi mümkündür". Cənab Prezidentin də söylədiyi kimi, orta güc ölkənin potensialının etiraf olunmasıdır, onun öz milli maraqlarını müdafiə etmək bacarığının müəyyən edilməsidir".

Deputat qeyd edib ki, beynəlxalq münasibətlər sistemində orta güc hesab olunan dövlətlər böyük güclərlə rəqabət aparmaqdan daha çox, regional sabitliyin təmin edilməsində, dialoqun təşviqində, vasitəçilik missiyalarında və çoxtərəfli əməkdaşlıq mexanizmlərində fəal rol oynayırlar. Bu xüsusda rəsmi Bakı müxtəlif siyasi və iqtisadi mərkəzlərlə qarşılıqlı faydalı əməkdaşlıq quraraq balanslaşdırılmış diplomatiya həyata keçirir. Bu siyasət ölkəmizə həm Şərq, həm də Qərb üçün etibarlı tərəfdaş statusu qazandırıb. "Enerji diplomatiyası da Azərbaycanın beynəlxalq mövqeyinin güclənməsində mühüm rol oynayır. Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələr, təbii qaz ixracının genişlənməsi və yeni enerji layihələri Azərbaycanın strateji əhəmiyyətini artırıb. Bununla yanaşı, Bakı-Tbilisi-Qars dəmir yolu, Orta dəhliz və "Şərq-Qərb" nəqliyyat marşrutları ölkəmizi Avrasiya logistikasının əsas qovşaqlarından birinə çevirib", - deyə o əlavə edib.

K.Nurullayeva bildirib ki, Azərbaycanın beynəlxalq əlaqələri çox genişdir. Bunun nəticəsidir ki, Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. Bu reallıqlar ölkəmizin xarici siyasət strategiyasının beynəlxalq səviyyədə qəbul olunduğunu təsdiqləyir.

Deputat vurğulayıb ki, ən əsas məsələ siyasi etibarlılıq qazanmaq, regional təşəbbüslər irəli sürmək bacarığı, beynəlxalq tərəfdaşların etimadı və qlobal proseslərə təsir imkanlarının mövcudluğudur: "Ümumilikdə Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan nüfuzu və orta güc statusuna yüksəlməsi müstəqil dövlətçilik strategiyasının, ardıcıl xarici siyasət kursunun və milli maraqlara əsaslanan diplomatiyanın real nəticələridir. Mövcud geosiyasi şəraitdə rəsmi Bakı regional liderliyini möhkəmləndirməklə yanaşı, qlobal proseslərdə də söz sahibi olan etibarlı tərəfdaş kimi mövqeyini daha da gücləndirməkdədir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Sülhün hüquqi zəmanəti

## Yekun sazişin imzalanması üçün Ermənistan öz Konstitusiyasını dəyişdirməli, revanş iddiasından birdəfəlik imtina etməlidir

Cənubi Qafqaz regionunda uzunmüddətli münaqişədən sonra Azərbaycan və Ermənistan arasında de-fakto sülh şəraiti bərqərar olsa da, Bakı və İrəvanın yekun sülh sazişinə nə zaman imza atacağı bəlli deyil. 2025-ci ilin avqustundan etibarən sülh gündəliyində ciddi irəliləyişlər müşahidə olunub, praktiki dialoq intensivləşib.

Lakin prosesin hüquqi müstəvidə tamamlanması hələ də müəyyən maneələrlə qarşılaşır. İki ölkə arasında iqtisadi əlaqələrin, tranzit keçidlərin bərpası istiqamətində müəyyən addımların atılmasına baxmayaraq, dayanıqlı sülhün əldə olunması rəsmi İrəvanın üzərinə düşən öhdəliklərdən, xüsusilə Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılmasından asılıdır.

Rəsmi Bakının yekun sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü ən təməl şərt Ermənistan Konstitusiyasından və digər hüquqi-normativ aktlardan Azərbaycana qarşı ərazi iddialarını əks etdirən müddəaların tamamilə çıxarılmasıdır. Lakin Ermənistanda keçirilən son seçkilərdən sonra bu istiqamətdə verilən açıqlamalardan və planlaşdırılan işlərdən prosesin qeyri-müəyyən dövrə qədər uzanacağı görünür.

Ermənistanın Baş naziri Nikol Paşinyan bu yaxınlarda verdiyi bəyanatda yeni Konstitusiya layihəsinin mətninin ilin sonunadək ictimaiyyətin müzakirəsinə təqdim olunacağını diqqətə çatdırıb. Hökumət başçısı layihənin əvvəlcədən planlaşdırılan müddətdə dərc edilməməsini iyunun 7-də keçirilmiş növbədənkənar parlament seçkiləri ilə əlaqələndirib. Onun sözlərinə görə, hüquqi sənədin ətraflı və lazımi səviyyədə ictimai müzakirələrə çıxarılması məqsədilə prosesin vaxtı bir qədər təxirə salınıb.

Eyni zamanda Paşinyan növbəti dəfə yeni Konstitusiyada Ermənistanın Müstəqillik Bəyannaməsinə istinadların yer almalı olmamasını xüsusi vurğulayıb. Baş nazirin qənaətinə görə, bu cür revanşist və ərazi iddialarını ehtiva edən bəndlər regional sabitliyə və təhlükəsizliyə ciddi təhdid yaradır.

Ermənistan Mərkəzi Seçki Komissiyasının (MSK) "Avrasiya Alyansı" vətəndaş təşəbbüs qrupunun referenduma dair müraciətini təsdiqləməsi bu istiqamətdə müəyyən təşəbbüslərin olduğuna işarədir. Ekspertlər də bu addımın Ermənistanın gələcək xarici siyasət və geosiyasi kursunu müəyyən edəcək mühüm sınaq xarakteri daşıdığını qeyd ediblər.

O cümlədən Qərb tərəfdaşlarının, xüsusilə ABŞ və Avropa İttifaqının Paşinyan hökumətinə siyasi və iqtisadi dəstəyi də baş nazirin mövqelərini möhkəmləndirir. Paşinyan və komandası erməni cəmiyyətini inandırmağa çalışır ki, dövlətin suverenliyi, təhlükəsizliyi və tərəqqisi regional əməkdaşlıq, iqtisadi inteqrasiya və qonşularla sülh şəraitində yaşamaqdan keçir. Regional layihələrin dinc əhalinin gündəlik rifahına müsbət təsiri zamanla erməni cəmiyyətindəki köhnə stereotiplərin və revanşist təfəkkürün aradan qalxmasına zəmin yarada bilər.

Lakin layihənin ilin sonunadək təqdim olunacağı barədə açıqlama Konstitusiya dəyişikliyi ilə bağlı ümumxalq referendumunun bu il baş tutub-tutmayacağı məsələsini sual altında qoyur və sülh müqaviləsinin imzalanma müddətini uzadır.

Ermənistan parlamentindəki güclər nisbəti də prosesə birbaşa təsir göstərir. Seçkilərdən sonra müxalifət düşərgəsinin mandat sayının hansı səviyyədə olacağı və hakim partiyanın təşəbbüslərinə dəstək verə biləcək parlamentarilərin mövcudluğu hələ də qeyri-müəyyəndir. Bu durum Paşinyan hökuməti üçün ciddi daxili müqavimət riski yaradır.

Doğrudur, tərəflər rəsmi sülh sazişi imzalamadan da nəqliyyat-kommunikasiya xətlərinin açılması və ticarət əlaqələrinin qurulması istiqamətində irəliləyişlər əldə ediblər. Lakin indiki reallıqlara bağlı bu cür razılaşmalar gələcəkdə siyasi şəraitin dəyişməsi ilə pozula bilər. Üstəlik, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin tam başa çatması, habelə mövcud razılaşmaların dönməz xarakter alması yekun sülhün hüquqi müstəvidə təsbit olunması ilə mümkündür.

Hüquqi baxımdan qarantiyası olmayan sülh Ermənistanın özü üçün də təhdiddir. Ölkənin regional layihələrdə yer alması, beynəlxalq investisiyaları cəlb etməsi və bərabərhüquqlu tərəfdaşa çevrilməsi üçün Konstitusiyadakı revanşist müddəalardan imtina qaçılmazdır. Qonşu ölkələrə qarşı ərazi iddiasını saxlayan bir dövlətlə uzunmüddətli tərəfdaşlıq qurmaq mümkün deyil. Məhz buna görə də Bakının Ermənistandan Konstitusiya dəyişikliyi ilə bağlı haqlı tələbinin icrası təkcə tərəflər arasındakı sülhün qarantiyası olmayacaq, eyni zamanda bütövlükdə Cənubi Qafqazda barışın, təhlükəsizliyin və iqtisadi tərəqqinin etibarlı zəmanəti olacaq.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycanın Avropa istiqamətində fəallaşan siyasəti regionun gələcəyinə təsir edir

Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya son rəsmi səfəri və bu çərçivədə keçirilən yüksəksəviyyəli görüşlər Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında siyasi və iqtisadi əməkdaşlığın yeni mərhələyə keçdiyini göstərir. Bu proses yalnız ikitərəfli münasibətlər baxımından deyil, həm də Cənubi Qafqazın geosiyasi və geoiqtisadi əhəmiyyətinin artması baxımından mühüm nəticələr vəd edir.

Bu fikirləri AZƏRTAC-a açıqlaması zamanı türkiyəli **iqtisadçı-ekspert Canip NURAY** deyib.

Ekspert bildirib ki, Almaniya Avropa İttifaqının ən böyük iqtisadiyyatı olmaqla yanaşı, Aİ-nin siyasi qərarlarının formalaşmasında aparıcı rol oynayan ölkələrdən biridir.

"Bu baxımdan Prezident İlham Əliyevin Almaniyaya səfəri Azərbaycan ilə Avropa İttifaqı arasında strateji dialoqun daha da dərinləşməsi üçün əlverişli zəmin yaradır. Azərbaycan son illərdə etibarlı enerji təchizatçısı, mühüm logistika mərkəzi və regional sabitliyə töhfə verən dövlət kimi Avropanın diqqət mərkəzindədir. Almaniya ilə əlaqələrin inkişafı Avropa İttifaqının Azərbaycanla əməkdaşlığa verdiyi önəmin artdığını göstərən mühüm göstəricilərdən biridir. Avropa İttifaqı ilə iqtisadi əlaqələrin genişlənməsi Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyaların cəlb olunmasını sürətləndirə, yüksək texnologiyalar, "yaşıl enerji", rəqəmsal transformasiya və sənaye əməkdaşlığı sahələrində yeni layihələrin həyata keçirilməsinə imkan yarada bilər. Avropa şirkətlərinin Azərbaycana marağının artması ölkənin investisiya mühitinə olan etimadın güclənməsinin göstəricisidir. Bu isə yeni istehsal müəssisələrinin yaradılması, məşğulluğun artırılması və ixrac potensialının genişlənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycanın Orta dəhliz üzrə həyata keçirdiyi genişmiqyaslı infrastruktur layihələri də Avropa İttifaqı ilə əməkdaşlığın strateji əhəmiyyətini artırır", - deyə Canip Nuray vurğulayıb.

Onun fikrincə, Avropa ilə Asiyanı birləşdirən bu marşrutun inkişafı Azərbaycanı qlobal ticarət və nəqliyyat sisteminin əsas halqalarından birinə çevirir: "Almaniya və digər Avropa ölkələrinin Orta dəhlizə marağının artması təkcə iqtisadi deyil, həm də geosiyasi baxımdan yeni reallıq formalaşdırır. Azərbaycanın tranzit imkanlarının genişlənməsi region ölkələri arasında iqtisadi inteqrasiyanı gücləndirəcək, ticarət dövriyyəsini artıracaq və Cənubi Qafqazın beynəlxalq əhəmiyyətini daha da yüksəldəcək. Enerji təhlükəsizliyi sahəsində Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın genişlənməsi regionda sabitliyin möhkəmlənməsinə də müsbət təsir göstərəcək. Xəzər hövzəsinin enerji resurslarının Avropa bazarlarına təhlükəsiz və dayanıqlı şəkildə çatdırılması uzunmüddətli tərəfdaşlığın əsas istiqamətlərindən biri olaraq qalacaq".

Canip Nuray bildirib ki, Prezident İlham Əliyevin Almaniyaya son səfəri Azərbaycan-Avropa İttifaqı münasibətlərində yeni əməkdaşlıq imkanlarının formalaşdığını nümayiş etdirir. Onun sözlərinə görə, siyasi dialoqun intensivləşməsi, iqtisadi əlaqələrin genişlənməsi və nəqliyyat-logistika layihələrinin inkişafı Azərbaycanın regional lider mövqeyini daha da möhkəmləndirəcək, eyni zamanda Cənubi Qafqazın sabitliyi və iqtisadi inkişafı üçün yeni perspektivlər açacaq.

# Azərbaycan Kiçik Ada Dövlətlərinin Ümumdünya İrsinin qorunmasına dəstək verəcək

## Bu sahədə ölkəmizin beynəlxalq yardım təşəbbüsü UNESCO-nun qlobal forumunda elan edilib

Koreyanın Busan şəhərində keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 48-ci sessiyası çərçivəsində Azərbaycanın İnkişaf etməkdə olan Kiçik Ada Dövlətlərinə (SIDS) dəstək məqsədi daşıyan yeni beynəlxalq proqramı təqdim olunub.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəliyindən məlumat verilib.

Bildirilib ki, Ümumdünya İrs Mərkəzinin təşkilatçılığı ilə keçirilən "SIDS ölkələrinin Ümumdünya İrsi Strategiyası" mövzusunda yüksəksəviyyəli tədbirdə Azərbaycanın "Kiçik Ada Dövlətləri (SIDS) üçün Ümumdünya İrsi Yolunda Bacarıqların Artırılmasına Azərbaycan Respublikasının Beynəlxalq Texniki Yardım Təşəbbüsü" elan edilib.

Yeni təşəbbüs SIDS ölkələrinin institusional imkanlarının və peşəkar bacarıqlarının artırılmasına, kiçik ada dövlətlərinin nadir irs nümunələrinin UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilməsi sahələrində ekspert və texniki dəstəyin göstərilməsinə yönəlib.

Proqramın hazırlanması "Mədəniyyət və Təhsil üzrə Sertifikasiya İnstitutu" tərəfindən həyata keçirilir.



Tədbirdə çıxış edən Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev bildirib ki, proqram UNESCO-nun bu istiqamətdə həyata keçirdiyi fəaliyyətə əlavə töhfə vermək məqsədi daşıyır. Təşəbbüs SIDS ölkələrinin konkret ehtiyacları nəzərə alınmaqla, xüsusilə iqlim dəyişikliyinin Ümumdünya İrsinin qorunması üçün yaratdığı çağırışlara cavab vermək məqsədilə praktiki potensialın gücləndirilməsinə yönəlmiş dəstək mexanizmlərini təmin edir. Vurğulanıb ki, proqram bu sahədə beynəlxalq təcrübəyə malik "Mədəniyyət və Təhsil üzrə Sertifikasiya İnstitutu" tərəfindən cəlb olunacaq peşəkar ekspertlərin iştirakı ilə icra ediləcək.

Ümumdünya İrs Mərkəzinin direktoru Lazare Eloundou çıxışında proqramın əhəmiyyətini vurğulayaraq, Azərbaycanın SIDS ölkələrinə göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə edib.

Tədbirdə həmçinin bildirilib ki, Azərbaycanın irəli sürdüyü təşəbbüs beynəlxalq həmrəyliyin gücləndirilməsi, ümumdünya mədəni və təbii irsinin qorunması sahəsində təcrübə mübadiləsinin təşviqi, SIDS və digər həssas ölkələrin potensialının artırılması istiqamətində mühüm addımdır.












# *Yeni geosiyasi reallıqlar fonunda Bakı-Berlin dialoqu:* strateji tərəfdaşlığın yeni üfüqləri

Qlobal geosiyasi və geoiqtisadi nizamın yenidən formalaşdığı müasir dövrdə Azərbaycanın xarici siyasət strategiyası milli maraqların təmin olunması, regional liderliyin möhkəmləndirilməsi və beynəlxalq tərəfdaşlıq coğrafiyasının genişləndirilməsi prinsiplərinə söykənir. Bu xəttin ən mühüm və uğurlu addımlarından biri Prezident İlham Əliyevin Almaniya Federativ Respublikasına reallaşan rəsmi səfəridir. Cənubi Qafqazın iqtisadi və siyasi güc mərkəzi olan Azərbaycan ilə Avropa İttifaqının (Aİ) aparıcı hərəkətverici qüvvəsi olan Almaniya arasındakı bu yüksəksəviyyəli təmaslar, sadəcə, ikitərəfli əlaqələrin deyil, bütövlükdə Avrasiya məkanındakı strateji dialoqun yeni mərhələsini rəsmiləşdirir.

## Siyasi iradənin təzahürü: Berlində yüksəksəviyyəli görüşlər

Berlində Prezident Frank-Valter Ştaynmayer ilə aparılan müzakirələr regional təhlükəsizlik, Cənubi Qafqazda dayanıqlı sülhün və sabitliyin təmin olunması istiqamətində tərəflərin mövqelərinin yaxınlığını növbəti dəfə nümayiş etdirdi. Almaniya tərəfi Azərbaycanın regionda sülh gündəliyinin formalaşdırılması sahəsindəki səylərini və lider rolunu yüksək qiymətləndirir. Federal Kansler Fridrix Merts ilə keçirilən geniştərkibli danışıqlar siyasi münasibətlərin iqtisadi müstəviyə uğurlu transformasiyasını sürətləndirdi. Kanslerin bəyanatlarında səslənən fikirlərdən bir daha aydın olur ki, Berlin rəsmi Bakını təkcə regional tərəfdaş deyil, həm də Avropanın enerji və logistika təhlükəsizliyinin əsas təminatçılarından biri kimi qəbul edir. Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harms ilə görüş isə alman işgüzar dairələrinin Azərbaycana yönələn investisiya marağının konkret yol xəritəsinə çevrilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi.

## Hüquqi-strateji təməl: İmzalanan sənədlərin geoiqtisadi çəkisi

Səfər çərçivəsində imzalanan sənədlər münasibətlərin gələcək vektorunu müəyyən edən institusional təməllərdir. Bu sənədlər iki ölkə arasında yeni imkanlar pəncərəsi açır:

**Strateji Gündəliyə dair Birgə Bəyannamə:** Prezident İlham Əliyev və Kansler Fridrix Merts tərəfindən imzalanan bu sənəd tərəfdaşlığı keyfiyyətcə yeni, strateji müstəviyə yüksəldir. Bəyannamə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq hüququn aliliyinə sadiqliyini təsdiqləməklə yanaşı, innovasiya, rəqəmsal transformasiya, kibertəhlükəsizlik və iqlim dəyişikliyinə qarşı mübarizə kimi qlobal çağırışları hədəf alır.

**Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması:** Dövlət başçılarının siyasi iradəsinə uyğun olaraq reallaşan bu addım hər iki ölkənin özəl sektor təmsilçiləri üçün birbaşa və çevik dialoq platforması yaradır. Bu şura alman texnologiyalarının və investisiyalarının Azərbaycana cəlb edilməsi mexanizmini institusionallaşdırır.

## Almaniya mətbuatının səfərə reaksiyası və ekspert şərhləri

Azərbaycan Prezidentinin Berlində keçirdiyi görüşlər və əldə olunan razılaşmalar Almaniyanın nüfuzlu kütləvi informasiya vasitələrinin və analitik mərkəzlərinin diqqət mərkəzində olub. Alman mediası bu səfəri iki ölkə arasında iqtisadi və siyasi asılılığın müsbət mənada dərinləşməsi kimi qiymətləndirir:

**"Frankfurter Allgemeine Zeitung":** Qəzet rəsmi Berlinin yeni enerji axtarışlarını şərh edərək yazır: "Almaniya Rusiya qazından asılılığı minimuma endirdikdən sonra etibarlı tərəfdaşlar tapmaq xəttini prioritet seçib. Federal Kansler Fridrix Merts ilə Prezident İlham Əliyev arasında Berlində imzalanan strateji bəyannamə göstərir ki, Azərbaycan Avropanın, xüsusilə də Almaniyanın enerji təhlükəsizliyində əvəzedilməz regional aktora çevrilir. Bakı artıq yalnız xammal tədarükçüsü deyil, gələcəyin "yaşıl hidrogen" tərəfdaşıdır".

**"Handelsblatt":** Almaniyanın əsas biznes qəzeti iqtisadi əlaqələrin yeni institusional mərhələsinə toxunub: "Almaniya İqtisadiyyatının Şərq Komitəsi ilə Bakı arasında əldə olunan razılaşmalar alman sənaye nəhənglərinin Cənubi Qafqaza marağını stimullaşdırır. Kanslerin də ifadə etdiyi kimi, Azərbaycan iqtisadi baxımdan olduqca həyəcanverici və böyük potensiala malik üfüqlər vəd edir. İmzalanan sənədlər alman texnologiyalarının Azərbaycanın qeyri-neft sektoruna inteqrasiyasını sürətləndirəcək".

**"Die Welt":** Səfərin geosiyasi çəkisini şərh edən nəşr Orta dəhliz layihəsinə diqqət çəkib: "Berlin və Bakı regional sabitliyin qorunmasında həmrəydirlər. Çindən Avropaya uzanan ticarət yollarının şaxələndirilməsi fonunda Azərbaycanın moderatorluğu ilə inkişaf edən Trans-Xəzər Nəqliyyat Marşrutu Almaniya logistika sektoru üçün həyati əhəmiyyət kəsb edir. İlham Əliyevin rəsmi səfəri bu qlobal logistik dəhlizin rəqəmsallaşdırılması layihələrinə alman investisiyalarının axınını təmin edəcək".

## Münasibətlərin perspektivləri: Üç əsas sütun

Azərbaycan-Almaniya əlaqələrinin strateji təhlili göstərir ki, yaxın və ortamüddətli perspektivdə əməkdaşlıq üç əsas istiqamət üzrə şaxələnəcək:

**1. "Yaşıl enerji" və karbohidrogen tərəfdaşlığı:** Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu artıq ənənəvi təbii qaz ixracı hüdudlarını aşır. Ölkəmiz regional miqyasda "yaşıl enerji" layihələrinin mərkəzinə çevrilir. Almaniya texnoloji nəhənglərinin Xəzər dənizinin külək və Qarabağın günəş enerjisi potensialının reallaşdırılması layihələrinə cəlb edilməsi Berlinin xüsusi maraq dairəsindədir. Təbii qaz ixracının davam etdirilməsi ilə paralel olaraq, hidrogen və "yaşıl elektrik enerjisi" ixracı dəhlizlərinin qurulması Bakı və Berlinin iqlim hədəflərini birləşdirən əsas amildir.

**2. Orta dəhliz və logistik şaxələndirmə:** Avrasiya daxili yükdaşımalarında Orta dəhlizin əhəmiyyətinin kəskin artması fonunda, Azərbaycanın tranzit-logistika qovşağı kimi çəkisi sürətlə böyüyür. Almaniya öz tədarük zəncirinin təhlükəsizliyini təmin etmək üçün bu marşrutun rəqəmsallaşdırılması və infrastrukturunun genişləndirilməsində maraqlıdır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və dəmir yolu şəbəkələrinə alman logistika şirkətlərinin inteqrasiyası qaçılmaz perspektivdir.

**3. Yenidənqurma və innovativ investisiyalar:** İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları, habelə sənaye zonalarının qurulması alman şirkətləri üçün böyük investisiya bazarı deməkdir. Kansler Fridrix Mertsin də vurğuladığı kimi, Azərbaycanın təqdim etdiyi böyük investisiya proqramları alman sənayesi üçün cəlbedici şərtlər təklif edir.

Bir sözlə, Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri birmənalı olaraq Azərbaycan diplomatiyasının növbəti böyük uğurudur. Bu səfər göstərdi ki, Azərbaycan Avropanın həm etibarlı tərəfdaşı, həm də regionun gələcəyini şərtləndirən strateji subyektdir. Berlin ilə qurulan yeni tərəfdaşlıq modeli Azərbaycanın iqtisadi şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına və beynəlxalq arenadakı mövqelərinin daha da möhkəmlənməsinə fundamental töhfə verəcək.

# Biznes tərəfdaşlığı proqramının iştirakçıları Almaniyada təlim və təcrübə keçəcəklər

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Almaniyanın Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) birgə tərəfdaşlığı ilə həyata keçirilən "Almaniya ilə biznes tərəfdaşlığı" proqramı ("Partnering in Business with Germany") çərçivəsində təlimlər keçirilir.

KOBİA-dan AZƏRTAC-a bildirilib ki, alman ekspertlərinin keçirdiyi təlimlərdə yerli sahibkar və menecerlərə beynəlxalq iqtisadi kooperasiya, "yaşıl iqtisadiyyat"ın biznesin inkişafında rolu, Almaniya müəssisələri ilə işgüzar əlaqələrin qurulması barədə məlumat verilir, onları maraqlandıran suallar cavablandırılır. Növbəti mərhələdə iştirakçılar Almaniyanın Drezden və Berlin şəhərlərinə səfər edəcəklər. Səfər çərçivəsində onlar Biznesin İnkişafı Mərkəzində və qabaqcıl alman şirkətlərində təlim və təcrübə keçəcək, B2B görüşlərdə iştirak edəcəklər. Proqramı uğurla başa vuran iştirakçılara beynəlxalq sertifikat təqdim ediləcək.

Qeyd edək ki, proqram çərçivəsində may ayında elan edilmiş "yaşıl iqtisadiyyat" üzrə proqrama 50-dən çox yerli sahibkar və menecer müraciət edib. GIZ və KOBİA nümayəndələrinin iştirakı ilə müraciət edən şəxslərlə onlayn formatda fərdi müsahibələri keçirilib və onlardan 21-i proqramda iştirak etmək hüququ qazanıb.

Məlumat üçün bildiririk ki, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Almaniyanın Federal İqtisadiyyat və Enerji Nazirliyi arasında imzalanmış anlaşma memorandumuna uyğun olaraq 2009-cu ildən etibarən həyata keçirilən proqram (əvvəlki adı "Menecerlərin Təlimi Proqramı") Azərbaycan sahibkarlarının biznes sahəsində beynəlxalq təcrübəyə yiyələnməsi, bilik və bacarıqlarının artırılması məqsədi daşıyır. Ümumilikdə Azərbaycandan indiyədək proqramda 621 nəfər sahibkar və menecer iştirak edib.

Azərbaycan tərəfinin proqramın 560 məzunu arasında apardığı sorğunun nəticələrinə əsasən, proqramda iştirak etmiş bir çox yerli şirkətlər alman şirkətləri ilə əlaqələr qurub, bəziləri məhsullarını Almaniyaya ixrac edib və qarşılıqlı investisiya qoyuluşları həyata keçirilib. Proqram çərçivəsində də qazandığı təcrübə əsasında bir sıra yerli şirkətlər fəaliyyətini modernləşdirib. Bundan başqa menecerlərin əksəriyyəti qeyd olunan proqramın onların fərdi və karyera inkişafında, eləcə də çalışdıqları şirkətlərin inkişafında əhəmiyyətli rol oynadığını vurğulayıblar.

# Ceyhun Bayramov Rusiya Prezidentinin köməkçisi ilə görüşüb

İyulun 23-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyası Prezidentinin köməkçisi, Prezidentin iqlim məsələləri üzrə xüsusi nümayəndəsi Ruslan Edelgeriyevlə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə Rusiya arasında iqlim dəyişikliyi ilə mübarizə sahəsində əməkdaşlıq, COP məsələləri, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq mövzular müzakirə olunub.

Nazir Ceyhun Bayramov COP-29-a sədrliyi çərçivəsində Azərbaycanın qazandığı təcrübə və əldə etdiyi nəticələr, ölkəmizin COP-31-in sədrliyini həyata keçirəcək Avstraliya və ev sahibi Türkiyə ilə sıx əməkdaşlığı barədə məlumat verib.

Xəzər dənizi üzrə ikitərəfli əməkdaşlıq məsələlərinə də toxunulub. Bu çərçivədə Xəzər dənizi ilə bağlı yaradılmış ikitərəfli İşçi Qrupunun fəaliyyətinin intensivləşdirilməsinin əhəmiyyəti vurğulanıb.

Xəzər dənizinin su ehtiyatlarının və unikal ekosisteminin qorunmasının vacibliyi qeyd edilərək, bu istiqamətdə, o cümlədən kənd təsərrüfatı sahəsində innovativ texnologiyaların tətbiqi və birgə layihələrin həyata keçirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Mirko NOVAK: "Orta dəhliz mövzusunun Strateji Gündəlik haqqında Birgə Bəyannamədə yer alması mühüm dönüş nöqtəsidir"

"Azərbaycan Prezidentinin Almaniyaya rəsmi səfəri çərçivəsində imzalanan İkitərəfli Tərəfdaşlıq üzrə Strateji Gündəlik haqqında Birgə Bəyannamədə müəyyən edilmiş əməkdaşlıq sahələri arasında əlaqələndirmə, nəqliyyat infrastrukturu və Orta dəhlizin də yer alması, fikrimcə, mühüm dönüş nöqtəsi və Prezident Əliyevin Almaniya ilə əməkdaşlığı davamlı şəkildə möhkəmləndirmək istiqamətində irəli sürdüyü çox mühüm təşəbbüsdür. Orta dəhlizin Almaniya və Azərbaycan arasında birgə strateji gündəliyə daxil edilməsi göstərir ki, bu məsələ artıq ayrı-ayrı iqtisadi layihələr çərçivəsini aşaraq geosiyasi və iqtisadi baxımdan gələcək üçün mühüm əhəmiyyət kəsb edən istiqamət kimi qəbul edilir".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Orta dəhliz üzrə ekspert, "LUNO Group"un baş icraçı direktoru və BVL-in Avrasiya bölməsinin sədri Mirko Novak deyib.

Almaniyanın mühüm ixracat ölkəsi kimi sabit, şaxələndirilmiş və davamlı təchizat zəncirlərindən böyük dərəcədə asılı olduğunu vurğulayan M.Novak qeyd edib ki, son illər qlobal nəqliyyat şəbəkələrinin nə dərəcədə həssas ola biləcəyini aydın şəkildə göstərdi: "Bu baxımdan Orta dəhliz Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiyanı Çinədək birləşdirən əlavə bir bağlantı kimi əhəmiyyətini nəzərəçarpan dərəcədə artırır. Mən bunu Almaniyanın bu marşrut boyunca yerləşən ölkələrlə iqtisadi əlaqələrini uzunmüddətli perspektivdə genişləndirmək istədiyinə dair aydın bir siqnal görürəm. Xüsusilə müsbət haldır ki, burada söhbət təkcə infrastrukturdan getmir, həm də geniş mənada mobillik və əlaqəlilikdən, yəni nəqliyyat, rəqəmsallaşma, gömrük prosesləri, investisiyalar və iqtisadi əməkdaşlığın inteqrasiyasından gedir. Bu cür siyasi dəstək biznes üçün planlaşdırma baxımından daha böyük əminlik yaradır və gələcəkdə yeni investisiyaların, eləcə də əməkdaşlıq layihələrinin həyata keçirilməsi ehtimalını artırır".

Orta dəhlizin getdikcə alternativ marşrutdan strateji baxımdan zəruri ticarət yoluna çevrildiyini qeyd edən ekspert qeyd edib ki, Rusiya üzərindən keçən şimal marşrutunda yaranan məhdudiyyətlər və Yaxın Şərqdəki qeyri-müəyyənliklər Avropaya nəqliyyat dəhlizlərini şaxələndirməli olduğunu göstərdi. Bu gün şirkətlər artıq tək bir marşrutdan asılı olmaq istəmirlər, əksinə, təchizat zəncirlərini daha dayanıqlı qurmaq istəyirlər.

"Orta dəhliz Avropanı Cənubi Qafqaz vasitəsilə Mərkəzi Asiya ilə birləşdirməklə əhəmiyyətli xammal, sənaye və satış potensialına malik iqtisadi cəhətdən dinamik bir bölgəyə çıxış təmin edir. Bu, Almaniyanın logistika sektoru üçün əlavə nəqliyyat imkanları deməkdir. Bütün dəyər zənciri boyunca yeni multimodal şəbəkələr, yeni logistika mərkəzləri və əməkdaşlıq üçün yeni imkanlar yaranır. Lakin bu dəhlizin həqiqətən Avropa təchizat zəncirlərinin əsas komponentlərindən birinə çevrilməsi infrastrukturun nə dərəcədə ardıcıl şəkildə inkişaf etdirilməsindən və inzibati proseslərin uyğunlaşdırılmasından asılıdır. Rəqəmsallaşma, vahid gömrük prosedurları, sərhəd keçidlərinin təşkili və nəqliyyat cədvəllərinin sabitliyi dəmir yolu, liman və terminal infrastrukturuna yatırılan investisiyalar qədər vacibdir. Əminəm ki, Orta dəhliz qarşıdakı illərdə Avropanın logistika şəbəkəsində möhkəm yer tutacaq və digər marşrutların əvəzi kimi deyil, dayanıqlı təchizat zəncirlərinin əvəzolunmaz tamamlayıcısı kimi çıxış edəcək", - deyə M.Novak bildirib.

Ekspert həmçinin vurğulayıb ki, son illər Azərbaycan Avropa ilə Mərkəzi Asiya arasında və Çin ilə tranzit ticarətində mühüm logistika mərkəzinə çevrilib. Bakı Limanına qoyulan investisiyalar, dəmir yolu bağlantılarının genişləndirilməsi, müasir logistika və azad ticarət zonalarının yaradılması beynəlxalq şirkətlər üçün cəlbedici şərait yaradır. Alman logistika şirkətləri üçün bu, multimodal nəqliyyat həllərinin qurulması, müqaviləli logistika xidmətləri, anbar və paylama konsepsiyalarının və rəqəmsal təchizat zənciri həlləri sahəsində geniş imkanlar açır.

"Mən ən böyük potensialı biznes, dövlət qurumları və logistika assosiasiyaları arasında daha sıx əməkdaşlıqda görürəm. Təkcə infrastruktur kifayət deyil. Həlledici amillər etibarlı tərəfdaşlıqların qurulması, ortaq standartların formalaşdırılması və bütün maraqlı tərəflər arasında davamlı mübadilədir. Rəhbərlik etdiyim Alman Logistika Assosiasiyasının (BVL) Avrasiya bölməsi bu sahədə əhəmiyyətli töhfə verə bilər. Bu platforma bütün dəhliz boyunca fəaliyyət göstərən şirkətləri, qurumları və qərar qəbul edənləri bir araya gətirir, bilik mübadiləsini və konkret əməkdaşlıq layihələrini təşviq edir.

BVL Avrasiya bölməsi tərəfindən təşkil olunan tədbirlər, o cümlədən ötən ilin oktyabrında keçirilmiş "BVL Suplly Chain CX" çərçivəsində Orta dəhlizə həsr olunan, Azərbaycanın Almaniyadakı səfiri də daxil olmaqla qonşu ölkələrin çoxsaylı səfirlərinin iştirakı ilə keçirilən "Ambassador" Talk" və 2025-ci ilin mayında Almatıda keçirilən Qazaxıstan-Alman Nəqliyyat və Logistika Forumu kimi tədbirlər müntəzəm mübadiləni təşviq edir, qərar qəbul edənləri birləşdirir və marşrutun inkişafını fəal şəkildə təşviq edir. Çünki nəticə etibarilə Orta dəhlizin uğuru yalnız avtomobil və dəmir yolları ilə deyil, hər şeydən əvvəl beynəlxalq əməkdaşlığın keyfiyyəti ilə müəyyən olunacaq", - deyə ekspert qeyd edib.

**Prezident İlham Əliyevin Almaniya Federativ Respublikasına rəsmi səfəri Bakı-Berlin münasibətlərinin inkişafında yeni strateji mərhələnin əsasını qoydu. Səfər çərçivəsində İlham Əliyevin Almaniya Prezidenti Frank-Valter Ştaynmayer və Federal Kansler Fridrix Merts ilə keçirdiyi görüşlər, imzalanmış sənədlər və verilmiş siyasi mesajlar göstərdi ki, Azərbaycan-Almaniya tərəfdaşlığı artıq ənənəvi ikitərəfli əməkdaşlıq çərçivəsindən çıxaraq daha geniş geosiyasi və geoiqtisadi məzmun daşıyır.**



# Azərbaycan ilə Almaniya arasında strateji körpü qurulur

Danışıqların əsas mövzularını ölkələrimiz arasında siyasi əlaqələr, enerji və xammal təhlükəsizliyi, investisiya əməkdaşlığı, Orta dəhlizin inkişafı, Azərbaycan-Ermənistan sülh gündəliyi və beynəlxalq təhlükəsizlik məsələləri təşkil edirdi. Bu baxımdan səfərin ən mühüm nəticəsi Prezident İlham Əliyev və Kansler Fridrix Merts tərəfindən "Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında İkitərəfli Tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə"nin imzalanması oldu. Eyni zamanda Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına dair sənəd qəbul edildi. Bu qərarlar siyasi dialoqla iqtisadi əməkdaşlıq arasında daha sistemli əlaqənin qurulmasına və tərəfdaşlığın konkret mexanizmlərlə möhkəmləndirilməsinə xidmət edir.

Strateji gündəliyə dair Birgə Bəyannamə iki ölkə arasında münasibətlərin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirir. Sənəddə yüksəksəviyyəli siyasi məsləhətləşmələrin davam etdirilməsi, ticarət və investisiyaların təşviqi, enerji və bağlantılar, "yaşıl" və aşağı karbonlu hidrogen, təhlükəsizlik və müdafiə, minatəmizləmə, təhsil, mədəniyyət, rəqəmsal transformasiya, sənaye modernləşdirilməsi, elm və innovasiya sahələrində əməkdaşlığın dərinləşdirilməsi nəzərdə tutulur. Bu onu göstərir ki, Bakı ilə Berlin arasındakı münasibətlər yalnız cari maraqlara deyil, uzunmüddətli və çoxşaxəli strateji gündəliyə əsaslanan tərəfdaşlıq səviyyəsinə yüksəlir.

Prezident İlham Əliyevin mətbuata bəyanatında vurğuladığı kimi, imzalanmış sənədlər iki ölkənin əlaqələrini yeni səviyyəyə qaldırır və strateji dialoqun başlanmasını təmin edir. Dövlətimizin başçısı sənədlərin praktiki icrası üçün bir neçə İşçi qrupunun yaradılacağını da bildirir. Bu yanaşma səfərin yalnız siyasi bəyanatlarla məhdudlaşmadığını, konkret fəaliyyət planına və institusional mexanizmlərə əsaslandığını göstərir.

## 1996-cı ildən başlanan strateji xəttin davamı

Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfərinin mühüm xüsusiyyətlərindən biri onun tarixi varislik ənənəsini davam etdirməsidir. Müasir dövrdə Azərbaycanla Almaniya arasında münasibətlərin inkişafında əsas dönüş nöqtələrindən biri Ümummilli Lider Heydər Əliyevin 1996-cı il iyulun 1-4-də Almaniyaya etdiyi səfər olub. Həmin səfər müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın Avropanın ən böyük siyasi və iqtisadi güclərindən biri ilə uzunmüddətli əməkdaşlıq qurmaq iradəsini nümayiş etdirirdi. Almaniyanın siyasi rəhbərliyi, Bundestaq nümayəndələri, aparıcı biznes və maliyyə dairələri ilə keçirilən görüşlər Azərbaycanın müstəqil xarici siyasət kursunun Avropada daha geniş qəbul olunmasına və ölkəmizin dünya iqtisadi sisteminə inteqrasiyasına mühüm töhfə verdi.

30 il əvvəl əsası qoyulan bu strateji xətt bu gün tamamilə yeni geosiyasi şəraitdə davam edir. Ölkəmizin beynəlxalq sistemdəki mövqeyi isə artıq xeyli fərqlidir. Müasir Azərbaycan regional proseslərə təsir göstərən, enerji və nəqliyyat təhlükəsizliyinə real töhfə verən, müstəqil xarici siyasət həyata keçirən və Avropa ilə Asiya arasında bağlantı yaradan güclü dövlət kimi çıxış edir.

Son illərdə yüksəksəviyyəli qarşılıqlı səfərlərin intensivləşməsi də münasibətlərdəki dinamikanı təsdiqləyir. Prezident İlham Əliyevin Almaniyaya səfərləri və Münxen Təhlükəsizlik Konfransında davamlı iştirakı, eləcə də Frank-Valter Ştaynmayerin 2025-ci ilin yazında Azərbaycana səfər edən ilk Almaniya Prezidenti olması siyasi dialoqun sabit və ardıcıl xarakter daşıdığını göstərir. Kansler Fridrix Merts də Berlindəki bəyanatında məhz bu səfəri münasibətlərin inkişafında mühüm mərhələ kimi qiymətləndirdi.

## Avropanın dəyişən geosiyasi baxışı və Azərbaycanın artan rolu

Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri dünyada təhlükəsizlik sisteminin və iqtisadi münasibətlərin ciddi transformasiyaya uğradığı bir dövrə təsadüf edir. Əvvəlcə pandemiya, daha sonra Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdəki gərginlik, enerji bazarlarındakı dəyişikliklər və qlobal təchizat zəncirlərinin pozulması Avropa İttifaqını öz enerji, logistika və iqtisadi təhlükəsizlik siyasətinə yenidən baxmağa məcbur edib. Uzun illər formalaşmış birtərəfli asılılıq modeli artıq dayanıqlı hesab olunmur. Avropa İttifaqı enerji mənbələrinin, nəqliyyat marşrutlarının, kritik xammal və texnologiya təchizatının şaxələndirilməsini strateji prioritetə çevirib. Belə bir şəraitdə Cənubi Qafqaz əvvəlki kimi geosiyasi periferiya, yəni bir çevrədə yox, Avropa ilə Asiyanı birləşdirən enerji, ticarət və nəqliyyat qovşağı kimi çıxış edir.

Bu dəyişən geosiyasi mühit Azərbaycanın Avropa üçün əhəmiyyətini keyfiyyətcə yeni səviyyəyə yüksəldib. Azərbaycan artıq yalnız karbohidrogen ixrac edən ölkə kimi deyil, Avropanın enerji təhlükəsizliyinə, nəqliyyat bağlantılarına, "yaşıl enerji" keçidinə və Mərkəzi Asiya ilə əlaqələrinin qurulmasına töhfə verən strateji tərəfdaş kimi qəbul olunur.

2022-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması bu transformasiyanın mühüm siyasi ifadəsi idi. Memorandum "Cənub qaz dəhlizi"nin imkanlarının genişləndirilməsini və 2027-ci ilədək Avropa İttifaqına illik qaz tədarükünün ən azı 20 milyard kubmetrə çatdırılmasını nəzərdə tutur. Sənəd, eyni zamanda bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində uzunmüddətli əməkdaşlığın əsasını qoyur.

Bütün bunları nəzərə alaraq səfər zamanı enerji əməkdaşlığının əsas müzakirə mövzularından olması təbii idi. Prezident İlham Əliyev Azərbaycanın 2026-cı ildən etibarən Almaniyaya təbii qaz ixracına başladığını, Azərbaycan qazının artıq Avropa İttifaqının 10 ölkəsinə çatdırıldığını bildirdi. Dövlətimizin başçısı ölkəmizin Almaniyaya neft də ixrac etdiyini, gələcəkdə isə Azərbaycan mənşəli "yaşıl enerji"nin Avropaya çatdırılmasının planlaşdırıldığını diqqətə çatdırdı.

Kansler Fridrix Merts də Azərbaycanla əməkdaşlığın Almaniyanın enerji təchizatının şaxələndirilməsi baxımından əhəmiyyətini vurğuladı. Onun sözlərinə görə, hazırkı qlobal böhran şəraitində respublikamızdan xam neftin və "Cənub qaz dəhlizi" vasitəsilə təbii qazın tədarükü xüsusi əhəmiyyət daşıyır. Tərəflər həmçinin bərpaolunan enerji və hidrogen sahəsində əməkdaşlığın genişləndirilməsi imkanlarını müzakirə etdilər.

Bu əməkdaşlıq yalnız cari enerji ehtiyaclarının qarşılanmasına yönəlmir. Azərbaycan ənənəvi enerji resursları, "yaşıl" elektrik enerjisi, külək enerjisi və hidrogen potensialını birləşdirən uzunmüddətli enerji tərəfdaşı kimi Almaniya və bütövlükdə Avropa üçün əhəmiyyətini artırır.

## Yeni geoiqtisadi xəritənin əsas marşrutu

Azərbaycan-Almaniya tərəfdaşlığının digər mühüm istiqaməti nəqliyyat və logistika bağlantılarıdır. Şimal istiqamətində mövcud geosiyasi məhdudiyyətlər və digər marşrutlardakı risklər fonunda Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu - Orta dəhliz Avropa ilə Mərkəzi Asiyanı birləşdirən ən perspektivli alternativlərdən biri kimi ön plana çıxır.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, Xəzər dənizi üzərindən multimodal daşımalar və Azərbaycanın inkişaf etdirdiyi yol infrastrukturu ölkəmizin bu dəhlizin əsas qovşaqlarından birinə çevrilməsinə imkan verir. Almaniya kimi ixracyönümlü sənaye iqtisadiyyatı üçün Orta dəhliz Mərkəzi Asiya bazarlarına daha etibarlı çıxış, kritik xammal tədarükünün şaxələndirilməsi və təchizat zəncirlərinin dayanıqlığının artırılması deməkdir.

Prezident İlham Əliyev Berlindəki bəyanatında Azərbaycanın Avropa ilə Mərkəzi Asiya arasında körpü rolunun artdığını və bağlantılar sahəsində konkret fəaliyyət planının nəzərdə tutulduğunu bildirdi. Kansler Fridrix Merts də Cənubi Qafqazın Avropa ilə Asiya arasında körpü kimi əhəmiyyətinin yüksəldiyini, yeni nəqliyyat və ticarət dəhlizlərinin böyük iqtisadi potensial yaratdığını vurğuladı.

Prezident İlham Əliyevin Almaniyaya səfərinin mühüm siyasi istiqamətlərindən biri də Cənubi Qafqazda sülh, təhlükəsizlik və sabitlik məsələləri oldu. Almaniya rəhbərliyi Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində əldə olunan nəticələri yüksək qiymətləndirdi və davamlı sülhün bərqərar olmasına dəstəyini ifadə etdi. Kansler Fridrix Mertsin Azərbaycan-Ermənistan sülh gündəliyində əldə edilmiş irəliləyişi tarixi fürsət adlandıraraq Almaniyanın və Avropa İttifaqının regionda uzunmüddətli sabitliyin təmin olunmasında maraqlı olduğunu bildirməsi, Strateji gündəliyə dair Birgə Bəyannamədə də Almaniyanın iki ölkənin davamlı sülhə nail olmaq istiqamətində səylərini tam dəstəkləməsinin təsbit olunması da əhəmiyyətli məqamlardır. Bu yanaşma rəsmi Berlinin Cənubi Qafqaza baxışında baş verən dəyişikliyi nümayiş etdirir. Almaniya regionu yalnız böhranlar və münaqişələr prizmasından yox, Avropa ilə Asiya arasında sabitlik, enerji təhlükəsizliyi və iqtisadi əməkdaşlıq məkanı kimi qiymətləndirməyə başlayır. Azərbaycan isə bu prosesdə regional gündəliyi formalaşdıran və sülh təşəbbüsləri irəli sürən əsas aktorlardan biri kimi çıxış edir.

## Biznes və investisiyalar üçün yeni imkanlar

Hazırda Azərbaycanda 200-dən çox Almaniya şirkəti fəaliyyət göstərir. Amma səfər çərçivəsində Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması iqtisadi münasibətlərə əlavə impuls verə bilər. Alman şirkətlərinin ölkəmizdəki fəaliyyətinin genişləndirilməsi, qarşılıqlı investisiyalar, yüksək texnologiyalar, "yaşıl enerji", sənaye kooperasiyası və infrastruktur sahəsində konkret təkliflərin müzakirəsi bu baxımdan son dərəcə faydalıdır.

Azərbaycanın əlverişli coğrafi mövqeyi, inkişaf edən nəqliyyat infrastrukturu, enerji resursları, bərpaolunan enerji potensialı və regionun ən böyük bərpa-quruculuq proqramlarından birini həyata keçirməsi Almaniya şirkətləri üçün geniş imkanlar yaradır. Almaniyanın texnoloji və sənaye təcrübəsi isə Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi, rəqəmsal transformasiya və sənaye modernləşdirilməsi prioritetləri ilə üst-üstə düşür.

Lakin Azərbaycan-Almaniya münasibətləri yalnız siyasi və iqtisadi maraqlara əsaslanmır. İki xalq arasında tarixi və humanitar bağlar münasibətlərin mühüm dayaqlarındandır. Məlumdur ki, XIX əsrin əvvəllərindən etibarən alman ailələrinin Azərbaycanda məskunlaşması nəticəsində Göygöl, Şəmkir və digər bölgələrdə alman yaşayış məntəqələri formalaşıb. Alman icmaları Azərbaycanın üzümçülük, şərabçılıq, memarlıq və sənaye mədəniyyətinin inkişafına mühüm töhfələr veriblər. Azərbaycan dövləti bu gün də alman kilsələrinin, tarixi binaların və digər mədəni irs nümunələrinin qorunmasına xüsusi diqqət göstərir. Təhsil və elm sahəsində əlaqələr, tələbə mübadilələri, Almaniyada çalışan azərbaycanlı alimlər, həkimlər, mühəndislər və informasiya texnologiyaları mütəxəssisləri iki ölkə arasında insanlararası əlaqələrin daha da genişlənməsinə xidmət edir. Almaniyada fəaliyyət göstərən Azərbaycan diasporu da ictimai, elmi və mədəni münasibətlərin inkişafında mühüm rol oynayır.

Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfərinin nəticələri göstərir ki, Bakı ilə Berlin arasında münasibətlər yeni keyfiyyət mərhələsinə daxil olub. İmzalanmış strateji gündəlik siyasi dialoqun genişləndirilməsi ilə yanaşı, enerji, nəqliyyat, investisiyalar, təhlükəsizlik, innovasiya, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın uzunmüddətli çərçivəsini müəyyənləşdirir.

Bu səfər həm 1996-cı ildə əsası qoyulmuş strateji xəttin davamı, həm də dəyişən qlobal reallıqlara verilən ortaq cavabdır. Avropanın enerji və təchizat mənbələrini şaxələndirməyə, yeni nəqliyyat marşrutları qurmağa və Cənubi Qafqazda davamlı sülhü dəstəkləməyə çalışdığı bir dövrdə Azərbaycan Almaniya üçün etibarlı və perspektivli tərəfdaş mövqeyini möhkəmləndirir.

Rəsmi Bakı və Berlin arasında qurulan strateji körpü yalnız iki ölkənin milli maraqlarına xidmət etmir. Bu tərəfdaşlıq Avropa ilə Asiya arasında enerji və nəqliyyat əlaqələrinin gücləndirilməsi, Cənubi Qafqazda sabitliyin təmin olunması və daha dayanıqlı Avrasiya iqtisadi məkanının formalaşdırılması baxımından da mühüm əhəmiyyət daşıyır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın uzunmüddətli iqtisadi transformasiyasının növbəti mərhələsi

Xəbər verildiyi kimi, iyulun 20-də Prezident İlham Əliyev Almaniyaya rəsmi səfər edib. Səfər çərçivəsində bir sıra görüşlər keçirilib və iki ölkə arasında əlaqələrin daha da inkişafına stimul verən "Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında İkitərəfli Tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə" imzalanıb. İmzalanan sənədlər sırasında Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair bəyannamə xüsusi əhəmiyyətə malikdir. Bu sənəd Azərbaycan və Almaniya arasında iqtisadi əlaqələrin yeni məcrada inkişafına təkan verməklə, iki ölkənin biznes dairələri arasında yeni əməkdaşlıqlara yol açacaq. Şura, həmçinin investisiya imkanlarını artırmaqla, ölkədə biznes və investisiya mühitinin yaxşılaşdırılmasına öz töhfəsini verəcək.



**Milli Məclisin deputatı Tahir MİRKİŞİLİ** mövzu ilə əlaqədar qəzetimizə açıqlamasında deyib ki, bəzən dövlət başçılarının xarici səfərlərinin nəticəsi yalnız imzalanan sənədlərdə deyil, həm də dəyişən geoiqtisadi xəritədə görünür. Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri də məhz belə hadisələrdəndir. Ölkə rəhbərinin Almaniyaya səfərini yalnız diplomatik hadisə kimi deyil, Azərbaycanın Avropa iqtisadiyyatında mövqeyini dəyişdirən strateji addım kimi qiymətləndirmək daha düzgün olar. "İlk baxışda gündəmdə enerji, ticarət və investisiyalar dayanır, lakin proseslərə daha geniş prizmadan baxdıqda aydın olur ki, söhbət Azərbaycanın Avropa ilə münasibətlərinin yeni mərhələyə keçməsindən gedir. Dünya iqtisadiyyatı sürətlə dəyişir, qloballaşmanın əvvəlki modeli parçalanır, tədarük zəncirləri yenidən qurulur, enerji təhlükəsizliyi milli təhlükəsizlik məsələsinə çevrilir. Belə bir dövrdə ölkələrin dəyəri yalnız malik olduqları resurslarla deyil, eyni zamanda nə dərəcədə etibarlı tərəfdaş olmaları ilə ölçülür", - deyə o əlavə edib.

Deputat bildirib ki, ölkəmiz Avropanın enerji təhlükəsizliyində artıq alternativ deyil, zəruri tərəfdaşlardan biridir. Prezident İlham Əliyevin Almaniyada açıqladığı kimi, Azərbaycan qazı artıq Almaniya bazarına daxil olub. Bu faktın iqtisadi əhəmiyyəti statistik göstəricilərdən daha böyükdür. Almaniya bazarına çıxış, sadəcə, yeni alıcı qazanmaq demək deyil. Bu həmçinin Azərbaycanın Avropa iqtisadi sisteminin strateji enerji təminatçılarından biri kimi qəbul edilməsinin göstəricisidir.

XX əsrdə enerji resurslarının dövlətlərin əsas üstünlüyü olduğunu deyən T.Mirkişili diqqətə çatdırıb ki, XXI əsrdə isə texnologiya, logistika və innovasiya eyni dərəcədə strateji əhəmiyyət daşıyır: "Məhz buna görə Almaniya ilə iqtisadi əməkdaşlığın genişləndirilməsi xüsusi önəm kəsb edir. Almaniya dünyanın ən güclü sənaye ekosistemlərindən birinə sahibdir. Yüksək texnologiyalar, maşınqayırma, avtomatlaşdırma sistemləri, "yaşıl enerji" və sənaye innovasiyaları sahəsində onun təcrübəsi dünya standartlarını müəyyənləşdirir. Bu əməkdaşlıq yalnız kapital axını deyil, biliklərin, texnologiyaların və yeni istehsal mədəniyyətinin Azərbaycana gəlməsi deməkdir. İqtisadi inkişafın ən mühüm şərti də məhz budur. Çünki zəngin ölkələr yalnız sərvət satmır, onlar texnologiya istehsal edir, innovasiya ixrac edir və yüksək əlavə dəyər yaradırlar. Azərbaycanın qarşısında duran əsas vəzifə də enerji gəlirlərini texnoloji inkişafın maliyyə mənbəyinə çevirməkdir".

Deputat qeyd edib ki, səfərin digər strateji istiqaməti Orta dəhliz ilə bağlıdır. Bir neçə il əvvəl bu marşrut daha çox regional layihə kimi qiymətləndirilirdisə, bu gün Avropa ilə Asiyanı birləşdirən ən perspektivli iqtisadi marşrutlardan biri hesab olunur. "Azərbaycan artıq, sadəcə, tranzit ölkəsi olmaq istəmir, məqsəd tranzitdən dəyər yaratmaqdır. Logistika mərkəzləri, sənaye zonaları, rəqəmsal xidmətlər, istehsal klasterləri və yeni ixrac imkanları məhz bu dəhlizin ətrafında formalaşmalıdır. Bu yanaşma iqtisadi siyasətin keyfiyyətcə yeni mərhələyə keçdiyini göstərir", - deyə o əlavə edib.

T.Mirkişili bildirib ki, diqqətçəkən başqa bir məqam "yaşıl enerji" sahəsində əməkdaşlığın genişlənməsidir. Əgər XX əsrin iqtisadiyyatı neft üzərində qurulmuşdusa, XXI əsrin iqtisadiyyatı elektrik enerjisi və rəqəmsal texnologiyalar üzərində formalaşır. Azərbaycan isə hər iki dövrün üstünlüklərini birləşdirən nadir ölkələrdən biridir. Bir tərəfdən Avropanın enerji təhlükəsizliyi üçün qaz ixrac edir, digər tərəfdən isə Xəzərin külək potensialını gələcəyin enerji bazarına çevirməyə hazırlaşır. Bu isə, sadəcə, enerji siyasəti deyil, həm də gələcəyin iqtisadiyyatına sərmayədir.

Səfərin daha bir mühüm nəticəsinin beynəlxalq investorların baxışı ilə bağlı olduğunu deyən deputat vurğulayıb ki, bir qayda olaraq kapital sabitliyi sevir: "İnvestorlar yalnız bazarın ölçüsünə deyil, siyasi etibarlılığa, tərəfdaşlığın davamlılığına və dövlət institutlarının proqnozlaşdırıla bilməsinə də diqqət yetirirlər. Almaniya kimi Avropanın aparıcı iqtisadi gücü ilə münasibətlərin strateji səviyyədə inkişafı Azərbaycan iqtisadiyyatına olan beynəlxalq etimadı daha da gücləndirir. Bu isə gələcək investisiyalar üçün ən vacib amillərdən biridir".

T.Mirkişili qeyd edib ki, Azərbaycan artıq təkcə enerji ixrac edən ölkə deyil, Avropa ilə Asiyanı birləşdirən yeni iqtisadi arxitekturanın fəal iştirakçısına çevrilir. Enerji, logistika, rəqəmsal bağlantılar, "yaşıl enerji", sənaye və texnologiya - bütün bu istiqamətlər vahid strateji modelin elementləridir. Məhz buna görə Prezident İlham Əliyevin Almaniyaya səfəri gündəlik diplomatik hadisə kimi deyil, Azərbaycanın uzunmüddətli iqtisadi transformasiyasının növbəti mərhələsi kimi qiymətləndirilməlidir. Çünki gələcəyin gücü etibarlı tərəfdaşlıqda, texnologiyada və dəyər yaradan iqtisadiyyatda olacaq. Azərbaycan isə məhz bu istiqamətdə irəliləyir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



**Azərbaycanın son illərdə Cənubi Qafqazda və daha geniş coğrafiyada formalaşdırdığı geosiyasi mənzərə regional çərçivələri aşaraq qlobal miqyasda əks-səda doğurur. BMT Təhlükəsizlik Şurasının qətnamələrini öz hərbi-siyasi iradəsi ilə icra edən Bakı, ərazi bütövlüyünü bərpa etməklə yanaşı həm də beynəlxalq hüququn aliliyini öz gücü ilə təmin edən unikal dövlət modeli ortaya qoydu. Müstəqilliyin ilk illərindəki ağır işğal faktından, bir milyondan çox qaçqın və köçkün yükündən keçərək bu gün dünya nizamının yenidən qurulduğu masalarda əsas aktorlardan birinə çevrilmək milli maraqlara söykənən dəqiq hesablanmış siyasətin nəticəsidir.**

# Yeni dünya nizamında Azərbaycan reallığı

## Bu gün regionda bərqərar olan sabitlik, təhlükəsizlik və qarşılıqlı əməkdaşlığa əsaslanan unikal inkişaf bunun göstəricisidir

Cənubi Qafqazda iri güclərin maraqlarının toqquşduğu bir şəraitdə Azərbaycan hər hansı güc mərkəzindən asılı olmayan, öz milli maraqlarını diktə edə bilən ölkə kimi mövqeyini möhkəmləndirdi. Həm Qərb, həm Şərq, həm də böyük dövlətlərlə bərabərhüquqlu dialoq qura bilmək qabiliyyəti Bakının siyasi çəkisini artırdı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasi kurs Azərbaycanı təkcə regionun liderinə deyil, qlobal güclərin hesablaşdığı, müasir beynəlxalq münasibətlər sistemində özü qaydalar müəyyən edən nüfuzlu "orta güc"ə çevirib.

### Münaqişədən sabitliyə

Azərbaycanın əldə etdiyi siyasi uğurların kökündə öz gücünə güvənmək, güclü iradə və milli maraqları hər şeydən üstün tutmaq prinsipi dayanır. Ölkəmiz beynəlxalq hüququ öz gücü ilə tətbiq edərək, apardığı haqq savaşında müharibə qanunlarını bir an belə pozmadı, mülki insanlara və obyektlərə zərər vurmadan tarixi ədaləti bərpa etdi. Beynəlxalq səviyyədə etiraf olunan bu unikal təcrübə hazırda dünyada münaqişələrin ədalətli həlli üçün örnək göstərilir.

Regionda Azərbaycanın şərtləri ilə de-fakto sülhün və dayanıqlı sabitliyin bərqərar olunması siyasi müstəvidə qazanılan ən böyük zəfərdir desək, yanılmarıq.

Ötən ilin 8 avqust tarixində Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ermənistan-Azərbaycan arasında sülh sazişinin mətni paraflanaraq Birgə Bəyannamə imzalandı. Bu tarixi addım Cənubi Qafqazı münaqişə ocağından əməkdaşlıq məkanına çevirdi. Azərbaycan sülh gündəliyini bəyanatlarla məhdudlaşdırmadı, dərhal praktiki addımlara keçdi. Bu mühüm məqam Prezident İlham Əliyevin Almaniyaya etdiyi rəsmi səfər zamanı bir daha bəyan edildi. İyulun 21-də Almaniyanın Federal Kansleri Fridrix Mertslə birlikdə Berlində mətbuata bəyanatı zamanı dövlətimizin başçısı bildirdi ki, uzun illərdən sonra Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması və sülh sazişinin paraflanması, Vaşinqtonda, Ağ Evdə Prezident Trampın iştirakı və imzası ilə Birgə Bəyannamənin imzalanması faktiki olaraq 30 il davam edən münaqişəyə son qoydu: "Azərbaycan bu razılaşmadan dərhal sonra praktiki addımlara keçdi. Bu gün Azərbaycan tərəfindən təchiz edilmiş benzin və dizel yanacağı Ermənistanın enerji təhlükəsizliyinə çox böyük töhfədir... ...Bu günə qədər 40 min tondan çox tranzit yüklər Azərbaycan ərazisindən keçib. Yəni biz çox tarixi bir dövr yaşayırıq. Torpaqları uzun illər işğal altında olan Azərbaycan işğala öz gücü ilə son qoydu, ərazi bütövlüyünü bərpa etdi, suverenliyini bərpa etdi. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini özü icra etdi, Ermənistana sülh təklif etdi və müsbət cavab aldı".

Lakin əlbəttə ki, davamlı sülhün hüquqi şərti - Ermənistan konstitusiyasının dəyişdirilməsidir. Əldə olunmuş bu tarixi irəliləyişin tam və dönməz xarakter alması üçün qarşıda duran ən mühüm addım Ermənistanın əsas qanununda ziddiyyətlərin aradan qaldırılmasıdır. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Ermənistanın ölkəmizin ərazi bütövlüyünə qarşı iddiaları özündə ehtiva edən konstitusiyası dəyişdirilməlidir. İrəvanın öz konstitusion bazasını revanşist ideyalardan təmizləməsi bölgədə əbədi sülhün və hüquqi təhlükəsizliyin yeganə zəmanətidir.

### Qlobal enerji və logistika dəhlizləri

Azərbaycanın həyata keçirdiyi uzaqgörən və balanslaşdırılmış siyasət iqtisadi müstəvidə də yeni reallıqlara birbaşa zəmin yaradıb və ölkəmizi Şərqlə Qərbin qovşağında əvəzsiz strateji mərkəzə çevirib. Buna görədir ki, ABŞ və Çin kimi dünya nəhəngləri belə ölkəmizlə ikitərəfli əlaqələrə xüsusi önəm verirlər.

Qlobal geosiyasi gərginliklər və alternativ marşrutların riskli hala gəlməsi fonunda Azərbaycanın üzərindən keçən Orta dəhliz Avrasiyanın ən təhlükəsiz və operativ ticarət arteriyasına çevrilib. Bakı limanı və Bakı-Tbilisi-Qars xətti qlobal təchizat zəncirinin qırılmaz hissəsidir.

Təbii ki, Orta dəhlizin ən mühüm və strateji halqalarından olacaq Zəngəzur dəhlizinin (TRIPP) perspektivi də çox böyükdür. Bu xəttin istifadəyə verilməsi potensialı ölkəmizin nəinki Naxçıvan Muxtar Respublikası ilə birbaşa quru əlaqəsini təmin edəcək, həm də türk dünyasını və bütövlükdə region ölkələrini yeni ticarət damarı ilə bir-birinə bağlayacaq.

Bu gün Azərbaycan qazı Avropa İttifaqına (Aİ) üzv 10 ölkəyə çatdırılır. Ənənəvi neft-qaz resurslarının nəqli ilə yanaşı, Azərbaycan artıq "yaşıl enerji" (külək və günəş) ixracatçısına çevrilərək Aİ ölkələrinin enerji keçidi strategiyasında açar rol oynayır.

Yeri gəlmişkən bildirək ki, iyulun 21-də Prezident İlham Əliyevin Almaniya Federal Kansleri Fridrix Mertslə Berlində imzaladığı "Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında İkitərəfli Tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə" xarici siyasətin növbəti zirvəsi oldu. İtaliyadan sonra Aİ-nin əsas siyasi-iqtisadi mühərriki olan Almaniya ilə də belə bir çərçivənin qurulması Azərbaycan-Aİ əlaqələrinin gələcək xəritəsini müəyyən edir.

Azərbaycanın ortaya qoyduğu inkişaf və sülh modeli göstərir ki, milli maraqlara söykənən qətiyyətli siyasət yalnız bir ölkənin deyil, bütöv bir regionun taleyini yaxşılığa doğru dəyişə bilər. Bu gün Bakının liderliyi ilə bərqərar olan sabitlik, təhlükəsizlik və qarşılıqlı əməkdaşlığa əsaslanan yeni reallıqlar bütün dünyanın rəğbətlə izlədiyi unikal inkişaf nümunəsidir. Azərbaycan Cənubi Qafqazda və daha geniş coğrafiyada iqtisadi inteqrasiyanın və dialoqun baş zəmanətçisi kimi çıxış edən müstəqil güc mərkəzi kimi ön plana çıxır.

Bir sözlə, Vaşinqtonda imzalanan Birgə Bəyannamədən Avropadakı strateji anlaşmalara qədər atılan hər bir uzaqgörən addım göstərir ki, Azərbaycanın ortaya qoyduğu tərəqqi və sülh modeli təkcə bir bölgəni əhatə edən lokal uğur deyil. Bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan, bütün dünyanın rəğbətlə izlədiyi və qlobal miqyasda qəbul edilən yeni dövlətçilik və diplomatiya nümunəsidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Avropanın ən etibarlı tərəfdaşlarından biridir

## Müstəqil xarici siyasət, iqtisadi imkanlar və səmimi əməkdaşlıq dövlətimizin Avropa ölkələri ilə münasibətlərini strateji müttəfiqlik səviyyəsinə yüksəldib

Regional güc mərkəzinə çevrilən və beynəlxalq mövqeyini ardıcıl olaraq möhkəmləndirən Azərbaycan Avropanın enerji təhlükəsizliyində və nəqliyyat sistemində söz sahibi olan dövlətlərdən birinə çevrilib. Bu gün Avropa İttifaqı və onun aparıcı paytaxtları Azərbaycanla münasibətləri bərabərhüquqlu və uzunmüddətli strateji tərəfdaşlıq prizmasından dəyərləndirirlər. Bunun təməlində isə qarşılıqlı etimad, suverenliyə hörmət və ortaq maraqlara söykənən səmimi dialoq mühiti dayanır.

Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin müsbət məcraya yönəlməsində 2025-ci ilin mayında Tiranada, oktyabrında isə Kopenhagendə keçirilmiş "Avropa Siyasi Birliyi"nin (ASB) Zirvə görüşləri xüsusi önəm kəsb edir. Dövlətimizin başçısı İlham Əliyevin həmin toplantılarda fəal iştirakı, ali səviyyəli təmasları və konseptual baxışı əməkdaşlığa güclü təkan verdi. Məhz rəsmi Bakı ilə Brüssel arasında dərinləşən yaxınlaşmanın əyani təzahürü kimi ASB-nin 12-ci Zirvə görüşünə 2028-ci ildə Azərbaycanın evsahibliyi etməsi barədə yekdil qərar qəbul olundu. Avropanın ən mötəbər



siyasi platformasının Bakıya həvalə edilməsi ölkəmizin artan beynəlxalq nüfuzunun əyani təsdiqidir.

Diplomatik təməllər üzərində inkişaf edən Azərbaycan-Aİ münasibətləri 2026-cı ildə özünün intensiv dövrünü yaşayır. Prezident İlham Əliyevin iyulun 20-21 tarixlərində Almaniyaya rəsmi səfəri də Bakının Avropanın aparıcı mərkəzləri ilə birbaşa dialoqunun növbəti nümayişi idi. Dövlətimizin başçısının Almaniya Prezidenti və Federal Kansler ilə keçirdiyi ali səviyyəli görüşləri, imzalanan mühüm tarixi sənədlər tərəflərin əməkdaşlıqda nə qədər maraqlı olduqlarını, bərpaolunan enerji, sənaye investisiyaları və Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar olunmasına vahid prizmadan baxdıqlarını aydın şəkildə üzə çıxardı.

Münasibətlərdəki yüksək dinamika, Avropanın aparıcı dövlətləri ilə qurulan ali səviyyəli dialoqun miqyası yalnız Berlinlə yekunlaşmır. 2026-cı ilin martında Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın, may ayında Aİ-nin Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallasın və iyulda Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Azərbaycana səfərləri rəsmi Bakının Brüsselin xarici siyasət gündəmində nə dərəcədə önəmli aktor olmasından xəbər verir. Avropanın ali rəhbərliyinin dövlətimizin başçısı ilə birbaşa və konstruktiv dialoqu Aİ-nin Cənubi Qafqazda sabitlik və inkişafın mərkəzi kimi məhz Azərbaycanı qəbul etdiyini göstərir. Qonaqların Azərbaycan haqqında yüksək fikirlər səsləndirməsi də Brüsselin Azərbaycanla münasibətləri yeni mərhələyə çıxarmaq niyyətində olduğundan xəbər verir.

Avropa indi Azərbaycanı regional təhlükəsizlik, nəqliyyat-kommunikasiya və iqtisadi inteqrasiya baxımından əsas tərəfdaş hesab edir. Təsadüfi deyil ki, Ursula fon der Lyayen Azərbaycanı Avropa İttifaqının strateji tərəfdaşı adlandırmış, dünyada az sayda ölkənin Azərbaycan qədər regional əməkdaşlığın və sabitliyin inkişafına töhfə vermək imkanına malik olduğunu vurğulamışdı. Bu qiymətləndirmə Azərbaycanın regionun lider dövləti kimi qəbul olunduğunun nümayişidir.

Avropa İttifaqının rəhbər şəxslərinin qısa müddət ərzində ölkəmizə ardıcıl səfərləri və bu təmasların mahiyyəti dövlətimizin başçısı tərəfindən də gündəmə gətirilib. İyulun 13-də keçirilən IV Şuşa Qlobal Media Forumundakı çıxışı zamanı Prezident İlham Əliyev bu intensivliyi və onun arxasında duran siyasi iradəni xüsusi vurğulayaraq bildirib: "Bu ilin bir neçə ayı ərzində Brüsseldən bir sıra mühüm səfər oldu. Martda Avropa İttifaqı Şurasının prezidenti cənab Koşta, mayda Avropa diplomatiyasının rəhbəri xanım Kallas və iyulda Avropa Komissiyasının prezidenti xanım Ursula fon der Lyayen Azərbaycana gəldilər. Onların və mənim ictimaiyyətə açıqlamalarımızda hər kəs iki tərəfin əməkdaşlıq səviyyəsindən razı qaldıqlarını görə bilər". Prezident İlham Əliyevin bu bəyanatı da rəsmi Bakı ilə Aİ arasında qarşılıqlı etimada əsaslanan dialoqun yüksək səviyyəsini təsdiqləyir.

Paralel olaraq, son aylarda Litvanın Baş naziri İnqa Ruqiniene, Latviya Prezidenti Edqars Rinkeviçs, Çexiyanın Baş naziri Andrey Babiş və İtaliyanın Baş naziri Ciorcia Meloninin ölkəmizə ardıcıl səfərləri də Azərbaycanın artan nüfuzundan və Avropa ölkələrinin Bakı ilə tərəfdaşlığa önəm verməsindən xəbər verir.

Bu ölkələrlə yüksəksəviyyəli dialoqun formalaşmasında iqtisadi amillər, xüsusilə enerji faktoru həlledici rol oynayır. Aİ-yə üzv olan 27 dövlətdən 10-u ilə strateji tərəfdaşlıq haqqında rəsmi sənədlərin imzalanması Brüsselin Bakı ilə münasibətlərə verdiyi dəyərin göstəricisidir. "Cənub qaz dəhlizi" vasitəsilə Xəzər resurslarının Avropa bazarlarına çatdırılması qitənin enerji xəritəsini köklü şəkildə dəyişdirib. Bu gün artıq 10-u Aİ üzvü olmaqla, ümumilikdə 16 ölkə Azərbaycanın mavi yanacağını idxal edir. 2027-ci ilə qədər Avropaya qaz tədarükünün 20 milyard kubmetrə çatdırılması hədəflənir.

Azərbaycan qlobal iqlim probleminin həllində və "yaşıl keçid" prosesində də öncül tərəfdaş kimi çıxış edir. Avropa İttifaqı Xəzər regionundan Qara dənizin dibi ilə Rumıniya və Macarıstana qədər uzanacaq "yaşıl enerji" kabeli layihəsinə böyük maraq göstərir. Bu təşəbbüs Bakını Avropanın elektrik enerjisi şəbəkəsinə birbaşa bağlayır. Eyni zamanda Xəzərin dibi ilə çəkilməsi nəzərdə tutulan optik kabel xətti layihəsi göstərir ki, Azərbaycan Avropa ilə Asiya arasında təkcə fiziki yükləri və enerjini ötürməklə kifayətlənmir, həm də rəqəmsal məlumat axınını birləşdirən əsas mərkəzə çevrilir. Hədəf rəqəmsal transformasiya, süni intellekt və yeni texnologiyalar sahəsində birgə addımlara nail olmaqdır.

Nəhayət, digər regionlardakı qeyri-sabitlik fonunda Azərbaycanın aparıcı rola sahib olduğu Orta dəhliz Aİ-nin Mərkəzi Asiya və Çinə çıxışını təmin edən ən təhlükəsiz, dayanıqlı və səmərəli tranzit marşrutudur. Bakı Dəniz Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və müasir gömrük infrastrukturu Şərqlə Qərb arasında alternativi olmayan bağlantı qovşağı yaradıb.

Bütün bu faktlar bir həqiqəti ortaya qoyur: bu gün rəsmi Bakının iştirakı və razılığı olmadan Avrasiya məkanında irimiqyaslı nəqliyyat, enerji və təhlükəsizlik layihələrinin effektiv fəaliyyət göstərməsi mümkün deyil. Azərbaycan Avropa ilə münasibətlərdə öz şərtlərini və milli maraqlarını qəbul etdirən, qlobal arenada söz sahibi olan bərabərhüquqlu strateji tərəfdaşdır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Tarixdən gələcəyə uzanan yüksək münasibətlər

Azərbaycan ilə Almaniya arasındakı tərəfdaşlıq bütün tərəfləri ilə yanaşı humanitar bağlara və mədəni inteqrasiyaya söykənir. Əsrlər boyu müxtəlif xalqların, dinlərin və mədəniyyətlərin dinc yanaşı yaşadığı tolerantlıq və multikulturalizm məkanı olan Azərbaycanda alman irsi xüsusi və silinməz yer tutmaqdadır.

İki xalq arasında qarşılıqlı münasibətlərin bünövrəsi XIX əsrin əvvəllərinə təsadüf edir. Alman ailələri 1819-cu ildən Azərbaycanda məskunlaşıblar. Onlar, əsasən, Azərbaycanın qərb bölgəsində kompakt halda məskunlaşaraq yeni yaşayış məntəqələri salıblar. Almanlar özləri ilə Avropa təsərrüfat ənənələrini və texnologiyalarını gətiriblər, müasir üzümçülük və şərabçılığın təməlini qoyublar.

Almanların Azərbaycandakı fəaliyyəti bununla məhdudlaşmayıb. XIX əsrin ikinci yarısından etibarən alman sənayeçiləri ölkəmizin iqtisadiyyatında mühüm rol oynamağa başlayıblar. 1863-cü ildə Almaniyanın "Simens qardaşları" firması Gədəbəy ərazisindəki mis yataqları bazasında iri misəritmə zavodları tikiblər. XX əsrin əvvəllərinədək bu zavodlar Cənubi Qafqazda əridilən misin üçdəiki hissəsini istehsal ediblər. Şirkət həmçinin Daşkəsəndə kobalt zavodu inşa edib, su-elektrik stansiyası tikib, dəmir yolları çəkib. XIX əsrin sonlarında bu müəssisələrin payı elektrik avadanlıqları və nəqliyyat istehsalında 75 faizə çatmışdı və burada 6-8 min nəfər çalışırdı. Gədəbəydə "Simens qardaşları"nın filiz daşınması üçün tikdirdiyi körpülər bu gün də qorunub saxlanılır.

XIX əsrin sonu və XX əsrin əvvəllərindəki neft istehsalının inkişafı dövründə Bakıdakı tikinti işlərində alman memarları da fəal iştirak ediblər. Onların layihələri paytaxtın memarlıq simasını zənginləşdirib. Memar Nikolay fon der Nonne Bakının ilk baş planını hazırlayıb, sanitariya və kanalizasiya sistemlərinin layihələndirilməsinə rəhbərlik edib.

Almanlar Azərbaycanın siyasi həyatında da yaxından iştirak ediblər. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində milli azlıqları təmsil edən fraksiyanın 4 üzvündən biri məhz alman icmasını təmsil edən Lorentz Kuntz idi. Bu, azərbaycanlılar və almanlar arasındakı dərin etimadın və inteqrasiyanın bariz göstəricisidir.

Tarixin kədərli səhifələrindən biri İkinci Dünya müharibəsi dövrünə təsadüf edir. 1941-ci ilin oktyabrında sovet hökumətinin qərarı ilə Azərbaycanda yaşayan alman əhalisinin əmlakları müsadirə olunaraq Qazaxıstana sürgün edildi. Buna baxmayaraq, almanların qoyub getdikləri irs Azərbaycan dövləti və xalqı tərəfindən böyük hörmətlə qorunub saxlanılır. Ən zəngin alman irsi Göygöldə qalmaqdadır. Şəhərin tarixi hissəsində 300-dən çox yaşayış binası, lüteran kilsəsi, məktəb və sənaye obyektləri öz ilkin memarlıq quruluşunu saxlayıb. Evlərin interyerindəki tavana ucalan zərif kaminlər, eləcə də yerüstü binaları yeraltı tunellərlə bir-birinə bağlayan şərab anbarları yüksək mühəndislik düşüncəsindən xəbər verir.

Göygöldə 2007-ci ildə vəfat edən sonuncu alman sakin Viktor Klaynın ev-muzeyi dövlət tərəfindən təmir edilərək fəaliyyət göstərir. Mənəvi irsin nümunəsi kimi, Göygöldə alman mətbəxindən gələn və yerli əhalinin "kuxa" adlandırdığı şirniyyat, həmçinin qədim çəlləkçilik sənəti bu gün də yaşadılır.

Prezident İlham Əliyevin sərəncamı ilə 2017-ci ildə Cənubi Qafqazda alman məskənlərinin salınmasının 200 illiyi təntənəli şəkildə qeyd olundu. Bu münasibətlə Parisdə UNESCO-nun baş qərargahında, Berlin Humboldt Universitetində, Bakıda və Şəmkirdə mühüm tədbirlər keçirildi.

Azərbaycanda fəaliyyət göstərən "Die Brücke" Mərkəzi 1941-ci ildə sürgün olunmuş almanların varisləri ilə canlı əlaqələr qurur. Həmin varislər tez-tez Azərbaycana gələrək ata-baba yurdlarını, məzarları ziyarət edirlər. Almaniyadan gələn qonaqlar indi bu evlərdə yaşayan azərbaycanlı ailələr tərəfindən mehribanlıqla qarşılanır və bu səmimi münasibətlər insan taleləri üzərində qurulmuş yeni dostluq körpüləri yaradır.

Almaniya Azərbaycanın Avropadakı siyasi və iqtisadi tərəfdaşlarından biridir. Almaniya Azərbaycanı Cənubi Qafqazın lider dövləti və vacib tərəfdaşı kimi qəbul edir, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyini və ərazi bütövlüyünü tam dəstəkləyir. Həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki strateji rolunu yüksək qiymətləndirir.

İki ölkə arasında şəhərlərarası əməkdaşlıq da dinamik inkişaf edir: Bakı ilə Mayns, Sumqayıt ilə Lüdviqşafen şəhərləri "qardaşlaşmış" statusuna sahibdir. Bu yerli və mədəni bağlarla yanaşı, iqtisadi müstəvidə də yüzlərlə alman şirkəti Azərbaycanda uğurla fəaliyyət göstərir. Son zamanlar alman investorlarının işğaldan azad edilmiş ərazilərdəki bərpa-quruculuq işlərinə vəsait yatırmaq marağı kəskin artıb.

Ümumilikdə, Bakı və Berlin arasında qurulan genişmiqyaslı tərəfdaşlıq bütövlükdə Avrasiya coğrafiyasının nəqliyyat, enerji təhlükəsizliyi və siyasi sabitliyinə xidmət edən uzunmüddətli və davamlı bir strategiyadır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# REGİONLAR

**Reportaj**

## *Salyanlı pambıqçı fermer Arif Mehdiyev:* "Hədəfim 50 sentnerdir"

**Günəş göydən od ələyir. Muğan düzü sanki alışıb yanır. "Prime Cotton" MMC Salyan filialının istehsalat şöbəsinin müdiri Əliskəndər Əliyevlə fermer Arif Mehdiyevin pambıq sahəsinə gedirik. Astara istiqamətinə uzanan dəmir yolu keçidini adlayıb şor su drenajının kənarı ilə irəlilədikcə hər iki tərəfində sıx bitmiş biyan kolları elə bil yolumuza çəpər çəkmək istəyir. Lakin "Niva" buna məhəl qoymadan keçib gedir.**



Bir qədər irəlilədikdən sonra qarşımızda yamyaşıl pambıq sahələri görünür. Birinci sahəni keçib ondan xeyli böyük olan sahənin baş tərəfində dayanırıq. Maşından düşüb cərgələr arasına giririk. Kolların daban hissəsi qoza, nisbətən yuxarıları isə gül-daraqla doludur. Bitkilər yaxşı inkişaf edib, həm lazımi qədər boy atıb, həm də kənara doğru budaqlanıb, yarpaqlar isə yamyaşıldır, alaq-filan da gözə dəymir. İstehsalat şöbəsi müdirinə:

- Maşallah, yaxşı məhsul yetişdirir, - deyirəm.

- Təcrübəli fermerdir, demək olar ki, şirkətimizdəki ən yaxşı pambıq bilicilərindən biridir, - deyə Ə.Əliyev bildirir.

O, məndən bir az aralanıb telefonla kiminləsə danışır: "Haradasız? Sahədə sizi gözləyirik". Sonra üzünü mənə tutaraq:

- Arbatan kəndi üzrə sahə rəisi Yusif Teymurovla danışırdım. Az qalıb, 5-6 dəqiqəyə gələcək, - deyir.

Dayandığımız pambıq sahəsinin neçə hektar olduğunu soruşuram.

- Səhv etmirəmsə, 4,2 hektar olmalıdır.

- Elə bilirəm, çox olar.

Elə bu vaxt sahə rəisi gəlib çıxır. O da Əliskəndər müəllimin fikrini təsdiqləyir. Məsələyə dəqiqlik gətirmək üçün cibindən mobil telefonunu çıxarıb:

- Bu meydan, bu da şeytan, - deyərək sahəni ölçür. Pambıq sahəsinin 4,2 hektar olduğunu bildirir.

Sonra Y.Teymurov yumşaq səslə Əliskəndər müəllimə deyir:

- Fermer Arif Mehdiyevin təcili işi çıxdı. Dedi ki, yoldaşlardan mənim əvəzimə üzr istə, lazımi məlumatları ver. Necə işçi olduğumu, gümün edirəm, məndən yaxşı bilirsiniz.

Sahənin o başından gələn kultivator bizim yanımıza çatanda sahə rəisinin işarəsi ilə dayanır. Mexanizator traktorun kabinəsindən düşüb yanımıza gəlir. Salamlaşıb hal-əhval tuturuq, işlərin necə getməsini soruşuruq.

- Çox sağ olun, işlərimiz pis getmir. Elə bilirəm, sahənin görünüşü də hər şeyi deyir. Sağ olsun şirkət filialının rəhbərliyi, onun yanımızda dayanan işçiləri. Bir mexanizator kimi onlardan yerdən-göyə qədər razıyam. Filialın müdiri Bahəddin Leysanov əsl insandır. İşçinin qədrini bilən adamdır. Kollektiv üzvlərinin hər biri işçinin həmişə yanındadır. İstər xeyir olsun, istərsə də şər. Əliskəndər müəllim də, Yusif müəllim də B.Leysanovu layiqincə təmsil edirlər. Hər gün yanımızdadırlar. İşlərimizi onların məsləhəti, göstərişi ilə qururuq. Dünən tapşırıq aldım ki, Arifin bu yerinə baraza - şırım çəkmək lazımdır. Bundan sonra sahə suvarılacaq.

Şöbə rəisi:

- Ay Yəhya, bəsdir bizi təriflədin. Görülən işlər birinci olaraq sizin əməyinizin nəticəsidir. Sən keyfiyyətli kultivator çəkməsəydin, işə məsuliyyətlə yanaşmasaydın, pambıq sahəsi belə nümunəvi olmazdı, - deyir.

Sonra, əgər belə demək mümkünsə, kultivatora baxış keçiririk. Üzərində hər birinin müxtəlif vəzifələri yerinə yetirdiyi 29 işçi orqanın yerləşdiyi məlum olur. Pambıq kollarını zədələməmək üçün ön və arxa təkərlərin ön hissəsinə xüsusi olaraq qoruyucu şit bağlanmışdır.

Mexanizator Y.Əliyev işçi orqanların cərgələr arasından çıxarıb gətirdiyi alaq otlarını təmizləyir. "MTZ-80" markalı traktora yaxınlaşıb kabinəyə qalxmaq istərkən yadına nəsə düşür, geri qayıdıb bildirir:

- Sahədə belə pambığın əmələ gəlməsində bizim hər birimizdən çox fermer Arif Mehdiyevin əməyi var. O, hər gün dan yeri söküləndən gün batana kimi tarlada olur. Neçə illərdir ki, onun sahələrinə kultivator çəkirəm. Bir-birimizdən narazılığımız olmayıb. Mən də çalışıram ki, zəhmətini çəkdiyimiz bir kola belə ziyan dəyməsin. Kollar yaxşı inkişaf etsin, bol məhsul versin.

İstehsalat şöbəsinin müdiri davam edir:

- Sözün həqiqi mənasında, Arif yaxşı pambıqçıdır. Siz deyən təhsili də yoxdur. Ancaq hələ uşaq vaxtlarından gördüklərini yaxşı-yaman edərək seçib götürüb, həyatı həyatın özündən öyrənib. Atası kolxoz dövründə adlı-sanlı çoban idi. Özü isə təkcə pambıqçılıqla deyil, kənd təsərrüfatının digər sahələri ilə də məşğul olur. Taxıl, yonca əkib-becərir. Ata sənətini də unutmayıb. Yaxşı qoyun ferması var. Hər sahədə də uğur qazanır. Bir sözlə, maşallah, zirək adamdır. Pay torpağından başqa, əlavə sahələri də var. Bəziləri torpağın qədrini bilməyib hektarını heç neçəyə satanda o, işdən qorxmayıb torpaq sahələrini genişləndirib. Bu gün bəhrəsini görür. Keçən il 40 hektar pambıq sahəsinin hər hektarından 48 sentner məhsul götürdü. Yetişdirdiyi məhsulun 98 faizini maşınla yığdı.

Sahə rəisi Y.Teymurov da Əliskəndərin sözünə qüvvət verir:

- "Prime Cotton" MMC Salyan filialının öhdəmdə olan Arbatan ərazisi üzrə cari ilin yanvar ayında 27 fermerlə 239 hektarda pambıq yetişdirmək üçün müqavilə bağlanıb. Fermerlərimizin hamısı səylə çalışırlar. Hər kəs istəyir ki, daha çox məhsul yetişdirsin. Ancaq onların içərisində Arif birincidir. Bu il pambıq əkdiyi 34 hektar sahənin hamısında vəziyyət gördüyünüz kimidir. Prezidentin yaxın günlərdə imzaladığı dövlət proqramının icrasına dəstək olaraq bu il hər hektardan 50 sentner pambıq götürməyi qarşısına məqsəd qoyub. Dilinə görə dilçəyi olan adamdır. Şəxsən mən inanıram ki, o bu məqsədinə çatacaq.

Qeyd edək ki, "Prime Cotton" MMC-nin Salyan filialı üzrə cari ildə 418 fermerlə bağlanmış müqaviləyə əsasən, 2 min 952 hektarda pambıq əkilmişdir. Aqrotexniki tədbirlərə məsuliyyətlə əməl edən fermerlərin hər biri səpin zamanı çiyidlə birlikdə torpağa ammofos gübrəsi vermişlər. Yazda havaların qeyri-sabit keçməsi kəndliləri daha çevik olmağa məcbur etmişdir. Lakin havaların soyuq keçməsi pambığın inkişafını müəyyən qədər ləngitmişdir. Mütəxəssislərin rəyinə görə, bu il pambığın inkişafı keçən ildəkindən təxminən 15-20 gün gecikir. Amma şirkətin mütəxəssisləri və fermerlər bu geriliyin aradan qaldırılması üçün əllərindən gələni edirlər. Hər hektara indiyədək 400 kiloqram karbamid gübrəsi verilib. Bundan başqa, çiləmə yolu ilə "Saxalin qumatı", "ELFEA", "Fostik", maqneziumsulfat, kökdənkənar gübrələri verilmişdir. Sovkaya qarşı 2 dəfə mübarizə aparılıb. Hal-hazırda 5-ci, bəzi sahələrdə isə 6-cı kompleks becərmə gedir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## *Qayıdışın şirinliyi:* Ağdərədə bal süzümünə başlanılıb

**Yaylaqdan gələn çiçək ətri, pətəklərin ətrafında fasiləsiz çalışan minlərlə arı və şanılardan süzülərək qızılı rəng alan bal...**

İşğaldan azad edilmiş Ağdərə rayonunda arıçılar yay balının süzümünə başlayıblar. Uzun illər doğma yurd həsrəti ilə yaşayan sakinlər üçün bu, həm də qayıdışdan sonra qurulan yeni həyatın bəhrəsidir.

Rayonun zəngin dağ florası, müxtəlif balverən bitkiləri və əlverişli iqlim şəraiti burada yüksəkkeyfiyyətli bal istehsalına imkan yaradır. AZƏRTAC xəbər verir ki, Qarabağın digər rayonlarında olduğu kimi, Ağdərədə də arıçılıq təsərrüfatlarında yay balının süzümü aparılır.

Kolatağ kəndində məskunlaşan arıçı Rəfayət Musayev də bu günlərdə təsərrüfatında bal süzümünə başlayıb. O, arıçılığın ailəsinin uzun illərdir davam etdirdiyi peşə olduğunu deyir.

"Biz ata-babadan arıçılıqla məşğuluq. 1992-ci ildə Ağdərə rayonundan köçkün düşənə qədər də arı saxlayırdıq. Köçkünlük illərində Ağcabədidə məskunlaşdıq və təsərrüfatımızı orada genişləndirdik. Şükür bu günə, yenidən Qarabağ torpağındayıq. İndi təsərrüfatımızı doğma Ağdərədə inkişaf etdiririk. Ağdərənin təbiəti, havası, suyu gözəldir, məhsulu da keyfiyyətlidir", - deyə arıçı bildirir.

Hazırda Rəfayət Musayevin 300-ə yaxın arı ailəsi var. O, eyni zamanda ana arı yetişdirilməsi ilə də məşğuldur.

Arı ailələrinin bir hissəsi Kolatağ kəndindəki həyətyanı sahədə, digər hissəsi isə bol nektarlı bitkilərin olduğu Vəngli kəndi ərazisində saxlanılır.

Arıçının sözlərinə görə, bu mövsüm əldə olunan bal əsasən qaratikan, cökə, qanqal və digər dağ bitkilərinin çiçəklərindən toplanan nektardan əldə olunur. "Buranın bitki örtüyü zəngindir. Məhsuldarlıq ötən illə müqayisədə bir qədər az olsa da, nəticə bizi qane edir", - deyə o əlavə edir.

Bal süzümü prosesi isə ən məsuliyyətli mərhələlərdən biridir. Çərçivələr pətəklərdən çıxarılaraq bal süzən avadanlıqlara yerləşdirilir. Süzülən bal əvvəlcə iri çəlləklərdə saxlanılır, sonra isə satış üçün şüşə qablara doldurulur.



Beləliklə, Ağdərə dağlarından toplanan növbəti mövsüm balı artıq süfrələri bəzəyə bilər. Bu, həm Qarabağın zəngin təbiətinin, həm də doğma yurda qayıdan insanların zəhmətinin bəhrəsidir.

## Şuşada yaradılan "Kitab dayanacağı" sakinlərin və qonaqların marağına səbəb olub



**Bir neçə gün əvvəl Şuşada istifadəyə verilən "Kitab dayanacağı" - açıq hava kitabxanası şəhər sakinləri və qonaqlar tərəfindən maraqla qarşılanıb.**

Şuşanın tarixi və ədəbi mühitinin təbliği, şəhər sakinləri və qonaqları üçün mütaliə imkanlarının genişləndirilməsi məqsədilə yaradılan "Kitab dayanacağı" fasiləsiz fəaliyyət göstərir. Burada təqdim olunan kitablardan hər kəs sərbəst istifadə edə bilər. AZƏRTAC xəbər verir ki, rəqəmsal əlçatanlığın təmin edilməsi məqsədilə köşk ödənişsiz vayfay xidməti ilə təchiz olunub. Bundan başqa, ziyarətçilər xüsusi enerjidoldurma məntəqələrində mobil cihazlarını enerji ilə təmin edə bilirlər.

Şuşa sakini Məhərrəm Əliyev bildirib ki, açıq hava kitabxanasının istifadəyə verilməsi şəhərin mədəni həyatına yeni töhfədir. Onun sözlərinə görə, bu təşəbbüs gənclər, şəhər sakinləri və kitabsevərlər üçün dəyərli hədiyyədir.

# Dövlət dəstəyi kənd təsərrüfatının inkişafına əlavə stimuldur

## "Əsas təşəbbüs təsərrüfatların özlərindən gəlməlidir"

**Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafı ilə bağlı mayın 25-də keçirilən müşavirədəki çıxışı, perspektivlərdən, eləcə də təsdiq etdiyi "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" bu sahədə çalışanların üzərinə məsuliyyətli vəzifələr qoydu.**

Ardınca qəbul olunmuş yeni dövlət proqramı ilə bağlı bölgələrdə fermer və sahibkarların iştirakı ilə müşavirələr keçirildi. Müşavirələrdə qarşıda dayanan vəzifələr, gələcəkdə görüləcək işlər ətraflı müzakirə edildi, olunan təkliflər, söylənilən fikir və rəylər diqqətlə dinlənildi, onların həyata keçirilməsi üçün müvafiq tapşırıqlar verildi.

Qaxda keçirilən müşavirədə iştirak edən **"Akasiya" kənd təsərrüfatı kooperativinin sədri Dilarə ƏHMƏDOVA** da təklif və fikirlərini bölüşdü. Bildirdi ki, Prezident İlham Əliyevin təsdiq etdiyi dövlət proqramı tarixi bir sənəddir: "Biz iş adamları inanırıq ki, dövlət proqramı yaxın zamanlarda kənd təsərrüfatının inkişafına böyük töhfələr verəcək". Sonra sözünə davam edən Dilarə xanım dedi ki, Qax meyvəçilik, taxılçılıq və tərəvəzçilik üzrə ixtisaslaşıb: "Bu sahələrin inkişaf etdirilməsi üçün dövlətimiz tərəfindən müntəzəm olaraq tədbirlər görülür, zəruri addımlar atılır. İş adamı kimi deyə bilərəm ki, rayonda məhsuldarlığın artırılması üçün müasir aqrotexniki tədbirlərin geniş tətbiqinə ehtiyac var. Bununla yanaşı, iri təsərrüfat subyektlərinin, fermer təsərrüfatlarının və kənd təsərrüfatı kooperativlərinin torpaq sahələrindən səmərəli istifadə etmələri də inkişafı sürətləndirən əsas şərtlərdəndir. Həmçinin uzun müddətdən bəri istifadəsiz qalan torpaqların dövriyyəyə cəlb olunması uğurlu addımlardan olardı. Yeni intensiv fındıq, qoz və meyvə bağlarının salınması və bu zaman müasir tinglərdən istifadə olunması məhsuldarlığın artırılmasına təkan verər. Meyvə və tərəvəz məhsullarının çeşidlənməsi, qablaşdırılması və emalı üçün kiçik emal müəssisələrinin yaradılması da iş adamları üçün əlverişli imkanlar yaradardı. Soyuducu anbarlarının tikintisinin dəstəklənməsini də bu sıraya əlavə etmək istərdim".




Müasir aqrotexniki tətbiqlər hesabına məhsulun həcminin və məhsuldarlığının 20-30 faiz artırılmasının diqqət mərkəzində saxlanılmalı olduğunu deyən D.Əhmədova bildirdi ki, keyfiyyətli və ixracyönümlü məhsul istehsalının genişləndirilməsi vacib hədəflərindəndir: "Texnika parkının yenilənməsinə dövlət dəstəyinin artırılması, kooperativ və fermerlərin müasir kənd təsərrüfatı texnikası ilə təmin olunması, güzəştli kreditlərin ayrılması da inkişafa gedən yolları genişləndirməyə zəmin yaradardı", - deyə kooperativ sədri vurğuladı.

İstehsalın və məhsuldarlığın artırılması üçün suvarma işinin düzgün təşkili başlıca şərtlərdəndir. D.Əhmədovanın qənaətinə görə, ilk olaraq damcı və yağmurlama suvarma sistemlərinin geniş tətbiqi, həmçinin dağətəyi ərazilərdə su anbarlarının və suvarma xətlərinin yenilənməsi həyata keçirilməlidir. Suya qənaət edən texnologiyaların tətbiqinə subsidiya verilməsi də kənd təsərrüfatının inkişafına müsbət təsir göstərərdi.

"Dövlət-özəl tərəfdaşlığı çərçivəsində bitkiçilik sahəsinə investisiyaların artırılması, kooperativlərə uzunmüddətli, aşağı faizli kreditlərin ayrılması, aqrar sığorta və investisiya təşviqi mexanizmlərinin genişləndirilməsi də iş adamlarının, sahibkar və fermerlərin fəaliyyətini asanlaşdırardı. Kooperativlərin sayının və onların iqtisadi səmərəliliyinin artırılması da uğurlu nəticələr verərdi. Onda həm məhsuldarlıq artar, həm yeni iş yerləri açılar, həm də ixrac potensialı daha da yüksələr", - deyən Dilarə xanım bildirdi: "Yaxşı olardı ki, dövlət subsidiyaları, güzəştlər və güzəştli kreditlər barədə sahibkarların maarifləndirilməsi üçün rayonlarda mütəmadi olaraq seminar və təlimlər keçirilsin. Belə seminar və təlimlər zamanı iş adamlarına, fermerlərə rəqəmsal kənd təsərrüfatı, müasir becərmə texnologiyaları və iqlim dəyişikliklərinə uyğun istehsal üsulları izah edilsin. Kooperativlərin yaradılması və inkişafı ilə bağlı məlumatlandırma tədbirləri gücləndirilsin".

"Akasiya" kənd təsərrüfatı kooperativinin əsas fəaliyyəti, meyvəçilik (alma, armud, gavalı, xurma və digər mövsümi meyvələr) və quru meyvə istehsalıdır. Təsərrüfat yaxın gələcəkdə öz gücü ilə taxılçılığı inkişaf etdirmək üçün 20-30, meyvə bağlarının salınması üçün 10-15 hektar torpaq sahəsinin mərhələli şəkildə istifadəyə götürülməsini hədəfləyir. Kooperativin nəzdində quru meyvə istehsalı sexinin tam qurulması, meyvələrin yuyulması, çeşidlənməsi və qablaşdırılması xəttinin yaradılması, məhsulların saxlanması üçün soyuducu kamera və anbar tikilməsini də nəzərdə tutur. İstehsal gücü mövcud 72 kvadratmetr istehsal sahəsində ilk mərhələdə ildə təxminən 15-20 ton quru meyvə istehsal etmək mümkündür. Sahə genişləndirildikdə bu göstərici daha da artırıla bilər. Nəzədə tutulan layihənin həyata keçirilməsi nəticəsində ilkin mərhələdə 8-10 nəfər daimi, 20-30 nəfər isə mövsümi işlə təmin olunacaq.



Təsərrüfat rəhbərliyi deyir ki, nəzərdə tutduqları bu layihənin həyata keçirilməsi üçün soyuducu kameraların quraşdırılmasına, saxlama anbarının tikilməsinə, meyvələrin qablaşdırılması üçün avadanlıqların, müasir qurutma sistemlərinin alınmasına ehtiyacları var. Bu işlər həyata keçirildikdən sonra Qaxda yetişdirilən meyvələrin itkisinin qarşısı alınacaq, məhsullar əlavə dəyər qazanacaq. Yerli fermerlərdən məhsulların alınması nəticəsində onların gəlirləri xeyli artacaq, "Akasiya" kooperativinin gələcəkdə imkanları daha da genişlənəcək, yerli və xarici ixrac bazarına quru meyvə məhsulları çıxara biləcək. Dövlət proqramında qarşıya qoyulan vəzifələr də elə bundan ibarətdir", - deyə D.Əhmədova bildirdi.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# İQTİSADİYYAT

## "GL Group" ABŞ-də 4 neft-qaz aktivini əldə edən ilk Azərbaycan şirkəti olub

**Azərbaycanın ilk özəl neft-qaz şirkətləri qrupu olan "GL Group" bu gün ABŞ-nin Texas ştatının Hyuston şəhərində Midland yaxınlığında yerləşən, hazırda istismar edilən 4 neft-qaz yatağında hasilat aktivlərinin satın alınmasını tamamladığını elan edib.** AZƏRTAC **xəbər verir ki, satın alınmış aktivlərin tərkibinə 200-dən çox aktiv neft hasilatı quyusu daxildir.**

"GL Group" həmçinin həmin aktivlərin tam operatorluğunu rəsmi olaraq öz üzərinə götürüb. Bu sövdələşmə "GL Group"u ABŞ-də istismarda olan hasilat aktivlərinə sahib olan və onları operator kimi idarə edən ilk Azərbaycan şirkətlər qrupu edib. Bu, Azərbaycanın özəl neft-qaz sektoru üçün tarixi mərhələ olmaqla yanaşı, "GL Group"un ABŞ enerji sənayesinin mərkəzində mövcudluğunu təmin edir.




Perm hövzəsində yerləşən satın alınmış aktivlər "GL Group"u ABŞ-nin ən böyük neft-qaz hasilatı regionunda və dünyanın quruda neft-qaz fəaliyyəti üzrə əsas mərkəzlərindən birində mövqeləndirir. Qərbi Texas və Nyu Meksiko ştatının cənub-şərq hissəsini əhatə edən Perm hövzəsi təxminən 223 min kvadratkilometr ərazini əhatə edir. 2025-ci ildə hövzədə gündəlik təxminən 6,6 milyon barel xam neft hasil olunub ki, bu da ABŞ-nin ümumi neft hasilatının təxminən yarısına və qlobal xam neft hasilatının 8 faizdən çoxuna bərabərdir. Eyni zamanda hövzədə 2025-ci ildə gündəlik təxminən 27,6 milyard kub fut əmtəəlik təbii qaz hasil olunub ki, bu da ABŞ-nin əmtəəlik qaz hasilatının təxminən 23 faizini və qlobal təbii qaz hasilatının təxminən 7 faizini təşkil edir.

Bu miqyasda, yüksək texnoloji səviyyəyə və intensiv rəqabət mühitinə malik hövzədə hasilatda olan aktivlərin həm sahibi, həm də operatoru olmaq "GL Group" üçün mühüm mərhələdir. Bu satınalma "GL Group"un 2024-cü ildə Türkiyənin neft-qaz hasilatı bazarına daxil olmasından sonra beynəlxalq inkişaf strategiyasının uğurlu icrasına töhfə verir. Texasdakı satınalma "GL Group"un ABŞ-də və digər beynəlxalq neft-qaz bazarlarında gələcək inkişafı üçün möhkəm zəmin yaradır.

Bu satınalma bir ildən artıq davam edən ciddi qiymətləndirmənin, tərəfdaşlıq əlaqələrinin diqqətlə qurulmasının və komandanın liderliyi, peşəkarlığı, intizamı və işə sadiqliyi sayəsində məqsədyönlü şəkildə həyata keçirilmiş yeni bazarlara giriş strategiyasının nəticəsidir. Bu, "GL Group"un strateji, əməliyyat və investisiya məqsədlərinin həyata keçirilməsində mühüm mərhələdir.

"Bu, "GL Group"da hər kəs üçün qürurverici andır. Bu satınalma dünyanın ən böyük və ən rəqabətli neft-qaz hasilatı bazarında mövcudluğumuzu təmin edən strateji mərhələdir. Bu addım şaxələndirilmiş beynəlxalq kəşfiyyat və hasilat biznesinin qurulmasına dair uzunmüddətli baxışımızı və ABŞ-da davamlı inkişafımız üçün güclü platforma yaradır", - deyə "GL Group"un baş icraçı direktoru və Məşvərət Şurasının sədri Asif Zeynalov bildirib. "Bu, ABŞ bazarına atdığımız ilk, lakin çox mühüm addımdır. Biz böyüməyə və mövcudluğumuzu genişləndirməyə davam edəcəyik", - deyə o qeyd edib.

### 2026-cı il "Şəhərsalma və Memarlıq İli"dir

# Hər şəhərin öz rəmzi...

**Bəzən dünyanın ayrı-ayrı guşələrində yerləşən iki şəhərin bir-birinə bənzədiyini söyləyirlər. Lakin hər bir müqayisə kimi hər bir bənzətmə də nisbidir və bu, şəhərlərə də aiddir. İki şəhərin oxşar bir, yaxud bir neçə cəhəti ola bilər, amma onların bir-birinin eyni olması mümkün deyil. Ümumiyyətlə, bu, aksiomdur. Məsələn, inanmaq olarmı ki, əsrlərdir böyüyən, bu gün artıq meqapolisə çevrilən, lakin daim bir körpə kimi ana Xəzərin qoynuna söykənən gözəl Bakımızın haradasa "əkiz tayı" var?!**














Eləcə də hər şəhər öz rəmzi (simvolu) ilə "möhürlənir". Şəhər simvolları dedikdə hər bir şəhəri tanıdan, onu digərlərindən fərqləndirən tarixi, mədəni və memarlıq abidələri, obyektləri nəzərdə tutulur. Bunun tərifini belə də verirlər: "Simvol müəyyən bir şəhərin tarixini, mədəniyyətini, coğrafi xüsusiyyətlərini və ya sosial-iqtisadi inkişafını əks etdirən maddi və qeyri-maddi dəyərlər toplusudur. Bu simvollar şəhəri dünyada və ya ölkə daxilində tanıdan əsas vizual və tarixi əlamətlərdir".

Belə ki, Nyu York deyəndə Azadlıq heykəli yada düşür. Parisin adı Eyfel qülləsi ilə qoşa çəkilir. Roma antik amfiteatrı Kolizeylə, London isə məşhur zəngli saat qülləsi Biq Benlə yaddaşlarda qalır. Brandenburq qapıları Berlinin vizit kartıdır. Moskva Kremllə xatırlanır…

Gəlin ölkəmizə qayıdaq. Paytaxtımızın rəmzləri Qız qalası və Alov Qüllələridir. Xalqımızın qədim keçmişindən - tarixindən, memarlığından, milli-mənəvi dəyərlərindən min dastan danışan Qız qalası. Yaxınlığında yüz göydələn ucalsa da, onun əzəməti azalmır və bu gün dünyanın ən mötəbər, ən qlobal tədbirlərinə evsahibliyi edən şəhərimizin minlərlə qonağını, eləcə də milyonlarla sadə turisti heyrətləndirməkdə davam edir.

"Alov Qüllələri" isə Bakının Azərbaycan müstəqillik qazandıqdan sonra yaranan simvollarındandır. Bu, nadir mühəndislik işi və arxitektura nümunəsidir. Adı ölkəmizin qədim Odlar Yurdu olmasından qaynaqlanıb. "Alov Qüllələri" 2013-cü ildə "Ən yaxşı hotel və turizm mərkəzi" mükafatına layiq görülüb.

Qədim Naxçıvanımızın simvolu isə Möminə Xatun türbəsidir. Bu, əsrlər keçsə də, öz möhtəşəmliyi və bənzərsizliyi ilə günümüzədək gəlib çatan, həm milli kimliyin simvoluna, həm də ümumbəşəri irsin bir hissəsinə çevrilən abidədir.

Möminə Xatun türbəsi XII əsrin sonlarında - 1186-cı ildə tikilib. Türbənin memarı və qurucusu kimi məşhur azərbaycanlı memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tanınır. Möminə Xatun türbəsi Atabəylər dövlətinin (Eldəgizlər sülaləsi) nüfuzlu xanımı, Atabəy Şəmsəddin Eldəgizin həyat yoldaşı və Cahan Pəhləvanın anası Möminə xatunun şərəfinə ucaldılıb.

Türbə, eyni zamanda Atabəylər dövlətinin gücünü, o dövrün siyasi və mədəni inkişafını simvolizə edir. Bu abidə minlərlə turist, alim, memar və tədqiqatçının diqqət mərkəzindədir. Burada hər il beynəlxalq simpoziumlar, konfranslar, ekskursiyalar keçirilir.

Bakıdan sonra ikinci böyük şəhərimiz olan Gəncənin rəsmi rəmzi və simvolu 2004-cü ildə bərpa edilmiş gerbidir. Bu gerb Gəncə xanlığının son hökmdarı Cavad xanın hakimiyyəti dövrünə aid qədim bayrağın elementlərinə əsaslanır və Ziyadoğlular nəslinin rəmzlərini əks etdirir.

Gerbin elementləri hansı mənaları verir? Buradakı günəş əbədi həyatı bildirir. Ay əbədi işıq, paklıq və təmizlik rəmzidir. Səkkizguşəli ulduz cənnətin səkkiz qapısına işarədir, Gəncənin cənnətməkan olmasını göstərir. Palıd yarpağı möhtəşəmlik, uzun ömür və müdriklik mənasını verir.

Mədəniyyət paytaxtımız, gözəllər gözəli Şuşamızın rəmzi isə Xarıbülbüldür. Elmi adı Qafqaz Qaş Səhləbidir. Bu, Qarabağda, xüsusilə Şuşada təbii halda bitən endemik və nəsli kəsilmək təhlükəsində olduğu üçün "Qırmızı kitab"a daxil edilmiş nadir çiçəkdir. Onun haqqında çoxlu rəvayətlər gəzir. Hər il Şuşada ənənəvi olaraq xarıbülbülün çiçəklənmə dövründə möhtəşəm "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı təşkil olunur.

44 günlük Vətən müharibəsində şəhid olan qəhrəmanların xatirəsini əbədiləşdirmək məqsədilə xarıbülbül həm də Azərbaycanın qələbə və zəfər simvoluna çevrilmişdir.

Şuşanın ən məşhur tarixi məkanı isə Cıdır düzüdür. Bura əsrlər boyu Qarabağ atlarının çapıldığı, xalq oyunlarının və festivalların keçirildiyi əsas mərkəz olub.

1757-ci ildə Pənahəli xan tərəfindən tikilən Şuşa qalası şəhərin tarixi toxunulmazlıq və əzəmət rəmzidir. Qala divarları şəhərin təməlinin qoyulmasını təmsil edir.

Şəhərin bir rəmzi də Qarabağ atlarıdır. Bu, Şuşanın təbiətinin zərifliyi və dözümlülüyünü simvolizə edən, dünyanın ən qədim at cinslərindən biridir.

Xəzərin qoynunda boy atan, yaşlaşdıqca cavanlaşan Sumqayıtın əsas rəmzlərindən sayılan "Sülh göyərçini" abidəsi 1978-ci ildə şəhərin dənizkənarı parkında ucaldılıb. Məlumdur ki, sovet dönəmindən məhz sənaye şəhəri kimi formalaşan Sumqayıtda müxtəlif millətlərin nümayəndələri yaşayıblar. Bu abidə də onların dostluq şəhərində birgə əməyini və mehribanlığını tərənnüm etmək üçün yaradılıb. Abidənin dünyada analoqu yoxdur. 2008-ci və 2013-cü illərdə abidə rekonstruksiya edilib.

Sumqayıtın girişindəki spiralvari "Qağayı" abidəsi də şəhərin əsas simvollarından biri sayılır. Bəzən onu da "Göyərçin" abidəsi adlandırırlar. Bakı-Quba yolunun üstündə yerləşən həmin memarlıq nümunəsi 1964-cü ildən bəri buradan ötüb keçənlərə Sumqayıt kimi gözəl bir şəhərimizi nişan verir.

İndi isə üz tutaq cənub mirvarisi Lənkərana. Lənkəranın əsas və ən tanınan rəmzləri şəhərin girişində yerləşən nəhəng Samovar abidəsi və qədim Dairəvi qala hesab olunur. Samovar bölgənin qonaqpərvərliyini, çay mədəniyyətini və burada çayçılığın inkişafını əks etdirir.

Dairəvi qala Lənkəran qalasının qalıqlarından biri olan və şəhərin qədim tarixi keçmişini simvolizə edən memarlıq abidəsidir.

Yerli əhali və qonaqlar Xanbulan gölünü Lənkəranın təbii simvolu kimi qiymətləndirir.

Bu siyahını uzatmaq da olar. Lakin bu, o demək deyil ki, bütün şəhərlərin simvolları formalaşıb. Hərçənd tarixlərin yaşıdı, bənzərsiz gözəllikləri, qonaqpərvərliyi ilə dillərə dastan olan yurdumuzun hər bir bölgəsini, hətta kədini də tanıdan neçə-neçə əlamət var. Alimlərin və mütəxəssislərin də fikirlərinə şərik çıxaraq düşünürük ki, bütün şəhərlərimizin simvollarının formalaşması məqsədəuyğundur. Çünki bu, dünyada olan bir təcrübədir və özümüzün də bir sıra şəhərlərimizin rəmzləri əhali və qonaqlarımız tərəfindən maraqla qarşılanır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

### Beynəlxalq iqtisadi icmal

# "Qara qızıl"ın qara günləri davam edir

## İndi də Yəmən üsyançı husiləri zərərsizləşdirmək istəyir

Bu gün dünyanın iki mühüm neft-qaz istehsal olunan regionunda savaş gedir. ABŞ-İran müharibəsi Hörmüz boğazından enerji resurslarının daşınmasını çətinləşdirib. Düzdür, bu il fevralın 28-də başlanan savaş dövründə tərəflərin aqressiv bəyanatlarına baxmayaraq, müəyyən qədər neft-qaz və digər malların ixracına imkan verilirdi. Amma son 7 günlük müharibə bir qədər fərqli vəziyyət yaradıb.



İstər ABŞ, istərsə də İran Hörmüz boğazından yüklərin daşınmasına imkan vermir. Boğaz, əslində, iki tərəfdən də mühasirəyə alınıb. İran Hörmüzdən çıxışa imkan verrmədiyi kimi, Amerika da boğaza girişi yasaqlayıb. O səbəbdən hazırda dünya mətbuatının ana gündəmi Hörmüz krizidir. Çünki beynəlxalq bazara çıxarılan enerji resurslarının beşdən biri bu boğaz vasitəsilə nəql edilir. Bununla bərabər, şimal qonşumuzun ərazisində də dünyanı çətin duruma salacaq hadisələr baş verir. Ukrayna son həftələr, dəmək olar ki, Rusiyanın ən mühüm neft emalı zavodlarını sıradan çıxarıb. Hazırda Rusiyada ciddi yanacaq böhranı yaşanır. Yanacaq qıtlığı üzündən yanacaqdoldurma məntəqələrində uzun növbələr var. Rusiya televiziya kanalları həmin növbələrdəki dava-dalaşları xəbərlər kimi yayırlar. Başqa ölkələr isə bu mənzərəni heyrətlə izləyərək düşünür ki, ən zəngin neft ölkəsində vəziyyət belədirsə, onlarda nələr baş verəcək? Həqiqətən, istehsalçı Rusiyanın istehlakçı ölkəyə çevrilməsi qlobal iqtisadiyyatda problemlərin yaranacağına işarədir. Çünki mütəxəssislərin rəyinə görə, Rusiyada benzin və dizel yanacağının istehsalının əvvəlki səviyyəyə çatdırılması xeyli vaxt aparacaq.

Enerji məsələləri üzrə ekspert, Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın fikrincə, baş verə biləcək üç ssenariyə diqqət yetirmək lazımdır. Birincisi, məhdud enerji şokudur ki, dünya bazarına neft çıxarılması müəyyən qədər məhdudlaşır və bunun sayəsində qiymətlər yüksəlir. İkincisi daha təhlükəlidir. Belə ki, Hörmüz boğazının uzun müddət tranzit üçün riskli olması qlobal səviyyədə enerji resurslarının çatışmazlığını yarada bilər. Sonuncusu isə müharibənin əhatə dairəsinin daha da genişlənməsidir ki, bu, dünya bazarına mənfi təsirsiz ötüşməyəcək.

Ekspertin neftin qiymətinin yüksəlməsindən sonra baş verəcək vəziyyətlə bağlı fikirləri də maraqlıdır. İlham Şaban hesab edir ki, qiymət artımı uzunmüddətli olarsa, dünyada neftin alıcıları azalacaq, nəticədə qiymətlər kəskin ucuzlaşacaq. Ötən illərin təcrübəsi göstərir ki, belə vəziyyət mümkündür, idxalçı dövlətlərdən sonra ixracatçı ölkələr də ziyan çəkir. Qeyd etmək lazımdır ki, indi Körfəz ölkələri az neft ixrac etsə də, qiymət bahalığından müəyyən qədər əlavə gəlir əldə edə bilir. Ancaq unutmayaq ki, İran tərəfindən həmin ölkələrin infrastrukturuna vurulan zərbələr nəticəsində böyük miqyasda dağıntılar meydana gəlib və onun bərpasına milyardlarla dollar vəsait xərclənməli olacaq.

Hazırda hamını düşündürən bir sual var: Yaxın Şərqdə müharibə uzanarsa, neftin qiymətinin son həddi neçə dollar olacaq? Əksər mütəxəssislər pik nöqtə kimi 150 dollar göstərir. Ancaq bundan yüksək olacağını söyləyənlər də var.

Bu arada həyəcanverici xəbərlər də dolaşır. Yəmən dövləti üsyançı husiləri zərərsizləşdirmək üçün hərbi əməliyyatlara başlayacaq. Bu o deməkdir ki, bir müddət Babül-əl-Məndəb boğazından neftin tranziti dayana bilər. İyulun 21-də husilər rəsmən bəyan etdilər ki, Səudiyyə Ərəbistanına öz neftini Qırmızı dənizdəki Yandu limanından dünya bazarına çıxarmağa imkan verməyəcəklər. Belə olan halda Hörmüz boğazından keçməklə qlobal bazara çıxarılan Səudiyyə Ərəbistanı neftinin tranziti dayanacaq. Husilər səbəb kimi bu ölkənin Yəmənin mərkəzi dövlətinə dəstək verməsini göstərirlər.

Şübhəsiz ki, husilərin təhdidi bir ölkə ilə məhdudlaşmayacaq. Onların Babül-əl-Məndəb boğazını tam bağlamaları gözlənilməz deyil. Bu hal baş verərsə, dünya bazarında neftin qiymətinin sürətlə artması ilə yanaşı, dünya ticarətində və təchizatında ciddi qırılmaların baş verməsi qaçılmazdır. Belə ki, dünya ticarətinin 33 faizinə qədəri Babül-əl-Məndəb boğazından keçir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## ARDNF-nin investisiya portfelinin aktivlər üzrə bölgüsü açıqlanıb

**Bu ilin yanvar-iyun aylarında Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) investisiya portfelinin aktivlər üzrə bölgüsündə istiqrazlar və pul bazarı alətlərinin çəkisi 33,8 faiz təşkil edib.**

Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 5,1 faiz azdır. AZƏRTAC ARDNF-nin 2026-cı ilin yanvar-iyun ayları üzrə investisiya fəaliyyətinin yekunlarına dair hesabatına istinadla xəbər verir ki, səhmlərin payı isə 2,4 faiz artaraq 28,1 faiz təşkil edib.

Daşınmaz əmlak və infrastrukturun payı sabit qalaraq 6,7 faiz, qızılın payı isə 2,6 faiz artaraq 31,4 faiz təşkil edib.

## Əlilliyi olan 70 min şəxsə reabilitasiya xidmətləri göstərilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi bu ilin birinci yarımilində əlilliyi olan 70 min şəxsi reabilitasiya xidmətləri ilə təmin edib.**

Onlardan 36,6 mininə ambulator, 17,2 mininə stasionar və icma əsaslı, digərlərinə səyyar və onlayn formada, sosial-psixoloji istiqamətlər üzrə reabilitasiya xidmətləri göstərilib.



Reabilitasiya müəssisələrində ənənəvi üsullarla yanaşı, qabaqcıl dünya təcrübəsinə uyğun reabilitasiya metodları (robotik, sosial-psixoloji reabilitasiya, yoqa, hipoterapiya, rəqs terapiyası və s.) tətbiq edilir.

Bu müəssisələr tərəfindən stasionar və ambulator xidmətlərlə bərabər, icma əsaslı, telereabilitasiya, səyyar formalarda da reabilitasiya xidmətləri göstərilir.






# Gənclik







**Gələcəyə dəstək**

## Ulu Öndərin yolu ilə gedirik

**Çoxəsrlik dövlətçilik ənənələrinə malik Azərbaycan xalqının tarixində Ümummilli Lider Heydər Əliyev şəxsiyyəti, onun zəngin siyasi fəaliyyəti və misilsiz idarəçilik təcrübəsi müstəsna yer tutur. Tarix dəfələrlə sübut edib ki, xalqı üçün yaşayan, millətinin gələcəyi naminə çalışan, ömrünü Vətəninə və dövlətinə həsr edən böyük şəxsiyyətlər yaddaşlarda əbədi yaşayırlar. Ulu Öndər Heydər Əliyevin həyatı da məhz belə mənalı, xalqına xidmət nümunəsi olan bir ömür yolu idi.**

Ulu Öndər daim vurğulayırdı ki, milli ruhun, milli kimliyin və milli maraqların qorunmasının ən etibarlı yolu müstəqil dövlətin mövcudluğundan keçir. Məhz buna görə də dahi şəxsiyyət milli-mənəvi dəyərlərin qorunmasını, dövlətçilik ənənələrinin möhkəmləndirilməsini, Azərbaycanın beynəlxalq aləmdə layiqli yer tutmasını həyatının və siyasi fəaliyyətinin başlıca məqsədinə çevirmişdi.

Azərbaycançılıq məfkurəsinin müəllifi olan Ümummilli Lider Heydər Əliyev müdrik siyasəti, uzaqgörənliyi və qətiyyətli siyasi iradəsi sayəsində müasir Azərbaycan dövlətinin əsasını qoymuş, müstəqillik arzularının reallığa çevrilməsinə nail olmuşdur. Müstəqilliyimizin ilk illərində ölkədə hökm sürən xaos, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin ağır nəticələri, separatçılıq meyilləri və vətəndaş qarşıdurması təhlükəsi fonunda xalqın yeganə ümid yeri məhz Heydər Əliyev olmuşdur.

Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər qısa müddət ərzində ölkədə siyasi sabitliyi təmin etmiş, dövlət institutlarını möhkəmləndirmiş, milli birliyi bərpa etmiş və ölkəmizin gələcək inkişaf strategiyasını müəyyənləşdirmişdir. Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və azadlıqlarının qorunması, milli-mənəvi dəyərlərə dönüş, elm, təhsil və mədəniyyətin inkişafı birbaşa Ümummillil Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin Əsas Qanunu olan Konstitusiyanın qəbul edilməsi, hakimiyyət bölgüsü prinsipinin təsbit olunması, qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması və müasir dövlət idarəçiliyi sisteminin formalaşdırılması onun rəhbərliyi altında həyata keçirilmişdir.



Qeyri-neft sektorunun inkişafı, sahibkarlığın təşviqi, kənd təsərrüfatında islahatların aparılması Heydər Əliyevin iqtisadi strategiyasının mühüm istiqamətlərindən biri idi. Postsovet məkanında analoqu olmayan torpaq islahatı nəticəsində torpağın xüsusi mülkiyyətə verilməsi ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsinə, kənd təsərrüfatının inkişafına və regionların iqtisadi potensialının güclənməsinə təkan vermişdir.

Bütün bunlarla yanaşı, Ulu Öndərin gənclər siyasəti Azərbaycanın böyüməkdə olan nəslinin formalaşmasında xüsusi əhəmiyyət daşıyır. Ümummilli Lider gənclərin dövlət quruculuğunda aparıcı qüvvə olduğunu hər zaman vurğulayırdı. Məhz Ulu Öndərin təşəbbüsü ilə 1994-cü ildə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yaradılmış və dövlət gənclər siyasətinin institusional əsasları formalaşmışdır. 1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin ilk forumunun keçirilməsi və bu günün Azərbaycan Gəncləri Günü kimi təsis olunması gənclərə göstərilən yüksək dövlət qayğısının təzahürü idi.

Mən müstəqil Azərbaycanın bir gənci kimi özümü xoşbəxt hesab edirəm ki, Ulu Öndərin bizlərə miras qoyduğu bu dövlət siyasətinin nəticəsində 2025-ci il üzrə "İlin Gənci" mükafatına layiq görülmüşəm. Eyni zamanda "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramının iştirakçısı və Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən IX "Muğam" Televiziya Müsabiqəsinin finalçısı olmaq həyatımın ən qürurverici məqamlarından biridir.

Bu gün Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının qəhrəmanlıq salnaməsidir. Cəmi 44 gün davam edən Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad edilmiş, ölkəmizin ərazi bütövlüyü təmin olunmuş və Ermənistan ordusunun "məğlubedilməzlik" mifinə son qoyulmuşdur. Bu tarixi Zəfər yalnız hərbi uğur deyil, həm də Ulu Öndərin müəyyən etdiyi milli dövlətçilik strategiyasının, siyasi iradəsinin və azərbaycançılıq ideologiyasının parlaq təntənəsidir.

***Yusif CƏFƏRBƏYLİ,***
***IX "Muğam" Televiziya Müsabiqəsinin finalçısı***

**Vətənpərvərlik**

## Xoşbəxt gələcəyin təməli - Vətən və xalq sevgisi

**Vətən hər bir insanın doğulub boya-başa çatdığı torpaqdan daha geniş məna daşıyır. Doğma yurda, məmləkətə bağlılıq bu hissin ən ülvi təcəssümüdür. Vətən insanın kimliyini formalaşdıran, ona mənsubiyyət hissi bəxş edən müqəddəs anlayışdır.**

Azərbaycan xalqı əsrlər boyu yurduna, ulusuna sevgisini tarixinin ən çətin sınaqlarına sinə gərərək nümayiş etdirib. Məmləkətinin azadlığı, müstəqilliyi, milli birliyi uğrunda mübarizə aparıb. Vətən tariximiz, dilimiz, milli-mənəvi dəyərlərimiz, mədəniyyətimiz, keçmişimiz, bu günümüz və gələcəyimizdir. Odur ki, onu sevmək, qorumaq, inkişafı, rifahı yolunda çalışmaq, bacarığını əsirgəməmək kifayət deyil. hər bir vətəndaş özünü bu müqəddəs mübarizənin iştirakçısı hesab etdi. Minlərlə gənc böyük ruh yüksəkliyi ilə Vətənin müdafiəsinə qalxdı, döyüş meydanında misilsiz rəşadət, igidlik göstərdi. Qarabağ və Şərqi Zəngəzurun Ermənistanın işğalından azad olunması naminə gedən döyüşlərdə Azərbaycanın neçə-neçə vətənpərvər, qəhrəman oğlu ən uca zirvə olan şəhidliyə yüksəldi, yüzlərlə gənc sağlamlığını Vətən yolunda fəda etdi. Onların göstərdikləri şücaət bugünkü və gələcək nəsillər üçün əsl vətənpərvərlik məktəbidir.

2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri isə Azərbaycanın dövlət suverenliyinin ölkənin bütün ərazisində tam bərpa olunmasını təmin etdi. Bir daha sübut olundu ki, güclü dövlət, peşəkar ordu və xalqın birliyi Azərbaycanın ən böyük qüvvəsidir.



Gənclərimizi də bu ruhda böyüdüb tərbiyə etmək milli-mənəvi varlığımızı, uğurlu gələcəyimizi şərtləndirən ən mühüm amillərdən biridir.

Bu gün Yer kürəsi başdan-başa sülhün, sabitliyin, firavanlığın hökm sürdüyü məkan deyil. Bir sıra ölkələrdə siyasi gərginliklər, müharibələr səngiməl bilmir. Belə bir zamanda vətənpərvər olmaq, Vətənə xidmət yalnız sərhədləri qorumaqla məhdudlaşmır. Müasir dövrün çağırışlarını duymaq, onlara səs vermək, uyğun addımlar atmaq gərəkdir. Milli birliyi qorumaq, hansı sənəti, peşəni seçməyindən asılı olmayaraq, bacarığını əsirgəməmək, əzmlə çalışmaq Vətənə, onun rifahına xidmətin nümunəsidir.

Gənclər hər bir ölkənin, xalqın gələcəyidir. Dövlətin gələcəyi, tərəqqisi və beynəlxalq nüfuzu bugünkü gənclərin biliyi, bacarığı və vətənpərvərlik ruhundan asılıdır. Buna görə də gənclərin milli-mənəvi dəyərlərə bağlı, yüksək təhsilli, dünyagörüşlü və məsuliyyətli vətəndaş kimi formalaşması mühüm əhəmiyyət kəsb edir.

Gənclərin vətənpərvərlik ruhunda böyüməsində ailənin, məktəbin və cəmiyyətin üzərinə böyük məsuliyyət düşür. Ailə ilk tərbiyə ocağıdır. Uşaqlar vətən sevgisini, millət təəssübkeşliyini ailədə öyrənirlər. Valideynlərin milli dəyərlərə hörmətlə yanaşması, övladlarına düzgün nümunə göstərməsi onların şəxsiyyət kimi yetişməsində mühüm rol oynayır. Məktəb isə bu tərbiyəni davam etdirərək şagirdlərdə vətəndaş məsuliyyəti, dövlətçilik düşüncəsi və milli birlik hissini formalaşdırır. Müəllimlərin verdiyi biliklərlə yanaşı, onların şəxsi nümunəsi də gələcək nəslin mənəvi inkişafına təsir göstərir. Cəmiyyət isə gənclərin şəxsiyyət kimi formalaşmasına istiqamət verir. Bu üç mühüm amilin - ailənin, məktəbin və cəmiyyətin birliyi, vəhdəti sağlam düşüncəli, savadlı və Vətəninə bağlı gənclərin yetişməsinə xidmət edir.

44 günlük Vətən müharibəsi xalqımızın iradəsinin, milli birliyinin və Vətən sevgisinin möhtəşəm təntənəsi oldu. 30 ilə yaxın işğal altında qalan torpaqlarımız azad edildi. Bu tarixi Zəfər Azərbaycanın yalnız hərbi gücünün, qüdrətinin nümayişi olmadı, həm də milli ruhun, birlik və həmrəyliyin, haqqın və ədalətin qələbəsi oldu. Savaş günlərində Azərbaycan xalqı misilsiz birlik göstərdi. Cəbhədə döyüşən əsgərlərlə yanaşı, arxa cəbhədə çalışan

Bu Zəfər həm də gənclərimiz üçün böyük həyat məktəbi oldu. Azərbaycan gəncləri dərk etdilər ki, Vətəni sevmək yalnız müharibədə aparılan ağır döyüşlər zamanı deyil, sülh dövründə də ona vicdanla xidmət etməkdir. Təhsil almaq, xarici dilləri öyrənmək, müasir texnologiyalara yiyələnmək, elm və innovasiya sahəsində uğurlar qazanmaq da vətənpərvərliyin mühüm göstəriciləridir.

Bu gün işğaldan azad olunmuş torpaqlarda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri ölkəmizin qüdrətini bir daha nümayiş etdirir. Bu müqəddəs quruculuq prosesində də gənclərimizin fəallığı rəğbət doğurur.

Vətənpərvər gənclik milli kimliyini unutmayan, ana dilini sevən, tarixini dərindən bilən, milli-mənəvi dəyərlərini qoruyan nəsildir. Tarixini bilməyən xalq sağlam gələcək qura bilməz. Buna görə də hər bir gənc Azərbaycanın qəhrəmanlıq tarixini, mədəni irsini və dövlətçilik ənənələrini öyrənməli, onları gələcək nəsillərə ötürməlidir.

Vətənpərvər gənclik sağlam həyat tərzini seçən, idmanla məşğul olan, fiziki və mənəvi cəhətdən güclü olan gənclikdir. Sağlam düşüncə, yüksək intizam və güclü iradə həm şəxsi inkişaf, həm də cəmiyyətin tərəqqisi üçün vacib amillərdir. İdmanda, elmdə, mədəniyyətdə və digər sahələrdə qazanılan uğurlar Azərbaycanın beynəlxalq nüfuzunun artmasına xidmət edir.

Ətraf mühitin qorunması, ağacəkmə aksiyalarında iştirak, könüllülük fəaliyyəti, ehtiyacı olan insanlara yardım göstərmək, ictimai faydalı işlərdə fəal olmaq da vətənpərvərliyin mühüm göstəricilərindəndir. Çünki Vətəni sevmək yalnız torpağı deyil, onun təbiətini, insanlarını, şəhərlərini və kəndlərini də sevmək deməkdir.

Son illər Azərbaycanın əldə etdiyi uğurlar gənclərin qarşısında yeni imkanlar açır. Təhsil, elm, informasiya texnologiyaları, idman, mədəniyyət və digər sahələrdə fəaliyyət göstərən minlərlə gənc ölkəmizi beynəlxalq arenada layiqincə təmsil edir. Onların qazandığı uğurlar göstərir ki, Azərbaycanın gələcəyi xoşbəxtdir. Çünki həmin gələcək bacarıqlı və vətənpərvər gənclərin əllərindədir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

**İstedadlar**

## Onun üçün rəsm hisslərin sözsüz ifadəsidir



**Bəzən insan düşüncələrini sözlə ifadə edə bilmir, qələmin yerini fırça, cümlələrin yerini isə rənglər tutur. Çünki elə hisslər var ki, onları yalnız sənət danışdıra bilir. Bəzən uzun bir söhbətdənsə, rəssam fırçasının yaratdığı əsər fikri daha gözəl ifadə edir. Əsl sənət də elə budur - insanın daxili aləmini görünən dünyaya çevirmək.**

1998-ci ildə dünyaya göz açan gənc rəssam Fidan Həsənova məhz bu düşüncənin daşıyıcılarındandır. Onun üçün rəsm heç vaxt, sadəcə, peşə və ya maraq olmayıb. Uşaqlıq illərindən qəlbində yaşayan bu sevgi zaman keçdikcə həyat yoluna çevrilib. Özü bunu belə ifadə edir: "Uşaqlıq illərimdən etibarən rəsm mənim üçün, sadəcə, bir maraq deyil, daxili dünyamı ifadə etdiyim xüsusi bir dil olub".

Bu etiraf təsadüfi deyil. Çünki Fidanın yaradıcılığına nəzər saldıqda aydın görünür ki, onun əsərləri zahiri gözəlliyi təsvir etməkdən daha çox insanın mənəvi aləmini ifadəyə xidmət edir. O, rənglər vasitəsilə hisslərini, düşüncələrini, xatirələrini və həyata baxışını bölüşür. Elə rəssamın yaratdığı hər tablo da onun daxili dünyasının səmimi etirafıdır.





Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında aldığı peşəkar təhsil Fidanın fitri istedadını daha da zənginləşdirib. Hazırda Prezident yanında Dövlət İdarəçilik Akademiyasında təhsilini davam etdirən gənc rəssam yaradıcılıqla intellektual inkişafı vəhdətdə görür. Onun fikrincə, sənət yalnız istedadın deyil, həm də daim öyrənməyin və öz üzərində çalışmağın nəticəsidir.

Yaradıcılıq fəaliyyəti ərzində müxtəlif yerli və beynəlxalq sərgilərdə iştirak edən Fidan Həsənova bu tədbirlərə, sadəcə, əsərlərini nümayiş etdirmək imkanı kimi baxmır. Gənc rəssam deyir: "Bu sərgilər mənim üçün yalnız təqdimat platforması deyil, həm də fərqli mədəniyyətlərlə ünsiyyət qurmaq, sənət vasitəsilə insanlara toxunmaq imkanıdır". Düşüncəsi rəssamı dünyanın beş qitəsinə aparıb. Şimali Amerikada Mayami və Nyu York, Cənubi Amerikada Rio-de-Janeyro, Avropanın bir çox ölkəsi, Afrika qitəsində Misir, Asiyada isə Sinqapur, Malayziya və Koreyada keçirilən beynəlxalq sərgilərdə ölkəmizi təmsil edib. Azərbaycan mədəniyyətinə həsr olunmuş 28 beynəlxalq sərgidə iştirak etməsi gənc rəssam üçün məsuliyyət və qürur mənbəyidir.

Heydər Əliyev Mərkəzində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunan sərgidə iştirakını yaradıcılıq həyatının mühüm hadisələrindən biri hesab edən Fidan Həsənova Birləşmiş Millətlər Təşkilatı çərçivəsində Nyu Yorkda keçirilən beynəlxalq sərgini də xüsusi qürur hissi ilə xatırlayır. O, həmin sərgidə Azərbaycanı "Simvolların dilində danışan Şərqin xatirəsi" və "Torpağın Qırmızısı" adlı iki əsəri ilə təmsil edib. Bu əsərlərdə milli yaddaş, torpağa bağlılıq və kimlik hissi müasir bədii ifadə vasitələri ilə təqdim olunur.

Fidan Həsənovanın yaradıcılığının əsas xüsusiyyətlərindən biri də sadəlikdə dərin məna axtarmasıdır. Onun sözləri ilə desək: "Əsərlərimdə əsas diqqət minimalizmə, daxili hisslərin incə ifadəsinə və insanın təbiətlə harmoniyasına yönəlir. Mənim üçün rəsm - sözsüz danışmaqdır". Bu fikir, əslində, rəssamın bütün yaradıcılığını inikas etdirir. Hər bir rəng, xətt, kompozisiya müəllifin ürəyindən gələn bir duyğunu ifadə edir. Rəssam üçün milli simvollar da onun kimliyinin, mənəvi köklərinin və Vətənə bağlılığının ifadəsidir. Buna görə də rəssamın əsərlərində milli ruh müasir bədii düşüncə ilə ahəngdar şəkildə birləşir.

Fidan Həsənova sənəti insanlar arasında körpü yaradan böyük mənəvi qüvvə hesab edir. Onun fikrincə, incəsənət dilləri, sərhədləri və məsafələri aşaraq insanları bir-birinə yaxınlaşdırır. Hər yeni əsər daxili aləmdən gələn bir səs, hər yeni sərgi isə həmin səsi dünyanın müxtəlif guşələrində yaşayan insanlarla bölüşmək üçün bir imkandır. Fidan hisslərini belə ifadə edir: "Dünyanın harasında oluramsa, ürəyim hər zaman Azərbaycanla döyünür. Harada olmağımdan asılı olmayaraq, mən özümü bu torpağın bir parçası kimi hiss edirəm. Ölkəmi incəsənət vasitəsilə təmsil etməkdən böyük qürur duyuram. Azərbaycan mənim ilham mənbəyimdir və hər yeni əsərimdə onun izləri yaşayır".

Bu sözlər təkcə gənc rəssamın sənətə sədaqətin, milli kimliyə bağlılığın və Vətən sevgisinin səmimi ifadəsidir. Çünki sənətkarın vəzifəsi harada yaşamasından asılı olmayaraq, ürəyində daşıdığı Vətəni yaratdığı əsərlərində yaşatmağı bacarmaqdır. Fidan Həsənovanın yaradıcılığı da məhz bu mənəvi dəyərin rənglərlə ifadə olunan təcəssümüdür.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Azərbaycan Dövlət Kukla Teatrının növbəti qastrol səfəri Pirallahıya oldu



**1931-ci ildə yaradılmış, bu il 95 illik yubileyini qeyd edən Azərbaycan Dövlət Kukla Teatrının ölkədaxili qastrol proqramı çərçivəsində növbəti çıxışı Pirallahı Rayon Gənclər Evində olub.**

Teatrın Mətbuat xidmətindən aldığımız məlumata görə, qastrol proqramının əsas məqsədi paytaxtdan kənarda yaşayan balaca teatrsevərlərə peşəkar səhnə nümunələrini təqdim etmək, uşaqlarda teatr mədəniyyətinə marağı artırmaq və milli uşaq ədəbiyyatının ən gözəl nümunələrini geniş auditoriyaya çatdırmaqdır.

Tədbiri giriş sözləri ilə açan Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov milli teatrımızı ölkəmizin mədəni yaddaşını yaşadan sənət ocağı kimi qiymətləndirərək bu cür tədbirlərin rayonun mədəni inkişafına töhfə verdiyini diqqətə çatdırıb. O, kukla teatrı ənənələrinin uşaqların milli-mənəvi dəyərlərə bağlılığının güclənməsində rolunu qeyd edib.

**Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay ƏFƏNDİYEVA** vurğulayıb ki, milli irsimizin təbliği dövlətimizin mədəniyyət siyasətinin mühüm istiqamətlərindən biridir. Ölkəmizin qocaman teatr ocaqlarından olan Dövlət Kukla Teatrının zəngin yaradıcılıq ənənələrinə diqqətçəkən deputat təmsil etdiyi rayonlarda mədəni həyatın canlandırılmasına yönəlmiş layihələrin, o cümlədən teatr tamaşalarının təşkilinə hər zaman dəstək verildiyini bildirərək bu cür təşəbbüslərin gələcəkdə də davam etdirilməsinin vacibliyini nəzərə çatdırıb.

Tədbirdə həmçinin Yeni Azərbaycan Partiyası Pirallahı Rayon Təşkilatının sədri Emil Abasov, teatrın direktoru, Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadə, tamaşanın səhnələşdirmə və quruluş müəllifi Saida Haqverdiyeva, şəhid ailələrinin övladları, yerli ictimaiyyət, çoxsaylı balaca teatrsevərlər iştirak ediblər.



Tamaşaçılara Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi Xanımana Əlibəylinin sevilən mənzum əsərlərindən olan "Dovşanın ad günü" nağıl-poeması əsasında hazırlanmış eyniadlı tamaşa təqdim olunub. Rəngarəng səhnə tərtibatı, musiqili nömrələri və maraqlı süjet xətti ilə seçilən tamaşa pirallahılı balaca teatrsevərlər tərəfindən böyük maraq və alqışlarla qarşılanıb.

Tamaşanın səhnələşdirmə və quruluş müəllifi Saida Haqverdiyeva, quruluşçu rəssamı Rəna Abbasova, bəstəkarı Əməkdar artist Vüqar Camalzadə, mahnıların mətn müəllifi isə Sevinc Nuruqızıdır. Birhissəli kukla tamaşasında obrazları Cavid İbrahimov, Samirə Nəcəfova, Bayram Ağamalıyev, Araz Həsənli, Könül Nəsibova, Səbinə Məmmədova, Firuzə Nəsibli-Abbasova və Elnur Xəlilov canlandırıblar.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!

## Zəfər haqqımız idi

**İkinci Qarabağ müharibəsinin elə ilk anlarından ordumuzun cəsur zabit və əsgərləri silaha sarılaraq döyüşlərə atıldılar. Hərbçilərimizin hünəri və cəsarəti sayəsində qəsbkarların hücumlarının qarşısı qətiyyətlə alındı. Azərbaycan zabiti və əsgəri ermənilərin qarşısına keçilməz səd çəkdi.**

Rəşadətli Azərbaycan Ordusu 44 gün ərzində 30 ilə yaxın erməni işğalçılarının zəbt etdiyi əraziləri azad etdi. Ürəyi Vətən eşqi ilə döyünən oğullar qəhrəmancasına döyüşərək tarix yazdılar. Dostlarımıza da, düşmənlərimizə də güclərini, qüdrətlərini və igidliklərini göstərdilər.

Oktyabr ayının 4-də Cəbrayıl rayonunu düşməndən azad edən ordumuz həmin ayın 17-də həm Füzuli rayonunun mərkəzini, həm də Xudafərin körpülərinin yerləşdiyi ərazini erməni işğalçılarından təmizlədi. Silahlı Qüvvələrimiz Füzulidə də, Xudafərində də bayrağımızı dalğalandırdılar. Bu zəfərlər, bu uğurlar hamımızı sevindirdi. Qürur və iftixar dolu anlar yaşadıq. Düşmən üzərində qazanılan qələbələr hərbçilərimizin vətənpərvərlik hissini, döyüş əzmini, qisas hissini daha da artırdı.

Yaşadığımız həyatda yurd itkisindən, torpaq nisgilindən ağrılı heç nə yoxdur. Bunu yalnız və yalnız həmin həsrəti, nisgili, ağrını çəkənlər yaxşı bilərlər. Uzun illər idi ki, düşmən tapdağında qalmış torpaqlarımızın nisgilini çəkirdik, onun həsrəti ilə qovrulurduq. Doğma ocaqlarımıza qayıdacağımız, o yerlərə ayağımızın dəyəcəyi günü intizarla, həsrətlə gözləyirdik. Ordumuzun gücünün, qüdrətinin artdığını gördükcə əmin olurduq ki, mütləq günlərin birində işğala son qoyulacaq, Silahlı Qüvvələrimiz torpaqlarımızı azad edəcək. Məcburi köçkünlər böyük sevinc içində doğma ocaqlarına qayıdacaqlar.



Qoynunda dünyaya göz açdığımız, boya-başa çatdığımız ata-baba yurdlarımız gündüzlər xəyallarımızdan, gecələrsə yuxularımızdan çıxmırdı. Körpə uşaq anasını arzulayan kimi, biz də qollarımızı qoynumuza qoyub doğma torpaqlarımıza qayıtmaq istəyirdik. Təəssüflər olsun ki, illər üst-üstə qalansa da, geriyə dönüşə ümid yolları görünmürdü. Hissə qapılanda hərdən düşünürdük ki, deyəsən, bizi geri qaytaracaq yollar üzümüzə birdəfəlik bağlanıb. Beynəlxalq təşkilatların vasitəçiliyi ilə aparılan sülh danışıqlarının səmərəsizliyi, birtərəfliyi, işğalçı Ermənistana təzyiq göstərməməsi, yağıların torpaqlarımızdan çaxmağa məcbur edilməməsi hamımızı qəzəbləndirirdi. Sanki bütün dünya işğalçı Ermənistanın arxasında dayanmışdı. Ermənilər tərəfindən yurdundan qovulmuş köçkünlər isə doğma ocaqlarına qayıtmaq istəyirdilər, ürəklər həsrət notları üstünə köklənmişdi, qələbə yanğısı ilə döyünürdü.

İkinci Qarabağ müharibəsi başlayanda nisgil dolu ürəyimizdə geriyə dönmək ümidi tumurcuqladı. Azərbaycan Ordusu erməni işğalçılarını geri sıxışdıra-sıxışdıra dayanmadan irəliləyirdi. Hər addım uğrunda qanlı döyüşlər gedirdi. İşğalçılar torpaqlarımızdan çıxmaq istəməsələr də, ordumuzun əkshəmlələri qarşısında duruş gətirə bilmirdilər.

Müharibə başlayandan, demək olar ki, hər gün cəbhədən Azərbaycan Ordusunun yeni zəfərlərinin sorağı gəlirdi. Oktyabrın 20-də daha bir şad xəbər eşitdik. Zəngilan işğaldan azad olundu. Ertəsi gün isə ermənilər qoynunda doğulduğum Babaylı kəndindən qovuldular. Ata-baba yurdumuz rahat nəfəs aldı. Kəndimizin işğalına son qoyuldu. Bu xəbər bizə dünyalarca sevinc bəxş etdi, ürəyimiz atlandı, qəlbimizə qürur seli axdı. Çünki dünyanın ən şad xəbərini eşitmişdik. Sanki dünyaya yenidən doğmuşduq. Uzun illər idi bu günün intizarını çəkirdik, o günü gözləyirdik. Qoynunda dünyaya göz açdığımız torpaqlara ayaq basmaq həsrətiylə yaşayırdıq. İstəyirdik ki, o yurd yerlərimizi yenidən görək, doğma ocaqların havasını udaq, yenidən o torpaqlarda ömür sürək. Yenidən ayağımız kəndimizin daşına, qayasına, torpağına dəysin. Yenidən şırıl-şırıl axan Həkəri çayından su içək, güllü-çiçəkli dərələrimizin qoynunda gəzək. Şükür, axır ki, bu günü gördük, bu dəqiqələri yaşadıq, belə gözəl anlara şahidlik etdik.

Rayonumuz, kəndimiz işğaldan azad edildikdən sonra da döyüşlər səngimədi, atəş səsləri kəsilmədi, silahlar susmadı. Azərbaycan Ordusu Zəngilanı yağılardan təmizlədikdən sonra Qubadlı, Laçın və Şuşa istiqamətində əks-hücumlarını davam etdirdi. Getdikcə zəifləyən, məğlub duruma düşən, ağır itkilər verən, texnikasını, canlı qüvvəsini itirən işğalçılar ordumuzun qarşısında dayana bilmirdilər. Nəhayət, onlar ağ bayraq qaldıraraq məğlub olduqlarını etiraf etdilər. Azərbaycan Ordusu düşmənə bundan başqa çıxış yolu qoymamışdı. 2020-ci il noyabrın 10-da ermənilər kapitulyasiya aktına imza atdılar. Bir güllə atılmadan, qan tökülmədən Laçın, Ağdam və Kəlbəcər rayonları Azərbaycana təhvil verildi. Azərbaycan Ordusu, Azərbaycan xalqı İkinci Qarabağ müharibəsini beləcə Zəfərlə başa vurdu. Tarix zabit və əsgərlərimizin göstərdikləri qəhrəmanlıqları daim səhifələrində saxlayacaq. Gələcək nəsillər zaman-zaman igidliyi bu səhifələrdən öyrənəcəklər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Yurdu yaşadan qəhrəmanlar

## Dağ vüqarlı, qartal baxışlı

**Birinci Qarabağ müharibəsində ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmiş oğullarımızdan biri də Valeh Əlizaid oğlu Müslümovdur. Valeh bir ildən çox erməni işğlaçılarına qarşı cəsarətlə vuruşub. Bu müddət ərzində neçə-neçə qanlı əməliyyatların iştirakçısı olub. Torpaqlarımızın müdafiəsi və azadlığı naminə bütün çətinlikləri dəf edib. İlıq bir yaz günündə isə şəhid olub.**

Valeh Müslümov 1968-ci ilin sentyabrında Lerikdə doğulub. 1983-cü ildə səkkizinci sinfi bitirdikdən sonra Sumqayıt şəhərindəki 17 saylı şəhər texniki-peşə məktəbində dülgər ixtisasına yiyələnib, 2 saylı Sumqayıt Tikinti Trestinin Səyyar Mexanikləşdirilmiş dəstəsində işə düzəlib. Qısa müddət ərzində peşəkarlığı ilə seçilib.

Valeh Müslümov 1986-cı ildə hərbi xidmətə çağırılıb. 1988-ci ildə hərbi xidmətini başa vurduqdan sonra Sumqayıta qayıdıb. Yenə də dülgər peşəsində çalışıb. Həmin illər millətlər arasında münaqişlər qızışmağa başlamışdı. Ermənilər Sumqayıt hadisələrini törətmişdilər.



Qarabağda şəhər və kəndlərimizin erməni quldurları tərəfindən işğal edilməsinə dözə bilməyən Valeh Müslümov cəbhəyə getmək qərarına gəlib. 1991-ci ilin avqust ayından DİN-in Xüsusi Təyinatlı Milis Dəstəsində xidmətə başlayıb. Elə həmin ildən də gərgin döyüşlər gedən bölgələrə göndərilərək əməliyyatlarda iştirak edib. Şuşa, Tovuz, Qubadlı, Füzuli, Goranboy və başqa döyüş əməliyyatlarında igidlik göstərib. Çox çəkmir ki, hərbi texnikanın və silahların sirlərinə yaxından bələd olan Valehin qəhrəmanlığı erməni quldurlarını narahat etməyə başlayıb. Separatçılar onu zərərsizləşdirmək üçün külli miqdarda pul vəd ediblər. Amma bu, Valehi narahat etmir, o, yenə də torpaqlarımızın azadlığı uğrunda döyüşməyə davam edir.

Füzulinin Hoğa kəndi uğrunda gedən döyüşlərdə erməni işğalçıları əməliyyat zamanı yaralanmış əsgərləri çıxarmağa imkan vermirdilər. Düşmənin güclü müqavimətinə baxmayaraq, Valeh atəş altında döyüş meydanında qalmış yaralıları çıxarmağı bacarır. Bu, cəsur əsgərin döyüşlər zamanı göstərdiyi igidliklərdən yalnız bir faktdır.

Erməni işğalçıları 1992-ci il aprelin 10-da xeyli sayda texnika və canlı qüvvə ilə Tərtərin indiki Şəhriyar kəndinə hücuma keçdilər. Strateji nöqtədə yerləşən bu yaşayış məntəqəsini qorumaq üçün Valehgil vaxt itirmədən döyüşə atıldılar. Valeh həm vuruşur, həm də yaralanmış əsgər yoldaşlarını təhlükəsiz yerə çıxarırdı. Böyük qüvvə ilə döyüşən erməni işğalçılarının hü-



cumları isə dayanmaq bilmirdi. Xeyli müddət davam edən bu qeyri-bərabər döyüşdə Valeh yaralanır. Buna baxmayaraq, döyüşdən çıxmır, 11 nəfər yaralı əsgərin həyatını xilas edir. Amma çoxlu qan itirdiyindən həlak olur.

Vətənin dağ vüqarlı, qartal baxışlı qəhrəman oğlu 23 yaşında şəhidlik zirvəsinə ucalır. Onu Lerikdə ehtiramla dəfn edirlər.

Ərazi bütövlüyümüz uğrunda gedən döyüşlər zamanı göstərdiyi şücaətə və rəşadətə görə Valeh Əlizaid oğlu Müslümov Prezidentin 6 iyun 1992-ci il tarixli sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıq və hünər göstərmiş Valeh Müslümovun adı bu gün oxuduğu Lerik şəhər 2 saylı orta məktəbdə yaşayır.

*V.MƏMMƏDQULUOĞLU,*
*"Azərbaycan"*

● Ölməzliyə qovuşanlar

## Qəhrəmanların ömrü əbədi olur



**Tarixin ən parlaq səhifələrini qəhrəmanlar yazırlar. Onların ömür yolu bəzən qısa olsa da, əməlləri əsrlərin yaddaşında yaşayır, adları millətin qürur rəmzinə çevrilir. Belə insanlar torpaqla bərabər, həm də xalqın yaddaşına köçürlər.**

2020-ci il sentyabrın 27-də erməni işğalında olan Qarabağın dağları, qayaları, dərələri təkcə mərmi səslərinə yox, Azərbaycan əsgərinin "Vətən!" hayqırtısına oyandılar. O gün Murovun sərt zirvələri, Füzulinin qan qoxulu səngərləri, Hadrutun dumanlı meşələri Xüsusi Təyinatlı Qüvvələrin misilsiz qəhrəmanlığının şahidinə çevrilmişdi. Qəhrəman oğullarımız ölümün gözünün içinə dik baxaraq irəliləyirdilər. Azərbaycan əsgərinin düşüncəsinə qələbə hissi hakim kəsilmişdi. Çünki XTQ döyüşçüləri üçün Vətən xəritədə çəkilmiş sərhəd deyil, anaların göz yaşı, uşaqların gələcəyi, şəhidlərin əmanəti idi. O igidlərin önündə gedən zabitlərdən biri də kapitan Nurlan Mustafayev idi.

1990-cı il iyulun 22-də Hamlet və Rəhilə Mustafayevlərin ocağında dünyaya gələn Nurlanın taleyinə elə uşaqlıqdan hərbçi olmaq yazılmışdı. Məktəb illərində çalışqanlığı, nizam-intizamı və yüksək biliyi ilə seçilən Nurlan 8-ci sinifdən sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olunanda müəllimləri onun məktəbdən ayırılmasını istəmirdilər. Onlar bu sakit, təmkinli oğlanın biliyinin, bacarığının böyük gələcək vəd etdiyinə inanırdılar. Nurlan isə öz yolunu seçmişdi. O özü də bilirdi ki, bu yol rahat yol deyil, bu yola çıxanlar hər an canını Vətənə fəda etməyə hazır olmalıdırlar.

Nurlan başladığı yolda məqsədinə doğru uğurla irəliləyirdi. Təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirdi, sonra Almaniyada hərbi hazırlıq kursu keçdi. Xarici ölkədə oxuyarkən ən yaxşı əcnəbi kursant adına layiq görülməsi, atıcılıq üzrə qızıl medal, qaçış üzrə birincilik və saysız-hesabsız mükafatlar qazanması onun təkcə fiziki hazırlığını deyil, həm də iradəsinin möhkəmliyini də göstərirdi. Almaniyada yaşadığı bir hadisə ömrü boyu onun qəlbində sağalmaz yara açdı. Azərbaycan Ordusunu qürurla təmsil edən Nurlana auditoriyada verilən bir sual sanki ürəyinə xəncər kimi sancıldı: "Torpaqlarının 20 faizi işğal altında olan ordunu bu qədər fəxrlə necə təqdim edirsən?" Bu sözlər gənc zabitin yaddaşına həkk olundu.

O gündən sonra Qarabağın azad olunması onun üçün, sadəcə, hərbi vəzifə yox, vicdan borcu, kişilik andı oldu. Xidmət yolu onu Murov zirvələrinə apardı. Dörd il düşmənlə üzüzə xidmət etdi. General Polad Həşimovun rəhbərliyi altında formalaşan zabit kimi o, hərb sənətinin yalnız döyüşməyi yox, insan olmağı da öyrətdiyini anladı. Anası Rəhilə xanım deyir: "Nurlanın tağımında 14 əsgər vardı. Ona geyim, corab, isti paltar alanda həmişə deyərdi ki, ana, hər şeyi on dörd dənə al. Mən dağın başında geyinim, əsgərim üşüsün, bu olmaz". Bu, sadəcə, mərhəmət deyildi, həm də komandirin əsgərinə olan qayğısı idi. Rəhilə xanım deyir ki, Nurlandan söz düşəndə əsgərlər deyirdilər ki, komandir təlimlərdə çox sərt, təlim bitəndən sonra isə doğma qardaşımıza çevrilirdi.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda kapitan Nurlan Mustafayev döyüşün ön sıralarında idi. Murov, Füzuli, Hadrut... Azərbaycan əsgərinin ayağının dəydiyi hər yüksəklikdə onun da izi var. Döyüş yoldaşlarının söylədiyinə görə, ən ağır tapşırıqları Nurlan həmişə özü üzərinə götürürdü. Əsgərlərinə isə "siz təhlükəsiz yerdə qalın", - deyirmiş. Çünki o, rəhbərlik etməyi arxadan əmr vermək kimi yox, öndə getmək kimi başa düşürdü. 2020-ci il oktyabrın 11-də Nurlan ailəsi ilə son dəfə danışır. Hamıya eyni sözləri deyir: "Hər şey yaxşıdır, narahat olmayın, irəliləyirik..." Səsində nə yorğunluq vardı, nə ümidsizlik. İçində qəhrəmanlıq hissi olan zabit bir neçə saat sonra 30 yaşında Hadrut uğrunda döyüşlərdə şəhidlik zirvəsinə yüksəldi. Nurlanın ömrü yarımçıq qalsa da, sevgisi yarımçıq qalmadı...

2020-ci ilin mart ayında ailə quran Nurlan ata olacağını öyrənəndə övladı üçün saysız-hesabsız arzular qurdu. Oğluna hansı idman növünü öyrədəcəyini, necə böyüdəcəyini, hansı məktəbə aparacağını danışırdı. Təəssüf ki, ömrü kimi arzuları da yarımçıq qaldı… Kapitan Nurlan Mustafayev şəhid olanda həyat yoldaşı Günay xanım körpəsini bətnində gəzdirirdi.

Beş ay sonra - 2021-ci il martın 9-da bir oğlan uşağı dünyaya gəldi. Körpəyə atasının adı verildi - Nurlan! Bu, sadəcə ad deyildi, ata Nurlanın həyatının davamı idi. İllər keçir, balaca Nurlan indi tez-tez atasının məzarını ziyarət edir. İkinci Şəhidlər xiyabanında balaca əlləri ilə məzar daşını sığallayır. Bəlkə də hələ tam anlamır ki, qarşısında yatan insan yalnız onun atası deyil, həm də bir millətin qəhrəman oğludur. Atası onun suallarına cavab verməsə də, sükutun da danışdığı anlar olur. Sanki məzar daşından görünməyən bir əl uzanıb, oğlu-



nun saçlarını oxşayır və pıçıldayır: "Mən səni qucağıma ala bilmədim, oğlum... Amma sən azad Azərbaycanda böyüyəcəksən. Mən bunun üçün döyüşdüm". Şəhidlər, əslində, ölmürlər, onlar övladlarının baxışlarında, anaların dualarında dalğalanan üçrəngli Zəfər bayrağımızda yaşayırlar.

Kapitan Nurlan Mustafayev göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

Əslində onun ən böyük mükafatı nə ordenlər, nə də medallardır, xalqımızın sonsuz sevgisi, əsgərlərinin ehtiramı, oğlunun daşıdığı şərəfli addır. Bu gün azad Qarabağın zirvəsində dalğalanan müqəddəs üçrəngli bayrağımızın hər dalğasında Nurlan Mustafayev kimi igidlərin nəfəsi var. Onlar bizə təkcə işğal altında olan torpaqlarımızı deyil, həm də qürurumuzu, başımızı dik tutmaq haqqını qaytardılar. Şəhidlər ölmürlər, onlar xalqın vicdanında əbədi keşik çəkirlər. Nurlan Mustafayev də həmin müqəddəs keşikçilərdəndir. Vətən sağ olduqca, Azərbaycan bayrağı Qarabağ səmasında dalğalandıqca, onun adı da qəhrəmanlıq salnaməmizin ən işıqlı səhifələrində yaşayacaq. Çünki qəhrəmanların ömrü təqvimlə ölçülmür, onların ömrü Vətənin əbədiyyəti qədər uzun olur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan beynəlxalq aləmdə uğurla inkişaf edən nüfuzlu dövlət kimi qəbul edilir

22 İyul - Milli Mətbuat və Jurnalistika Günü münasibətilə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov "bakibaku.az" saytının kollektivi ilə görüşüb.



Görüş zamanı Bakı Şəhər İcra Hakimiyyətinin başçısı sayt kollektivinin ictimai əhəmiyyətli hadisələrin işıqlandırılmasında qazandığı mühüm nailiyyətləri yüksək qiymətləndirərək bildirib ki, banisi görkəmli jurnalist Nəsir İmanquliyev olan bir media orqanının bir hissəsi olmaq böyük şərəf və eyni zamanda yüksək məsuliyyətdir.

Eldar Əzizov xatırladıb ki, bu il görkəmli jurnalist Nəsir İmanquliyevin anadan olmasının 115 illiyi qeyd edilir. O vurğulayıb ki, əsası qoyulmasından artıq 70 ilə yaxın vaxt keçən "Bakı" qəzeti öz dövründə Azərbaycan mətbuatının inkişafında mühüm rol oynayıb.

Eldar Əzizov qeyd edib ki, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində demokratiyanın ən vacib prinsiplərindən biri olan söz azadlığı ölkədə təmin edilib. Hazırda Azərbaycanın media məkanında çoxsaylı xəbər saytları və çap nəşrləri sərbəst fəaliyyət göstərir, hakimiyyətlə cəmiyyət arasında dialoq daha da dərinləşib.

Bu baxımdan Prezidentin media nümayəndələri ilə keçirdiyi ənənəvi görüşlər xüsusi əhəmiyyət daşıyır. Həmin görüşlərdə dövlət başçısı görülən işlərin nəticələri ilə yanaşı, ölkənin gələcək inkişaf perspektivləri barədə də ətraflı məlumat verir. Bu kursun əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Tarixçi kimi deyə bilərəm ki, postsovet məkanında, eləcə də Şərqi Avropa ölkələri və daha geniş coğrafiyada öz dövlətinin maraqlarını bu qədər uğurla müdafiə edən və dünyada baş verən mürəkkəb proseslər fonunda ölkəsinin davamlı inkişafını təmin edən başqa bir lider görmürəm", - deyə paytaxtın icra başçısı bildirib.

Eldar Əzizovun sözlərinə görə, təhlükəsizlik, sabitlik, abadlıq və hər sahədə nizam-intizam artıq Azərbaycanın vizit kartına çevrilib və məhz bu amillər ölkəyə gələn turistlərin sayının ildən-ilə artmasına səbəb olur. O vurğulayıb ki, Azərbaycan beynəlxalq aləmdə getdikcə daha çox uğurla inkişaf edən nüfuzlu dövlət kimi qəbul edilir.

"Bütün bunlara və daha bir çox uğurlara görə cənab Prezidentə minnətdarlığımızı bildirir, ona təşəkkür edirik", - deyə Eldar Əzizov çıxışını yekunlaşdırıb.

*"Azərbaycan"*

# Azərbaycanın "yaşıl enerji" layihələri beynəlxalq karbon bazarında yeni uğura imza atıb









Azərbaycanın enerji sektorunda daha bir tarixi uğur əldə olunub. "Azərenerji" ASC ilə "SOCAR Trading"in birgə əməkdaşlığı çərçivəsində Kəlbəcər rayonunda yerləşən **"Çıraq-1", "Çıraq-2", "Soyuqbulaq", "Meydan"** və **"Qamışlı"** kiçik su-elektrik stansiyaları beynəlxalq karbon sertifikatı almaq üçün uğurla qeydiyyatdan keçib. Bu stansiyalar üzrə illik **37 min ton karbon emissiyasının azaldılması** təsdiqlənəcək və müvafiq karbon sertifikatları təqdim ediləcək.

Xatırladaq ki, bu ilin yanvarında Laçında yerləşən **"Mirik"** və **"Qaraqışlaq"** kiçik su-elektrik stansiyaları İsveçrədə yerləşən beynəlxalq karbon sertifikatlaşdırma qurumu **Gold Standard** tərəfindən **10 745 vahid** karbon krediti əldə edib. Bu, Azərbaycanın bərpaolunan enerji layihələri üzrə beynəlxalq karbon bazarında qazandığı **ilk karbon kreditləri** olmaqla ölkənin "yaşıl enerji" tarixində mühüm mərhələ hesab olunur.

Karbon sertifikatlarının əldə edilməsi istiqamətində işlər davam etdirilir. Hazırda Laçında yerləşən **"Mişni", "Alxaslı"** və **"Ağbulaq-2"** su-elektrik stansiyalarının beynəlxalq qeydiyyat prosesi davam edir. Eyni zamanda Zəngilanda yerləşən **"Şayıflı", "Cahangirbəyli", "Zəngilan"** və **"Şeylanlı"** su-elektrik stansiyalarının karbon sertifikatları alması üçün hazırlanmış layihə sənədləri beynəlxalq ekspertlər tərəfindən qiymətləndirilir.

Məlumat üçün bildirək ki, **"Azərenerji"** tərəfindən tikilən **"Ağbulaq-2"** və **"Şeylanlı"** su-elektrik stansiyaları **bu ayın 11-də, digər stansiyalar isə daha əvvəl - 2023, 2024 və 2025-ci illərdə Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib.**

*"Azərbaycan"*

BEYNƏLXALQ HƏYAT

# Quterreşi kim əvəz edəcək?

## BMT Baş katibi vəzifəsi uğrunda 6 namizəd mübarizə aparır

Portuqaliyalı Antonio Quterreş Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibi vəzifəsində 10 il çalışdıqdan sonra dekabrın 31-də səlahiyyət müddətini başa vuracaq. Hazırda bu vəzifə uğrunda 6 namizəd mübarizə aparır.

BMT Nizamnaməsinə görə, Baş katib "eyni dərəcədə diplomat və ictimai maraqlar müdafiəçisi, dövlət qulluqçusu və baş direktordur". Bu vəzifədə olan şəxs qlobal sülhün və təhlükəsizliyin qorunması vəzifəsini daşıyan Təhlükəsizlik Şurası da daxil olmaqla BMT-nin bir neçə əsas orqanına nəzarət edir.

Yeni Baş katib daimi üzvləri Çin, Fransa, Rusiya, Böyük Britaniya və ABŞ-nin yer aldığı Təhlükəsizlik Şurasının tövsiyəsi ilə BMT Baş Assambleyası tərəfindən seçiləcək. Buna görə də potensial namizədlər dairəsi məhduddur, prosesin özü isə mürəkkəbdir və bir çox maneələr vəd edir.

Çilinin ilk qadın prezidenti Mişel Baçelet (2006-cı ildən 2010-cu, 2014-cü ildən 2018-ci ilə qədər) həmçinin ilk qadın BMT Baş katibi olmaq istəyir. 10 il əvvəl qadın namizədlər Quterreşə uduzmuşdular. 74 yaşlı M.Baçelet bu ilin əvvəlində demişdi: "Nəzakətlə ifadə etsək, deyərdim ki, dünya o vaxt buna hazır deyildi. İndi hazırdırmı? Ümid edirəm ki, hazırdır. Bu, çox vacib müsbət siqnal olacaq və bir çox insanda ümid doğuracaq".

2018-ci ildən 2022-ci ilə qədər Mişel Baçelet BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı vəzifəsində çalışmışdır. O, bu vəzifədə Baş katib seçiləcəyi halda qarşılaşacağı bir çox əsas geosiyasi məsələlərin həllində iştirak etmişdir. Xanım Baçelet BMT Təhlükəsizlik Şurasının üzləşdiyi bütün problemləri həll etmək üçün "sehrli formulu"nun olmadığını etiraf etsə də, təcrübəsini əsas güclü tərəflərindən biri kimi göstərir.

Argentina vətəndaşı Rafael Qrossi diplomat karyerasının böyük bir hissəsini nüvə enerjisinə və nüvə sənayesinə həsr edib. Bu onun 2019-cu ildə BMT sistemində muxtar bir təşkilat olan Beynəlxalq Atom Enerjisi Agentliyinin (IAEA) baş direktoru təyin edilməsi ilə nəticələnib. Nüvə müharibəsi riskinin getdikcə artan bir təhlükə kimi qəbul edildiyi hazırkı qlobal geosiyasi mühitdə R.Qrossi peşəkar təcrübəsinin ona fərqli bir üstünlük verdiyinə əmindir. O, İsveçrənin "Geneva Solutions" nəşrinə verdiyi müsahibədə "Yaşadığınız dünyanı anlamalısınız" deyib. R.Qrossi BMT-nin UN80 kimi tanınan hazırkı islahat təşəbbüsünü dəstəkləyir və hesab edir ki, "təkəri yenidən icad etməyə ehtiyac yoxdur". Onun fikrincə, BMT bəzi strukturlarını birləşdirməklə və üzv dövlətlərə ağır maliyyə yükü qoyan çoxsaylı təkrarlanan funksiyaları aradan qaldırmaqla optimallaşdırılmalıdır.



İspan əsilli Ekvador nümayəndəsi Mariya Fernanda Espinosa 61 il ərzində artıq çox uğura nail olub. O, Ekvadorun xarici işlər naziri vəzifəsində çalışmaqla yanaşı, şair, esseçi, davamlı inkişaf və iqlim dəyişikliyi üzrə mütəxəssisdir. Britaniyanın "The Observer" qəzetinə verdiyi müsahibədə Espinosa BMT-nin büdcə çətinliklərini etiraf edib. "Hazırda ən böyük problem maliyyə çətinlikləridir", - deyə bir il BMT Baş Assambleyasının sədri vəzifəsində çalışmış ekvadorlu bildirib. Buna görə də o hesab edir ki, BMT "islahat aparmalı, dəyişməli və ya məhv olmalıdır". Belə bir islahatı həyata keçirmək üçün Espinosa regional təşkilatlarla daha sıx əməkdaşlıq etmək, həm maliyyə, həm də əks maraqları və məqsədləri olan dövlətlər arasında dialoq qura bilən "vasitəçi" kimi Avropaya etibar etmək niyyətindədir.

1994-cü ildən 1998-ci ilə qədər Kosta Rikanın vitse-prezidenti vəzifəsində çalışmış Rebeka Qrinspan hazırda ticarət müqavilələrində inkişaf edən ölkələrin maraqlarını təmsil edən BMT Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) baş katibidir. O, 2022-ci ildə Rusiyanın Ukraynaya müdaxiləsindən sonra Qara dəniz üzərindən Ukraynanın taxıl ixracını davam etdirməsi üçün Kiyev və Moskva arasında vasitəçi kimi danışıqlar aparması ilə geniş tanınıb. Qrinspan BMT-nin daha cəsarətli olmasını istəyir. "Bürokratik strukturlar mahiyyət etibarilə riskdən yayınır, yaxşı ideyalar və risk götürməyə hazırlıq olmadan heç bir iş görülmür", - deyə o, Londonda yerləşən "Chatham House" beyin mərkəzi tərəfindən təşkil edilən tədbirdə bildirib. Qrinspan həmçinin Təhlükəsizlik Şurasında xüsusən Afrika və Latın Amerikası ölkələrinin təmsilçiliyinin genişləndirilməsini müdafiə edib.

BMT Baş katibi vəzifəsinə digər namizəd Maki Salldır. 64 yaşlı siyasətçi 2012-ci ildən 2024-cü ilə qədər Seneqal Prezidenti, ondan əvvəl isə Baş nazir vəzifəsində çalışıb. Onun prezidentliyi dövründə Seneqalda infrastrukturun inkişafında əhəmiyyətli müsbət dəyişikliklər müşahidə edilib. Lakin 2021-ci ildə ikinci müddətində Sallın populyarlığı müxalifət lideri Ousmane Sonkonun həbsi ilə əlaqədar baş verən etirazlardan sonra azalmağa başlayıb. Dövlət başçısının 2024-cü il prezident seçkilərini təxirə salmaq üçün uğursuz cəhdi də etirazlara səbəb olub və baş vermiş insan itkilərindən sonra ona öz ölkəsində münasibət birmənalı deyil. Hazırkı Seneqal hakimiyyəti əvvəlcə onun BMT Baş katibi vəzifəsinə namizədliyini dəstəkləməyib, lakin ötən ay mövqeyini dəyişib.

Namizədliyini irəli sürmək niyyətini ən son açıqlayan isə Karolin Rodrigez-Birkettdir. O, Qayananın BMT-dəki daimi nümayəndəsidir. Əvvəllər həm də Qayananın xarici işlər naziri vəzifəsində çalışıb. Rodrigez-Birkett Amerikanın yerli xalqlarına mənsubdur. Onun BMT-də yüksək vəzifə tutmaq niyyətində olduğunu bu yaxınlarda Qayana Prezidenti İrfaan Əli açıqlayıb: "Səfir Rodrigez-Birkettin BMT-nin gələcəyi ilə bağlı konsepsiyası çoxtərəfli yanaşmanı gücləndirmək, təşkilatın effektivliyini və çevikliyini artırmaq, daha inklüziv qlobal idarəetməni inkişaf etdirmək və BMT-nin müasir çağırışlara cavab vermək qabiliyyətini qorumaqdır".

# Hindistanda tələbə etirazları hökumət üçün problemə çevrilib

Hindistanın müxtəlif şəhərlərində hakim partiyanın üzvləri, əsas müxalifət partiyası, tələbələr və polis arasında toqquşmalar baş verir. Hadisələr imtahan suallarının sızması və hakimiyyət orqanları tərəfindən Telegram-ın müvəqqəti bloklanmasından sonra təhsil nazirinin istefasını tələb edən satirik "Xalq tarakanlar partiyası"nın etirazları ilə başlayıb.



Bu günlərdə qeyri-rəsmi partiyanın minlərlə tərəfdarı Dehlidə toplaşaraq parlamentin binasına yürüş etmək istəyib. Bu zaman polislə toqquşmalar baş verib və təxminən 60 etirazçı və 118 polis əməkdaşı yaralanıb.

Hindistanın məşhur siyasi sülaləsinin varisi Rahul Qandi və əsas müxalifət Hindistan Milli Konqresinin (INC) digər liderləri "Xalq tarakanlar partiyası"nı dəstəkləyib və Baş nazir - Bharatiya Janata Partiyasının (BJP) lideri Narendra Modinin iqamətgahına yürüş ediblər. Orada polislə toqquşma baş verib, asayiş keşikçiləri Qandini və digər INC liderlərini saxlayıb, lakin sonradan sərbəst buraxıblar. Rahul Qandi təhsil naziri Dharmendra Pradhanın istefasını və 20 iyulda tələbə nümayişinin dağıdılmasına görə Baş nazir Modinin üzr istəməsini tələb edib. INC və BJP üzvləri Hindistanın müxtəlif şəhərlərində mitinqlər və yürüşlər keçirib, bəzi yerlərdə bir-biriləri, bəzi yerlərdə isə polislə toqquşublar.

Hökumət hələlik təslim olmaq niyyətində deyil. Yüksəkvəzifəli bir məmur PTI xəbər agentliyinə nazir Dharmendra Pradhanın istefa verməyəcəyini bildirib. "Təhsil nazirinin istefasından söhbət gedə bilməz. Bu məsələ, ümumiyyətlə, gündəmdə deyil. Nazir imtahan suallarının sızmasında günahlandırıla bilməz, çünki o, bu məsələdə şəxsən iştirak etməyib", - deyə mənbə bildirib və təkrar imtahanın uğurlu olduğunu qeyd edib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Beyni qüvvətləndirən qidalar

Yaddaşın zəifləməsi, düşünmə və qərarvermə qabiliyyətinin tədricən itirilməsi artıq təkcə yaşlı insanların deyil, həm də cavanların həyat keyfiyyətinə ciddi təsir göstərən sağlamlıq problemidir. Mütəxəssislər sağlam həyat tərzinin, müntəzəm fiziki aktivliyin, xüsusilə düzgün qidalanmanın beyin sağlamlığının qorunmasında mühüm rol oynadığını bildirirlər. Beyin hüceyrələrinin quruluşu, sinir impulslarının ötürülməsi və yaddaş prosesləri birbaşa qəbul etdiyimiz qidalardan asılıdır. Bu səbəbdən gündəlik rasiona beyin üçün faydalı məhsulların daxil edilməsi tövsiyə olunur.

Bu siyahının ilk sırasında noxud yer alır. Bir çox insan zülal mənbəyi deyildikdə ilk növbədə ət, yumurta və süd məhsullarını düşünür. Halbuki noxud da yüksəkkeyfiyyətli bitki mənşəli zülal mənbəyidir. Zülallar orqanizmdə amin turşularına parçalanır və həmin amin turşuları sinir hüceyrələri arasında əlaqə yaradan neyrotransmitterlərin yaranmasında iştirak edir. Neyrotransmitterlərin normal fəaliyyəti isə yaddaşın formalaşması, diqqətin cəmlənməsi və öyrənmə prosesləri üçün vacibdir. Konservləşdirilmiş noxudu salatlara əlavə etmək, sobada qızartmaq və ya humus hazırlayaraq istehlak etmək mümkündür.

Beyin üçün ən faydalı meyvələrdən biri də qaragilədir. Qaragilənin tünd bənövşəyi rəngi onun yüksək antioksidant tərkibindən xəbər verir. Bu meyvədə olan antosiyaninlər və kversetin adlı flavonoidlər beyində iltihabı azaltmağa, qan dövranını yaxşılaşdırmağa və yeni sinir hüceyrələrinin yaranmasını dəstəkləməyə kömək edir. Antosiyaninlər xüsusilə yaddaş və diqqətə cavabdeh olan beyin nahiyələrində qan axınını artırır. Kversetin isə hüceyrələri gündəlik həyatın yaratdığı oksidativ stresdən qoruyur. Qaragiləni qatıq, yulaf sıyığı və ya smuzi ilə birlikdə qəbul etmək tövsiyə olunur.

Yaşıl yarpaqlı tərəvəzlər də beyin üçün əvəzolunmaz qidalardandır. İspanaq, kələm, pazı, brokoli, roka və kahının tərkibində bol miqdarda fol turşusu, K və C vitaminləri, maqnezium və dəmir var. Fol turşusu sinir sisteminin normal inkişafı üçün vacibdir, K vitamini isə sinir hüceyrələri arasında əlaqələrin qorunmasına kömək edir. Maqnezium və dəmir diqqətin, zehni oyaqlığın və enerji istehsalının təmin edilməsində mühüm rol oynayır. Araşdırmalar göstərir ki, yaşıl yarpaqlı tərəvəzləri müntəzəm qəbul edən insanlarda yaşla bağlı idrak zəifləməsinin qarşısı alınır.

Yağlı balıqların beyin sağlamlığındakı rolu isə artıq uzun illərdir elmi şəkildə sübut olunub. İnsan beyninin təxminən 60 faizi yağdan ibarətdir və bu yağın mühüm hissəsini omeqa-3 turşuları təşkil edir. Omeqa-3 sinir hüceyrələrinin membranlarının əsas komponentlərindən biridir və yaddaş, diqqət, öyrənmə kimi proseslər üçün vacib sayılır. Tədqiqatlar göstərir ki, omeqa-3-ün yüksək qəbulu Altsheymer xəstəliyi ilə əlaqələndirilən beta-amiloid zülallarının toplanmasını azalda bilər. Mütəxəssislər həftədə ən azı iki dəfə qızılbalıq, sardina, istavrit, hamsi, alabalıq, ringa və ya palamut kimi yağlı balıqların istehlakını tövsiyə edirlər. Konservləşdirilmiş balıqlar isə əlavə olaraq D vitamini və kalsiumla zəngindir.



Son illər tünd şokoladın da beyin sağlamlığı üçün faydalı olduğu barədə çoxsaylı araşdırmalar dərc olunur. Ən azı 70 faiz kakao tərkibli tünd şokolad flavonoidlər, epikatexin, katexin və prosianidin kimi bioaktiv maddələrlə zəngindir. Bu birləşmələr beyində qan dövranını yaxşılaşdırır, diqqət və yaddaş funksiyalarını dəstəkləyir, hüceyrələri oksidativ zədələnmədən qoruyur. Bununla yanaşı, tərkibindəki az miqdarda kafein qısamüddətli zehni performansı yüksəldə bilər. Lakin mütəxəssislər həddi miqdarına diqqət yetirməyi, gündə cəmi bir-iki kiçik parça tünd şokolad yeməyi məsləhət görürlər.

Aralıq dənizi pəhrizinin əsas komponentlərindən olan rafinə olunmuş zeytun yağı da beyin sağlamlığını qoruyan məhsullar sırasındadır. Onun tərkibində olan polifenollar və digər iltihabəleyhinə maddələr damarların elastikliyini qoruyur, qan dövranını yaxşılaşdırır və nəticədə beyinə daha çox oksigen çatmasına şərait yaradır. Sağlam damar sistemi isə sağlam beyin fəaliyyətinin əsas şərtlərindən biridir. Salatlara az miqdarda sızma zeytun yağı əlavə etmək gündəlik qidalanmanın faydalı hissəsinə çevrilə bilər.

Qoz-fındıqlar arasında xüsusilə Braziliya qozu diqqət çəkir. O, sağlam yağlarla yanaşı, güclü antioksidant olan seleniumun ən zəngin təbii mənbələrindən biridir. Selenium beyin hüceyrələrini oksidativ zədələnmədən qoruyur və sinir sisteminin normal fəaliyyətini dəstəkləyir. Bununla belə, Braziliya qozunda selenium çox yüksək miqdarda olduğu üçün gündə iki-üç ədəddən artıq qəbul etmək məsləhət görülmür. Onu qəlyanaltı kimi yemək və ya qatığa əlavə etmək də mümkündür. Balqabaq toxumu da maqnezium, sink və dəmir baxımından zəngin olduğu üçün sinir impulslarının ötürülməsində mühüm rol oynayır, diqqət və yaddaşı dəstəkləyir.

Yumurta da beyin üçün ən qiymətli qidalardan hesab edilir. Onun tərkibində olan kolin maddəsi yaddaş və öyrənmə prosesində mühüm rol oynayan asetilxolin adlı neyrotransmitterin yaranmasına kömək edir. Eyni zamanda yumurta B6, B12 vitaminləri və fol turşusu ilə zəngindir. Bu vitaminlər yaşla bağlı idrak zəifləməsinin qarşısının alınmasına dəstək verir.

Portağal, limon və qreypfrut kimi sitrus meyvələri yüksək C vitamini tərkibinə görə antioksidant müdafiəni gücləndirir. C vitamini beyin hüceyrələrini sərbəst radikalların zərərli təsirindən qoruyur, iltihabın azalmasına kömək edir və stress hormonlarının tənzimlənməsində iştirak edir.

Yaşıl çay da beyin fəaliyyətini dəstəkləyən içkilərdən biridir. Onun tərkibindəki polifenollar və antioksidantlar beyin hüceyrələrini qoruyur, kafein isə diqqət və oyaqlıq səviyyəsini artırır. Yaşıl çay müntəzəm istifadə olunduqda yaddaş və konsentrasiyanın yaxşılaşmasına müsbət təsir göstərə bilər.

Mütəxəssislər vurğulayırlar ki, təkcə bir məhsulun qəbul edilməsi möcüzə yaratmır. Beyin sağlamlığı üçün əsas prinsip müxtəlif və balanslı qidalanma, kifayət qədər fiziki aktivlik, normal yuxu rejimi, siqaretdən uzaq durmaq, qan təzyiqi və şəkər səviyyəsinə nəzarət etməkdir. B vitaminləri, xüsusilə B6, B12 və fol turşusu sinir sisteminin normal fəaliyyəti üçün vacib olsa da, onların təsiri sağlam həyat tərzinin digər elementləri ilə birlikdə daha güclü olur.

Müasir tədqiqatların nəticələri göstərir ki, insan beyninin sağlamlığı böyük ölçüdə gündəlik seçimlərimizdən asılıdır. Müntəzəm hərəkət etmək, sosial həyatda aktiv olmaq, zehni məşqlər etmək və antioksidantlar, omeqa-3 yağ turşuları, vitamin və minerallarla zəngin qidaları rasiona daxil etmək təkcə yaddaşı gücləndirmir, həm də gələcəkdə demensiya riskinin azalmasına kömək edir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3204
Sifariş 924

Qiyməti 60 qəpik